SEVİNC VƏLİYEVA

# AZƏRBAYCANIN FLORA VƏ FAUNASINA QAYĞIKEŞ MÜNASİBƏTİN TƏRBİYƏ OLUNMASI



DƏRS VƏSAİTİ

**SEVİNC TOFİQ QIZI VƏLİYEVA**

# AZƏRBAYCANIN FLORA VƏ FAUNASINA QAYĞIKEŞ MÜNASİBƏTİN TƏRBİYƏ OLUNMASI

**(DƏRS VƏSAİTİ)**

*Dərs vəsaiti Naxçıvan Müəllimlər İnstitutu Elmi Şurasının 31 yanvar 2025-ci il tarixli iclasında müzakirə olunaraq nəşri məqsədəuyğun hesab edilmişdir*

**“ZƏNGƏZURDA” Çap Evi**
**Bakı – 2025**

**Elmi redaktor:** **Akif Nurağa oğlu Abbasov**
pedaqogika elmləri doktoru, professor,
əməkdar müəllim
**Rəyçilər:** **Ləzifə Nağı qızı Qasımova**
pedaqogika elmləri doktoru, professor
**Vahid Məmməd oğlu Rzayev**
pedaqogika üzrə fəlsəfə doktoru,
dosent
**Lalə Akif qızı Məmmədli**
pedaqogika üzrə fəlsəfə doktoru

**Vəliyeva S.T.** Azərbaycanın flora və faunasına qayğıkeş münasibətin tərbiyə olunması. Dərs vəsaiti.
Bakı: "ZƏNGƏZURDA" Çap Evi, 2025, – 160 səh.

Təqdim olunan dərs vəsaitində I-IV siniflərdə Azərbaycan dili, musiqi, təsviri incəsənət və həyat bilgisi fənlərinin səmərəli tədrisi zamanı kiçikyaşlı məktəblilərə Azərbaycanın flora və faunasına, təbiətə məhəbbətin və qayğıkeş münasibətin aşılanmasına kömək göstərəcək məsələlərə aydınlıq gətirilmişdir.

Dərs vəsaitində flora və faunamıza, təbiətə qayğıkeş münasibətin formalaşdırılması məqsədilə faydalanılması lazım gələn, təbiətin gözəlliklərinə, bitki və heyvanat aləminə dair nağıllar, hekayələr, mahnılar, əfsanələr, şeirlər, tapmacalar, atalar sözləri, müdrik şəxslərin fikirləri ilə tanış olmaq mümkündür.

Dərs vəsaiti ali təhsil müəssisələrinin pedaqoji kollektivlərinə, həmçinin ibtidai siniflərdə dərs deyən müəllimlərə ünvanlanmışdır.

**DOI: https://doi.org/10.36719/16/2025**

V $\frac{460100000}{160\text{-}2025}$ Qrifli nəşr

**© Sevinc Vəliyeva, 2025**
**© ZÇE, 2017**

## ELMİ REDAKTORDAN

Dünya iqlim dəyişikliyi, ekoloji böhranla üz-üzədir. Yer üzünü dəhşətli fəlakətlər gözləyir. Son zamanlar dünyanı ağzına alan meşə yanğınları, zəlzələ və daşqınlar həyəcan təbilidir. İçməli su qıtlığı, istiliyin yüksək həddə çatması, karbon qazının havanı bürüməsi və s. qara gündən xəbər verir. Kiçik ada dövlətləri yox olmaq təhlükəsindədir. Ekoloji problemlərin qarşısını almaq üçün bütün ölkələr bir araya gəlməlidir. Müharibələrə çəkilən milyardlarla xərcin bir qismi iqlim dəyişikliyinin nizamlanmasına, ekoloji problemlərin həllinə yönəlsə, dünya təhlükələrdən xilas olar.

Təbiətə, ekologiyaya qayğı göstərmək, flora və faunanı qorumaq təkcə dövlətlərin deyil, eyni zamanda hər bir ölkə vətəndaşının borcudur. Bir sıra hallarda ətraf mühiti, çayları, çəmənlikləri, parkları ayrı-ayrı şəxslər təhlükə qarşısında qoyurlar.

Meşədə od qalayıb onun sönməsinə əmin olmadan oranı tərk edən, sönməmiş siqareti hara gəldi atan, çaylara, göllərə cürbəcür şeylər tullayan, heyvanlarla qəddar rəftar edən, ağacları qıran bəzi insanlardır. Təbiəti, flora və faunanı dövlətlərlə yanaşı ölkə vətəndaşları da qorumalıdırlar. Ötən ilin dekabr ayında Bakı şəhərində keçirilmiş COP29 - iqlim dəyişiklikləri, ekoloji fəlakətlərin aradan qaldırılması problemlərinə həsr olunmuş son dərəcə irimiqyaslı tədbir idi. Həm də maliyyə dəstəyi məsələlərinin həlli nəzərdə tutulurdu.

Pedaqogika üzrə fəlsəfə doktoru Sevinc Tofiq qızı Vəliyevanın yazdığı bu dərs vəsaiti haqqında danışılan problemlərin aradan qaldırılmasına dəstək rolunu oynayır.

Hər bir ölkənin vətəndaşı ekoloji mədəniyyətə yiyələnməli, təbiəti mühafizə fəaliyyətinə qoşulmalıdır. Azərbaycanda da müəyyən ekoloji problemlər vardır. Mənfur qonşularımız – ermənilər çaylarımızı çirkləndirir, sənaye müəssisələrinin tullantılarını çaylarımıza axıdır.

Ermənistanda Metsamor atom elektrik stansiyasının istismar müddəti 2016-cı ildə bitmişdir. Fəqət stansiya işləməkdə davam edir, qonşu ölkələr – Türkiyə, Azərbaycan və İran üçün ciddi təhlükə yaradır, həyəcan təbilinə məhəl qoymurlar. Onların bu özbaşınalıqlarının qarşısını alan isə yoxdur.

Ekoloji problemlərin həllində, təbiətin mühafizəsi işində, ölkənin bitki və heyvanat aləminə rəğbət və məhəbbət hisslərinin böyüyən nəslə aşılanmasında təhsil ocaqlarının üzərinə də mühüm vəzifələr düşür.

Biz pedaqogika üzrə fəlsəfə doktoru Sevinc Tofiq qızı Vəliyevanın "Azərbaycanın flora və faunasına qayğıkeş münasibətin formalaşdırılması" mövzusunda dərs vəsaitini ibtidai sinif müəllimləri üçün çox qiymətli bir hədiyyə kimi dəyərləndiririk. İbtidai sinif müəllimləri şagirdlərin təbiəti mühafizə fəaliyyətinin təşkilində bu dərs vəsaitindən bol-bol faydalana biləcəklər.

Dərs vəsaitində I-IV siniflərin Azərbaycan dili, musiqi, təsviri incəsənət və həyat bilgisi fənləri üzrə məşğələlərində Azərbaycanımızın gözəl təbiətinə, flora və faunasına qayğıkeş münasibəti formalaşdırmaq üçün müəllimlərə istiqamət, konkret kömək göstərilir.

Həm adları çəkilən fənlərin tədrisi zamanı, həm də təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycan dili, həyat bilgisi təsviri incəsənət və musiqi fənlərinin tədrisi və ayrı-ayrı mövzularla tanışlıq vaxtı istifadə edilməsi məsləhət bilinən materiallar öz əksini tapmışdır.

Bu materiallar təbiətə, onun gözəlliklərinə, ölkəmizin bitki və heyvanat aləminə aid şeirlərdən, mətnlərdən, əsatir, rəvayət, nağıllardan, atalar sözlərindən, mahnı mətnlərindən ibarətdir.

Dərs vəsaitinin planlaşdırılması da diqqətəlayiqdir. Fikir verək: 1. Azərbaycan dili, təsviri incəsənət, musiqi və həyat bilgisi dərslərində kiçikyaşlı məktəblilərdə təbiətə qayğıkeş münasibətin formalaşdırılmasının imkanları və yolları; 2. İbtidai siniflərdə tədris olunan fənlər üzrə təlim xarakterli sinifdən-

xaric məşğələlərdə kiçikyaşlı məktəblilərə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibətin aşılanması. 3. Şagirdlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılması sahəsində müəllimin rolu. 4. Şagirdlərdə ölkəmizin flora və faunasına, təbiətinə qayğıkeş münasibətin tərbiyə olunması işinə pedaqoji rəhbərlik məsələləri. 5. COP29 – dünyada və Azərbaycanda iqlim dəyişiklikləri ilə bağlı problemlərin müzakirəsini nəzərdə tutan və gözlənilən fəsadların aradan qaldırılmasına kömək göstərəcək əhəmiyyətli tədbir kimi. 6. COR29-la bağlı ibtidai sinif müəllimlərinin bilməli olduqları məsələlər.

Dərs vəsaiti "Ön sözlə başlayıb" "Son söz"lə tamamlanır.

Heç şübhə etmirik ki, pedaqogika üzrə fəlsəfə doktoru Sevinc Tofiq qızı Vəliyevanın "Azərbaycanın flora və faunasına qayğıkeş münasibətin tərbiyə olunması" mövzusunda dərs vəsaiti ibtidai sinif müəllimlərinin stolüstü kitabı olacaqdır.

**Akif Nurağa oğlu Abbasov**
pedaqogika elmləri doktoru,
professor, əməkdar müəllim

## ÖN SÖZ

Xalqlar, millətlər tarixi abidələri, maddi və mənəvi sərvətləri, zəhmətkeş insanları, məşhur adamları və təbii ki, florası və faunası, təbiəti ilə fəxr edir, qürur hissi keçirir.

Hazırda yaşanan ekoloji problemlərin kəskinliyi pedaqoji nəzəriyyənin və məktəbin qarşısında böyüməkdə olan nəsli canlı aləmə, flora və faunamıza qayğıkeş münasibət göstərmək ruhunda tərbiyələndirmək vəzifəsi qoyur. Uşaqlıqda təbiətin flora və faunasına görə cavabdehlik tərbiyə etmək tələb olunur.

Bu sahədə ibtidai siniflərin rolu böyükdür. Ölkəmizdə yetişən nəsli təbiətin florasına, həmçinin faunasına qayğı ilə yanaşmaq, təbiəti sevmək istiqamətində tədbirlər təşkil olunur. Azərbaycanda ətraf aləmin mühafizəsi, ona qayğı ilə yanaşılması həm dövlətimizin, həm hökumətimizin, həm də ictimaiyyətin çox mühüm sosial, iqtisadi, siyasi vəzifələrinə daxildir. Respublikamızda flora və faunamızın mühafizəsi, zənginləşdirilməsi yönümündə xarici təşkilatların fəaliyyəti də genişlənib. Azərbaycan Respublikası istər Avropa, istərsə də Asiya ölkələrində olan təbiətin mühafizəsi ilə məşğul olan qurumlarla əlaqələr yaradır.

Təhsil qanununda ibtidai sinif şagirdlərində təbiətə məsuliyyətli yanaşma, ölkəmizin flora və faunasına məhəbbətin formalaşdırılması ilə bağlı bir sıra tövsiyələr öz əksini tapmışdır. Göstərilir ki, dövlətimiz erkən yaş dövründən uşaqların intellektual, fiziki və psixi inkişafını, əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir.

Təhsil müəssisələrində ayrı-ayrı fənlərin tədrisi prosesində, sinifdənxaric və məktəbdənkənar tədbirlər zamanı şagirdlərin, o cümlədən kiçikyaşlı məktəblilərin ekoloji tərbiyəsi, onlarda ətraf mühitə, təbiətin flora və faunasına qayğıkeş münasibətin formalaşdırılması ilə bağlı sistemli, məqsədyönlü

işlər həyata keçirilir. Bu məqsədlə ibtidai siniflərdə müəllimlər Azərbaycan dili, həyat bilgisi, təsviri incəsənət, musiqi və başqa fənlərin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlarından faydalanırlar.

Böyüyən nəsildə ölkəmizin bitki və heyvanat aləminə qayğı ilə yanaşmaq, onu mühafizə etmək ekoloji mədəniyyətin, ekoloji tərbiyə üzrə aparılan işlərnin ayrılmaz tərkib hissələrindəndir. Ümummilli Liderimiz Heydər Əliyevin imzaladığı sərəncamla (10 dekabr 2002-ci il) "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"nu təsdiq edilmişdir. Bu qanuna görə, ekoloji təhsil - ətraf aləmin qorunması, təbii ehtiyatlardan faydalanma sahəsində qaydaların, normaların, bilik və təcrübənin öyrənilməsi prosesidir.

Qanunda ekoloji biliklər ətraf aləmə, ekologiyamıza, insanla təbiət arasında qarşılıqlı əlaqələrə aid məlumatlar; ekoloji maarifləndirmə ekoloji mədəniyyətin təşəkkülünə istiqamətlənən həm ekoloji bilik, həm də təcrübənin mövcudluğu; ekoloji mədəniyyət isə, yaşından asılı olmayaraq ayrı-ayrı şəxslərin, eyni zamanda ölkənin ekoloji baxımdan təhlükəsizliyinə, vətəndaşların təbiətlə sıx əlaqəsi iə bağlı biliklərin, həm də təcrübənin vəhdətidir.

Yuxarıda göstərilən müddəalar eyni zamanda şagirdlərdə ekoloji dünyagörüşünün, təbiətin flora və faunasına qayğıkeş münasibətin formalaşdırılmasına imkan verir.

Təhsilin inkişafı ilə bağlı Dövlət Strategiyasında [9] təhsilin məzmununun yaradılması haqqında danışılan təhsilə aid sənəd də mühüm istiqamətlərdəndir. Sənədin səriştəyə əsaslanan bu bəndində sinif müəllimlərindən tələb olunur ki, onlar şagirdlərin şəxsiyyətyönlü səviyyələrini yüksəldə bilmələrini diqqətdə saxlasınlar, təhsilalanların şəxsiyyət kimi tərbiyələnməsinə nail olsunlar.

Bu ilin noyabr ayının 11-24 tarixlərində respublikamızın paytaxtı Bakı şəhərində İqlim Dəyişikliyi Konfransı (başqa bir

adı: BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası, bir adı da: “Conference of the Parties”) - COP29 keçirilmişdir.

COP 2015-ci ilin dekabr ayında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi ilə bağlı Çərçivə Konvensiyasının üzvü olan dövlətlərin XXI konfransında qəbul olunan Paris Sazişinin qarşısında duran vəzifələri yerinə yetirmək məqsədilə təşkil edilən əlamətdar görüşdür.

Tərəflər Konfransı (COP) hər il təşkil olunur. 28-ci konfransı 2023-cü ildə Dubayda keçirilmişdir. COP-a bu və ya digər ildə hansı dövlətin rəhbərlik edəcəyi məsələsi Qərbi Avropanı, Afrika və Asiya ölkələrini, Mərkəzi və Şərqi Avropa ölkələrini, Latın Amerikası və Karib ölkələrini və bəzi başqa ölkələri təmsil edən ölkələrin səsverməsi əsasında seçilir. Həmin ölkələrin sayı 198-dir.

İqlim Dəyişikliyi Konfransı dünya səviyyəsində son dərəcə əhəmiyyətli bir tədbirdir. COP-un birinci iclası 1995-ci ildə Berlində baş tutub.

Konvensiyanın başlıca məramı insanlar tərəfindən iqlim sistemınə edilən və təhlükəli sayıla bilən hər hansı bir müdaxiləyə imkan verməmək, Yer üzündə CO-5-nin - karbon qazının miqdarını sənayeləşmədən qabaqkı vaxtındakı kimi 1,5 dərəcə Selsidə məhdudlaşdırmaqdan ibarətdir.

COP 29-un ölkəmizdə son dərəcə yüksək səviyyədə keçirilməsi üçün hər cür tədbirlər görülmüşdür. COP29 konfransında iştirak etmək üçün dünyanın bir çox ölkələrini təmsil edən on minlərlə nümayəndə gəlmişdir. Bu xüsusda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: “Şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin böyük uğuru olacaq. Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir. Dünyada hər kəs görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazararına nəqli bizim enerji siyasətimizin prioritetidir”.

Çox yaxşı haldır ki, cənab Prezident işğaldan azad olunmuş əraziləri – rayon, şəhər və kəndləri "Yaşıl enerji" zonası elan edib, tədbirlər planı tutulub.

"Yaşıl enerji" ideyası əsas götürülməklə respublikamız 2030-cu ilə kimi istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə kimi isə, 40 faiz aşağı salınmasını nəzərdə tutub. Ölkəmiz yaşıl enerji sahəsində liderliyə nail olmaq üçün mövcud enerji sistemini şaxələndirməkdədir.

Yuxarıda haqqında danışılan məsələlər kiçikyaşlı məktəblilərin Azərbaycanın təbiətinə, bitki və heyvanat aləminə diqqətin artırılmasını, onların qorunmasını, zənginləşdirilməsini tələbata çevirir.

Bu sahədə ailələrin də, ibtidai siniflərdə təlim prosesinin də, sinifdənxaric tədbirlərin də rolu böyükdür. Məsələn, ibtidai siniflərdə həyat bilgisi fənninin imkanlarını nəzərdən keçirək. Bu fənlə tanışlıq tələb edir ki, kiçikyaşlı məktəblilər hüquqlarını bilsinlər, başqalarının – sinif yoldaşlarının, digər insanların hüquq və azadlıqlarına hörmət etsinlər, təbiətə, ekologiyaya qayğı göstərsinlər; təbiətə, bitki və heyvanat aləminə, ekologiyaya qayğıkeş yanaşmaqla təbiət hadisələrini müşahidə etsinlər, onlara münasibət bildirsinlər;

Mövcud ədəbiyyatla tanışlıq göstərdi ki, professorlardan Z.İ.Qaralov, Y.Ş.Kərimov, N.M.Kazımov, Ə.Ş.Həşimov, Ə.Ə.Ağayev, Y.R.Talıbov, F.B.Sadıqov, A.O.Mehrabov, A.N.Abbasov, O.Q.Həsənli, H.H.Əhmədov, V.C.Xəlilov, M.H.Nəzərov, A.R.Babayeva, P.B.Əliyev, İ.İ.Əliyev, İ.İ.Məmmədov, L.N.Qasımova, M.A.İsmixanov, İ.T.Tacəddinov və b. tədqiqatlarında ekoloji təhsil və tərbiyənin məzmunu, ekoloji mədəniyyətin mahiyyəti ilə əlaqədar müəyyən mülahizələr varsa da, ibtidai sinif şagirdlərində təbiətin flora və faunasına qayğıkeş münasibətin formalaşdırılmasına dair elmi mühakimələrə ya az rast gəlinir, yaxud da belə yanaşmalar mövcud deyildir.

Təqdim olunan bu dərs vəsaitindən ibtidai siniflərdə Azərbaycan dili, həyat bilgisi, təsviri incəsənət və musiqi dərslərinin tədrisi zamanı kiçikyaşlı məktəblilərdə flora və faunamıza, Azərbaycan təbiətinə qayğıkeş münasibətin tərbiyə olunması məqsədilə faydalanmaq mümkündür.

# I FƏSİL. AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ TƏBİƏTƏ QAYĞIKEŞ MÜNASİBƏTİN FORMALAŞDIRILMASININ İMKANLARI VƏ YOLLARI

İbtidai siniflərdə tədris olunan əsas fənlərdən biri Azərbaycan dilidir. Bu fənn üzrə məşğələlərdə ayrı-ayrı mövzuların öyrənilməsi zamanı məktəblilərə ölkəmizin təbiəti, ekologiyası ilə bağlı məlumatlar verilə bilir. Mövzular da vardır ki, onların öyrənilməsi zamanı təhsilalanlara ölkəmizin flora və faunası, təbiətə qayğıkeş münasibət bəsləməyə tələbatın formalaşdırılması məqsədəuyğundur. Bu baxımdan I-IV sinif dərsliklər üzrə bir sıra mövzuların imkanları vardır.

Təcrübə və müşahidələrdən görünür ki, birinci siniflərdə Azərbaycan dili üzrə dərslərdə bəzi müəllimlər məktəblilərdə ekoloji mədəniyyətin təşəkkülündən ötrü zəruri işlər aparsalar da, bir qismi bu məsələni diqqətdən kənarda saxlayır. Bu da məlumdur ki, bəzi müəllimlər yarım il müddətində I sinif şagirdlərinə hərflər və səslər barədə məlumatları çatdırdıqlarından tərbiyənin bu və ya digər tərkib hissəsi ilə bağlı, məsələn, ekoloji tərbiyəyə dair müəyyən işlər aparmağı nəzərdə tutmurlar. Müəllimlərlə sorğular göstərir ki, savad təlimi dövründə təkcə mənəvi tərbiyə ilə bağlı müvafiq işlər görürlər.

Müşahidə və sorğular sübuta yetirdi ki, sinif müəllimlərinin əksəriyyəti birinci sinifdə ikinci yarım il üçün nəzərdə tutulmuş bu və ya başqa mövzunun öyrənilməsində ekoloji tərbiyəyə diqqət yetirirlər. Aşağıdakı mövzular diqqət mərkəzində olur:

**Azərbaycan dili** fənni üzrə

***I sinifdə (dərslik, I hissə):***

Dərslikdə "Məktəb bazarlığı", "Ailə və məktəb" ("Mənim ailəm", "Ramin və dostları"), "Babanın hədiyyəsi", "Təhlükədən qorunaq", "Sağlam həyat", "Təbiətin sirləri" bölmələri

var. Lakin “Təbiətin sirləri” bölməsi üzrə: 1. “Göy qurşağı”. 2. “İlbiz”. 3. “Göbələk” 4. “Bozqulaq” mövzuları bu və ya digər dərəcədə şagirdlərə təbiətə qayğıkeş münasibətin aşılanmasına imkan verir.

*I sinif dərsliyinin II hissəsində* “Nağıllar aləmində” (“Nağıllar”, “Biləndərin macəraları”, “Xəyal dünyası”, “Heyvanlar haqqında nağıllar”); “Vətənim Azərbaycan”, “Yaxşı nədir, pis nədir”, “Dünyanı kəşf edirəm” bölmələri vardır. Yalnız “Heyvanlar haqqında nağıllar” və “Vətənin Azərbaycan” bölmələri üzrə I sinif şagirdlərinə təbiətə qayğıkeş münasibətin aşılanması üzrə müəyyən işlər görülə bilər. “Nağıllar aləmində” bölməsinə “Nağıllar”, “Xəyal dünyası”, “Biləndərin macəraları”, “Heyvanlar haqqında nağıllar” mövzuları; “Vətənin Azərbaycan” bölməsinə “Vətənimizi tanıyaq”, “Vətənimizi sevək”, “Çağırır Vətən” mövzuları daxildir.

II sinfin Azərbaycan dili dərsliyinin birinci hissəsindəki bölmələr aşağıdakı şəkildə adlandırılmışdır: “Ailə və məktəb”, “Sağlam həyat”, “Təbiətin sirləri”, “Yaxşı nədir, pis nədir”.

Həmin bölmələrdən “Təbiətin sirləri” bölməsinin imkanlarından faydalanmaq mümkündür. Bu bölməyə aşağıdakı mövzular aiddir: “Təbiət hadisələri”, “Heyvanlar aləmi”, “Bitkilər aləmi”.

II sinfin Azərbaycan dili dərsliyinin ikinci hissəsindəki bölmələr “Nağıllar aləmində”, “Vətənin Azərbaycan”, “Ünsiyyət nədir?”, “Ətraf mühit və biz” adlandırılmışdır. Həmin bölmələrdən “Ətraf mühit və biz” nəzərdən keçirdiyimiz problemi özündə ehtiva edir. Bu bölmə aşağıdakı mövzuları özündə birləşdirir: 1. “Təbiət bizə nə verir”. 2. “Təbiəti qoruyaq”.

“Nağıllar aləmində” bölməsi üzrə şagirdlərin diqqətini “Qara ilan” Azərbaycan xalq nağılına [31] cəlb etmək mümkündür. Məktəblilər həmin nağılla tanış olurlar: Biri varmış, biri yoxmuş. Bir bağban varmış, onun da bir oğlu. Bağban övladını düzgün tərbiyə edibmiş. Ağıllı-kamallı idi. Günlərin

birində bağban yer şumlayırmış. Bu zaman gözünə qara ilanla ağ ilan dəydi. Onlar mehribancasına yanaşı uzanmışdılar. Bağban qara ilanı öldürmək istəyir, amma əlində tutduğu bel ağ ilana dəyir. O ölür. Qara ilan sürünüb gözdən itir. Kişi ağ ilanı basdırır. İllər keçir. Kişinin oğlu boya-başa çatır. Bağban övladına toy etmək fikrinə düşür. Qara ilan əhvalatından xəbəri olan kəndin ağsaqqalları, ağbirçəkləri kişiyə deyirlər ki, toy zamanı ehtiyatı əldən buraxma. Gəlin gələndə, qapıda dur, evə imkan vermə ki, kimsə, nə isə girsin. Kişi onlara qulaq asır. Lakin ağ ilanın sirdaşı, dostu, yoldaşı qara ilan kişinin gözünü oğurlayıb otağa keçir. Qara ilanın məqsədi bəyi çalmaq imiş. Amma toya gəlib-gedənlərin bağbandan necə razı qaldıqları, onun Allah adamı olduğunu deməleri onu öz fikrindən daşındırır. Səhər kəndin yaşlı adamları gəlib bağbanı sorğu-suala tuturlar:

- Bu axşam nə isə pis hadisə olmayıb ki?!

Kişi deyir: “Yox”.

Onlar gəlin otağına keçir, döşəyi qaldıranda görürlər nə? Qara ilan... İlan sürünüb yoxa çıxmaq istəyir. Soruşurlar ki, bəs bəyi nə əcəb çalmamısan. Axı onun atası sənin sevgilini öldürüb.

Cavabında qara ilan bildirir:

- Bağbana göz dağı vermək istəyirdim. Ona görə axşam burda oldum. Amma fikir verib gördüm ki, əslində bu kişi xeyirxah insandır. Hamı onun başına and içir. Mən də dayanıb durdum. Beləsinə dağ çəkməzlər. Bir hadisə idi, oldu, keçdi.

Soruşurlar:

- Bəs indi fikrin nədir?

İlan kor-peşman:

- Daha əlimdən nə gələr ki?! - deyir:

Ağsaqqallardan biri təklif verir:

- Sənin sevimli ağ ilanı diriltsək, razı qalarsan. Kin-küdurətin çəkilib gedər?

İlan başını bulayır:

- Bunun da faydası yox.

- Niyə ki?

İlan cavab verir:

- O əhvalatın on illik tarixi var. Mənim yaşımın üstünə yaş gəlib, o isə cavan qalıb, məni bəyənməz.

Ağsaqqal güldü:

- Ağ ilanı dirildən, sənin də dərdinə dərman bilər.

İlan maraqlandı:

- Necə?

- Səni də cavanlaşdırarıq.

Qara ilanın üzü güldü:

- Doğrudan?

- Doğrudan.

Ağsaqqal sözünün üstündə durdu. Qara ilan ağ ilana qovuşur. Onlar xoşbəxt olurlar. Bağban da kənd ağsaqqalının əlini öpüb ona razılığını bildirir.

Müəllim ümumiləşdirmə aparır:

- Beləliklə, Bağban bitkilər aləminə münasibətdə diqqətli, qayğıkeş olduğu kimi, heyvanlar aləminə də qayğı göstərir, onları qoruyur.

Nağılla bağlı şagirdlərin fikri dinlənilə bilər. Onların fikirlərini ümumiləşdirib belə nəticəyə gəlmək olar: Hər kim olursa-olsun təbiətə hörmət və məhəbbətlə yanaşmalı, onun gözəlliklərini görməli, qiymətləndirməli, təbiəti qorumalıdır. Azərbaycanın flora və faunasına qayğıkeş münasibət bəsləmək hər birimizin borcudur. Təbiətə hörmətsiz yanaşmaq, onu qorumamaq, ekoloji böhranın olması həyatımız üçün təhlükəlidir. Bu nağılda da bağban düz iş görməyərək ağ ilanı öldürür. Son nəticədə ağ ilanın möhtacı olur. Yaxşı ki, öz səhvini başa düşür.

II sinifdə "Vətənin Azərbaycan" bölməsi üzrə: 1. Vətən sevgisi". 2. "Milli dəyərlərimiz" mövzularının tərbiyələndirici və təhsilləndirici imkanları da şagirdlərlə iş aparmaq üçün müəyyən material verir.

III sinfin Azərbaycan dili dərsliyi (I hissə) “Fərd və toplum”, “Dünyamızı tanıyaq”, “Qəribə heyvanlar”, “Təbii fəlakətlər” bölmələrindən ibarətdir. Fəqət “Qəribə heyvanlar” bölməsi üzrə “Mamont və fil”, “Nadir meşə heyvanları”, “Delfin”; “Təbii fəlakətlər” bölməsi üzrə “Sel”, “Meşə yanğınları”, “Dənizdə fırtına”, “Sunami”, “Daşqın” mövzularından istifadə edərək, məktəblilərdə bu və ya dərəcədə təbiətə qayğıkeş münasibəti inkişaf etdirmək mümkündür.

Eyni zamanda təbiətə məhəbbətə, təbiətin flora və faunasına, gözəlliyinə aid atalar sözlərindən, bayatılardan, mütəfəkkirlərin fikirlərindən istifadə oluna bilər.

III sinfin Azərbaycan dili dərsliyi (II hissə) aşağıdakı bölmələri özündə birləşdirir: “İxtiralar”, “Unudulmaz qəhrəmanlar”, “Odlar yurdu”, “Hikmət xəzinəsi”. Təəssüf ki, III sinif şagirdlərində təbiətə qayğıkeş münasibəti formalaşdıracaq mövzulara rast gəlmədik.

IV sinfin Azərbaycan dərsliyinin 1-ci hissəsində özünə yer almış bölmələr bunlardır: “Fərd və toplum”, “Qarabağ – ana yurdum”, “Sevimli qəhrəmanlarım”, “İşarələr və simvollar”.

“Qarabağ – ana yurdum” bölməsinə “Qarabağ xanlığı”, “Yaddan çıxmaz Qarabağ”, “Qarabağ Azərbaycandır” mövzuları daxildir. Yalnız bu mövzulardan bu və ya digər dərəcədə istifadə oluna bilər.

IV sinfin Azərbaycan dərsliyinin 2-ci hissəsində “Birincilər “ilk” və “ən”, “Tarixi şəxsiyyətlər”, “Elmi fantastika”, “İxtiralar və kəşflər” bölmələr öz əksini tapmışdır.

Təəssüf ki, məktəblilərdə təbiətə qayğıkeş münasibətin tərbiyə olunmasına kömək göstərə biləcək bölmə və yaxud mövzuya yer verilməmişdir.

Əslində haqqında danışdığımız və nümunə gətirdiyimiz bölmə və mövzuların özlərində də ekoloji tərbiyə məsələləri, şagirdlərdə təbiətə qayğıkeş münasibət formalaşdırılması ilə bağlı məlumatlar lazımi səviyyədə deyildir, səthiliyi ilə diqqəti cəlb edir. Üzərində dayandığımız, vurğuladığımız bu və ya

digər mövzunun tədrisində də müəllim xüsusi səy göstərməklə ekoloji tərbiyə, qayğıkeş münasibətin aşılanması ilə bağlı şərhlər apara, yalnız öz imkanlarına əsaslanaraq mövzunu aydınlaşdıra bilər. Ona görə ki, bölmələrə aid mövzular ekoloji maariflənmə, təbiətə qayğıkeş münasibətin tərbiyə olunması problemlərini özündə əks etdirmir.

Ona görə sinif müəllimləri dərsliklərdəki xüsusi olaraq qeyd etdiyimiz mövzuların inkanlarından faydalanaraq, şagirdlərdə təbiətə qayğıkeş münasibətin inkişaf etdirilməsinə də məqsədyönlü, planlı, mütəşəkkil şəkildə diqqət yetirməlidirlər. Məhz belə şəraitdə kiçikyaşlı məktəblilərə təbiətə qayğıkeş münasibətin aşılanmasına nail olmaq mümkündür.

Kiçikyaşlı şagirdlərlə Azərbaycan dili üzrə dərnək məşğələlərində, sinifdənxaric tədbirlərdə onları aşağıdakı nağıllar və hekayələrlə tanış etmək faydalı olardı. Bu, onlarda ölkəmizin flora və faunasına məhəbbət hisslərinin və qayğıkeş münasibətin formalaşdırılmasına öz köməyini göstərəcəkdir.

Şagirdlər Rəşid Bəy Əfəndiyevin "Alma ağacının əhvalı" nağılı ilə [17] tanış olurlar. Müəllim onlara suallar verir.

***Suallar və tapşırıq:*** 1. Nağılda meşədəki hansı meyvədən bəhs olunur? 2. Payız fəslində nə baş vermişdi? 3. Qurd-quş nə iş görmüşdü? 4. Sıçrayıb torpağa düşən nə idi? 5. Yaz günündə, Günəş hərarəti yeri isidəndə nə oldu? 6. Toxum göyərib nəyə döndü? 7. Meşədə gəzən bağban nə gördü? 8. Bağbanın əlində nə var idi? 9. Balaca alma ağacını görən bağban nə etdi? 10. Bağbanın onu qaçıb çıxardığını görən alma ağacı ona nə dedi? 11. Bağban alma ağacını meşədən aparıb harada basdırdı? 12. Ağac kök tutandan sonra bağban daha nə etdi? 13. Ağac nə zaman meyvə gətirməyə başladı? 14. Alma ağacının yetirdiyi almanı təsvir edin. 15. Nağılı öz sözlərinizlə danışın.

Müəllimin ümumiləşdirmə aparması lazımdır. Qeyd edə bilər: Uşaqlar, qayğı ilə biz həm də meyvə ağaclarına yanaşmalıyıq. Bağban meşədə cır alma ağacı görür. Fikirləşir ki, həmin ağacı calaq eləsə, çox yaxşı alma ağacı olar, daha iri, sulu,

dadlı almalar yetişər. Odur ki, onu çıxarıb aparıb öz bağında əkir. Calaq edilmiş alma ağacı o qədər məhsuldar, o qədər dadlı və yeməli olur ki, başqalarının da diqqətini cəlb edir. Müxtəlif yerlərdən bağa gəlib bağbanın izni ilə bu ağacdan qələm götürüb aparıb öz bağlarında əkirlər.

Hekayədən görünür ki, faunaya qayğı lazımdır, bu qayğını görən meyvə və bitkilər qol-qanad atır. İnsanlar onlardan bol-bol bəhrələnirlər.

I-IV sinif şagirdlərinin "Ən güclü kimdir?" hekayəsi ilə tanış olmaları da məsləhətdir.

## Akif Abbasov
## Ən güclü kimdir? *(hekayə)*

*Ülkü yenə şıltaqlıq edir, anasını incidirdi. Atatürk divanda əyləşmişdi. Vəzifə xanımın Ülküyə acıqlandığını eşidib qəzeti kənara qoydu, uşaqlar üçün yazılmış kitabı götürdü. Bu kitab heyvanların həyatından idi. Atatürk qızı səslədi:*

*- Ülkü, qızım, bura gəl!*

*Ülkü yaxın gəldi. Atatürk:*

*- Sən niyə ananın sözünə baxmırsan?*

*Ülkü dodaqlarını büzüb şikayətləndi:*

*- Anam mətbəxdə yemək bişirir. Mənimlə oynamır. Atatürkcüyüm, sən də bütün günü qəzet oxuyursan. Axı mən darıxıram.*

*- Yaxşı, şikayətlənmə, dodaqlarını da büzmə. Anan yemək bişirməsə, biz ac qalarıq. Gəl ikimiz oynayaq. Bu şəkilli kitabla aran necədir?*

*- O kitabı oxumuşam.*

*- Oxuduğundan xəbərim var. Sənə suallar verəcəyəm. Cavabını tapsan, gəzməyə aparacağam.*

*Ülkü sevincək tullanıb divana çıxdı. Atılıb-düşməyə başladı. Atatürk ona irad tutdu:*

*- Sən atılıb-düşürsən, mən də yerimdə oynayıram. Gəl, yanımda əyləş. Bax, belə. İndi diqqətlə qulaq as. Bu şəkillərə bir-bir bax. De, görüm, onlardan hansı daha güclüdür.*

*Ülkü kitabı vərəqləməyə başladı. Burada rəngli pələng, aslan, dəvə, fil, ayı və canavarın, hətta həşəratların – qarışqanın, arının şəkilləri vardı.*

*Ülkü başını qaldırıb Atatürkə baxdı:*

*- Atatürkcüyüm, mənimlə zarafat edirsən? Yəni mən belə balacayam?*

*- Belə niyə fikirləşirsən, qızım?*

*- Axı sən sanki balaca bəbəyə sual verirsən. Bunu tapmağa nə var ki... Ən güclüsü pələngdir. Hələ bunun bığlarına bax...*

*- Yox, tapmadın.*

*Ülkü alnını qırışdırıb yenə fikirləşdi, kitabın vərəqlərini çevirdi:*

*- Tapdım, aslandır. Gör nə boyda başı var!*

*Atatürk:*

*- Yenə tapmadın, - dedi.*

*Ülkü bir də baxdı:*

*- Düz deyirsən. Heç fil ağlıma gəlməyib. Fildir! Bir gör nə böyükdür. Hələ xortumuna bax. Pələngdən də, aslandan da böyükdür, həm də güclüdür.*

*Atatürk yenə razılaşmadı. Ülkü təəccübləndi:*

*- Atatürkcüyüm, onda ya ayıdır, ya da canavar. Amma buna heç mən də inanmıram. Filin, aslanın, pələngin yanında onlar nədir ki?!. Yaxşı, tapmadım. Onda özün de, bunlardan hansı biri daha güclüdür.*

*Atatürk gülümsəyib qızı bağrına basdı, saçlarına sığal çəkə-çəkə:*

*- Sən dediklərinin heç biri. Ən güclüsü qarışqadır.*

*Ülkü təəccübləndi. Bir anlığa yerində donub qaldı. Sonra gülməyə başladı:*

*- Atatürkcüyüm, qarışqa heç mənim dırnağım boyda deyil. Aslanın, pələngin, ayının yanında qarışqa nədir ki? Dedim ki, mənimlə zarafat edirsən. Əcəb gülməli danışırsan.*

*Ülkü gülü-gülə Vəzifə xanımın yanına qaçdı. Atatürk onun səsini eşitdi:*

*- Ana, Atatürkcüyüm elə bilir mən hələ uşağam və başım heç nədən çıxmır. Deyir ki, qarışqa aslandan da, pələngdən də, ayıdan da, hətta fildən də qüvvətlidir.*

*Vəzifə xanımın səsi gəldi:*

*- Atatürkcüyün səninlə zarafat etmir, belə deyirsə, demək buna əsası var. Get, özündən öyrən.*

*Ülkü təzədən Atatürkün yanına qayıtdı. Onlar meyvə və yam-yaşıl bəzək ağacları ilə, gül-çiçəklə əhatələnmiş bağçaya gəldilər. Atatürk ağaclardan birinin yanında ayaq saxladı. Torpağı göstərdi. Bir dəstə qarışqa ağaca sarı gəlir, bir dəstə isə əks tərəfə gedirdi. Gələnlər əliboş, gedənlər yüklü idilər.*

*- Görürsən, Ülkü, qarışqa gör nə balacadır. Bap-balaca, sənin dırnağından da balaca. Amma gör nə böyüklükdə yük aparır. Onların yükü öz çəkilərindən ən azı əlli dəfə çoxdur. Heç bir canlının - nə aslanın, nə filin, nə ayının, nə də pələngin öz çəkisindən əlli dəfə artıq yük daşımağa gücü çatmaz. Biz insanlar da buna qadir deyilik.*

*Ülkü fikrə gedib, barmaqlarını bir-bir qatlamağa, saymağa başladı. Lakin başa çatdıra bilmədi. Bir də hesabladı. Bir şey çıxmadı. Bilmədi ki, bu hesabla neçə kiloqram yük qaldırmalıdır. Odur ki Atatürkə müraciətlə soruşdu:*

*- Atatürkcüyüm, mənim çəkim əlli dəfə artsa, neçə kiloqram olar?*

*Atatürk gülümsəyib dedi:*

*- Tutaq ki, sənin çəkin 20 kiloqramdır. Əgər öz çəkindən 50 dəfə artıq bir yükü bir yerdən başqa yerə aparmalı olsan, deməli, bir ton yük daşımalı olarsan. Bu, min kiloqram deməkdir.*

*Ülküdən təəccüb nidası qopdu:*

*- Atatürkcüyüm, buna heç sənin də gücün çatmaz ki...*

*- Elədir. Nə sən, nə də mən heç özümüz ağırlığında yükü daşıya bilmərik. Belə yükü yerdən qaldırmağın özü çətindir. İndi de görüm, ən güclü kimdir?*

*Ülkü Atatürkün dediklərinə mat-məəttəl qaldı. Düşündü və inandı: canlılardan ən güclüsü qarışqadır* [1, s.15-17].

Müəllim hekayə ilə tanış olan şagirdlərə aşağıdakı sualları verir:

1. Ülkü niyə şıltaqlıq edirdi?
2. Atatürk Ülküdən "Sən niyə ananın sözünə baxmırsan?" deyə soruşanda o nə cavab verdi?
3. Ülkü anasından şikayətlənəndə Atatürk ona nə dedi?
4. Ülkünün fikrincə, heyvanların hansı daha güclüdür?
5. Ülkü ən güclü heyvanın hansı olduğunu tapa bildimi?
6. Ən güclü heyvan hansı imiş?

Müəllim məktəbliləri eyni zamanda Şəfiqə Ağayevanın "Qərənfil" hekayəsi ilə [4] tanış edir. Sonra müəllimin tapşırığına əsasən şagirdlər aşağıdakı suallara cavab verirlər (suallar hekayənin məzmununa aiddir):

1. Hansı fəsil idi? 2. Haşım baba nə ilə məşğul idi? 3. Rəhim babasından nə soruşdu? 4. Haşım babanın nəvəsinə cavabı nə oldu? 5. Babasından aldığı cavabın müqabilində Rəhim hansı təklifini irəli sürdü? 5. Rəhimin təklifinə babası nə cavab verdi? 6. Rəhim qonşuda kiminlə dostluq edirdi? 7. Rəhim Laləni hansı işə cəlb etmək istəyirdi? 8. Rəhim öz fikrini babasına necə bildirdi? 9. Baba Rəhimin sözlərinə necə münasibət göstərdi? 10. Baba çiçək ləklərini uşaqlar arasında necə bölüşdürdü? 11. Uşaqlar hər axşam üstü bağa gələrək nə edirdilər? 12. Rəhim ləklərə necə qulluq edirdi? 13. Bəs Lalə ləklərə necə qulluq edirdi? 14. Bir gün böyük qoz ağacının altında dayanan Lalə nə etməyə başladı? 15. Rəhim ona kömək etmək istəyəndə Lalə ona nə dedi? 16. Rəhim Lalənin sözünə baxıb nə düzəltməyə başladı? 17. Lalə nə qurmuşdur? 18. Lalə söyüd ağacın-

dan bir neçə şax qırıb nə etdi? 19. Lalə birdən-birə hara getdi? 20. Lalənin bağçadan gətirdiyi nə idi? 21. Haşım baba Laləyə nəyi irad tutdu? 22. Lalə cavabında Haşım babaya nə cavab verdi? 23. Haşım baba "Qızım, adam ev tikəndə çiçəkləri xarab edər? - deyəndə Lalə bunu necə cavablandırdı? 24. Babanın Laləyə əsas iradı nə oldu? 25. Babanın iradından sonra Lalə səhvini başa düşdü?

Müəllim ümumiləşdirmə apararaq, aşağıdakıları uşaqların diqqətinə çatdıra bilər:

Azərbaycan zəngin flora və faunaya malikdir. Respublikamızda 4500-dən artıq çiçəkli, digər sorta malik bitki növü vardır.

Daha sonra müəllim yazılı mənbələrə əsasən, Azərbaycanın faunası barədə şagirdlərdə təsəvvür yaradır:

Müəllim: -Azərbaycanda "97 növ məməli, 357 növ amfibi və reftili, 1 növ dəyirmiağız, 97 növ balıq, 15 mindən çox onurğasız heyvan növü məlumdur. Bəzi heyvanlar məhdud, digərləri respublikanın bütün ərazisində yayılmışdır. "Qırmızı kitab"da 108 növ heyvanın adı var. 14 növü məməli, 36 növü quş, 3 növü sürünən və suda-quruda yaşayan, 5 növü balıq, 40 növü həşəratdır" [7].

Müəllim aşağıdakı suallarla sinfə müraciət edə bilər:

- Həşim baba nə ilə məşğul idi?
- O nə üçün gül əkirdi? Gül əkmək vacibdirmi?
- Rəhim babasından nəyi xahiş etdi?
- Lalə Rəhimin etimadını dorultdumu?
- Lalənin səhvi nədən ibarət idi?
- Həşim baba Laləyə nəyi irad tutdu?

*"Təmənnalı yaxşılıq"* əfsanəsi ilə [48] şagirdləri tanış edib həmin hekayə üzrə də iş aparmaq məsləhətdir. Bu hekayə də ölkəmizin flora və faunasına hörmət, məhəbbət, qayğıkeş münasibətin formalaşdırılmasına çox kömək göstərə bilər:

## “Təmənnalı yaxşılıq” *(əfsanə)*

*Yaz ayları idi. Əkinçi öz işində idi. Həyət-bacanı, bağ-bağçanı qaydaya salır, çör-çöpü bir yerə toplayır, səliqə yaradırdı. Görüləsi iş çox idi. Xoş bir bahar günü idi.*

*Birdən havada caynağında hacıleylək olan quzğun göründü. Quzğun hacıleyləyi daşlardan birinə çırpdı. Sonra dövrə vurub hacıleyləyi caynağına almaq istəyirdi ki, bağbandan qorxub fikrindən daşındı.*

*Əkinçi hacıleyləyə yaxın gəldi. Daşa çırpılanda binəva quşun qanadının biri, həm də ayağının biri qırılmışdı. O, quşu qucağına alıb evinə gətirdi və başladı onu müalicə etməyə.*

*Quş artıq sap-sağlam idi. Qıçı, qanadı sağalmışdı. Əkinçi bunu görüb xoşhal oldu. O, hacıleyləyə azadlıq verdi.*

*Bir müddət ötdü. Əkinçi yenə bağ-bağçada idi. Gördü ki, budur, quş gəlib. Onun ağzında nə isə vardı. Onları yerə salıb getdi. Əkinçi yaxın gəldi. Yerə düşən toxumlar idi.*

*Toxumları əkildi. Qarpız tumları idi. Yetişəndə bıçağı götürüb qarpızı doğradı. Qarpızın dilimı qıpqırmızı və çox şirin idi. Yedikcə doymaq olmurdu. Əkinçi eləməyib tənbəllik bir xurcun götürüb içərisinə bir neçə qarpız yığdı və padşaha pay apardı.*

*Şahın əmrilə qarpızlardan biri kəsildi. Birdən-birə hamı mat qaldı. Əsl möcüzə idi. Doğranan qarpızın içindən yerə qızıl tökülürdü.*

*Şahı maraq götürdü. Əkinçini sorğu-suala tutdu. Əkinçi başına gələnləri şaha danışdı.*

*Şah əkinçiyə 3 gün vaxt verib bildirdi ki, hacıleyləyi ona gətirməlidir. Əkinçi axır ki hacıleyləyi tutdu. Şah əvvəlcə hacıleyləyin bir qanadını, daha sonra bir ayağını sındırdı. Sonra onunçun abırlı yer hazırlatdı. Hacıleyləyə hədsiz qayğı göstərirdi. Axır ki, quşun ayağı və qanadı sağaldı. Onu azadlığa buraxdılar.*

*Günlər ötdü. Bir müddət sonra hacıleylək gəlib çıxdı. Onun dimdiyində toxumlar vardı.*

*Şah göstəriş verdi. Bağ-bağça təmizləndi, qızılgül kollarının yerini hacıleyləyin dimdiyindəki toxumlar tutdu.*

*Az keçmədi qaratikan kolları bağı başına götürdü. Qaratikanı kəsdikcə daha da artırdı. Düzü-dünyanı tutmuşdu.*

*Aləmə car çəkdilər: kim şahın bağ-bağçasını bu qaratikandan qurtarar? Bir ağsaqqala gəlib çıxdı. Onu məsələdən hali etdilər. Ağsaqqal baş endirib dedi:*

*- Şahım, acığın tutmasın. O əkinçinin quşa yaxşılığı – təmənnasız olub, sizinki isə təmənnalı. Ona görə bu iş beləcə sona yetib.*

**Nəticə.** Müəllimin aşağıdakı suallarla sinfə müraciət etməsi məqsədəuyğundur:

1. Əkinçi əkin işlərinə başlamaq istəyəndə nə müşahidə etdi?
2. Əkinçi hacıleyləyə yaxınlaşanda nə gördü?
3. Hacıleyləyi düşdüyü vəziyyəti görən əkinçi nə etdi?
4. Hacıleylək sağalandan sonra əkinçi onu yenə də evdəmi saxladı?
5. Bir dəfə əkinçi şuma toxum səpərkən nəyin şahidi oldu?
6. Hacıleyləyin atdığı toxumlar torpağa səpiləndən sonra nə baş verdi?
7. Əkinçi padşahın hüzuruna nə üçün getmişdi?
8. Qarpız kəsiləndə şah nə gördü?
9. Şah qoca əkinçiyə nəyi əmr etdi?
10. Qorxuya düşən əkinçi nə etdi?
12. Şah hacıleyləklə necə davrandı?
13. Şahın əmri ilə qızılgül kollarını çıxarıb əvəzində hacıleyləyin gətirdiyi toxumları əkildi. Həmin toxumlar əkiləndən sonra nə baş verdi?
14. Şah qoca əkinçidən nə soruşdu?
15. Qoca əkinçi ona nə cavab verdi?

I-IV siniflərin Azərbaycan dili dərslərində kiçikyaşlı məktəblilərə Azərbaycanın flora və faunasına rəğbət, hörmət, məhəbbətin aşılanmasına, qayğıkeş münasibətin tərbiyə olunmasına kömək göstərə biləcək nağılların tərbiyələndirici, təhsilləndirici və inkişafetdirici imkanlarından faydalanmaq lazımdır.

I-IV siniflərin Azərbaycan dili dərslərində tapmacalardan istifadə də flora və faunamıza, təbiətimizin gözəlliklərinə, təbiətə qayğıkeş münasibətin tərbiyə edilməsinə çox kömək göstərir. Kiçikyaşlı məktəblilərə aşağıdakı tapmacalar təqdim oluna bilər. İlk növbədə bitkilərə aid (floraya) tapmacaları yada salaq: (müəllim-şagird):

Müəllim: -Gəlin tapaq:
Ağacın tutmaq olmaz,
Ətrindən doymaq olmaz.
Şagird: Qızılgül
Müəllim: -Qızılgülə aid başqa tapmaca bilirsinizmi?
Şagird C.: -Mən bilirəm:
Müəllim: De.
Şagird: Yaşıl taxta üstündə oturub pəri,
Yaquta, mərcana bənzər ləbləri,
Uzaqdan baxarsan, üzün gizlətməz,
Əlini uzatsan, vurar neştəri...

I-IV siniflərin Azərbaycan dili dərslərində şagirdlərdə Azərbaycanın flora və faunasına, təbiətə qayğıkeş münasibətin bərqərar olmasında şairlərimizin şeirlərindən də faydalanmaq mümkündür. Bu baxımdan Hüseyn Arifin “Təbiət düşünür” şeiri səciyyəvidir:

Şeirin dinlənilməsindən sonra kiçikyaşlı məktəblilərə suallar verilir:

*Suallar və tapşırıq*: 1. Şeirin müəllifi kimdir? 2. Şair hansı fəsli tərənnüm edib? 3. Şair gəzmək üçün dağa çıxmağı təklif edir? 4. Şair niyə görə belə deyir ki, Çəmən varsa xalçaya ehtiyac yoxdur? 5. Haradan su içmək təklif olunur? 6. Səfərə, gəz-

məyə getmək təklif olunur, lakin deyilir ki, kamana, tar və qavala ehtiyac olmayacaq? 7. Qartal necə tariflənir? 8. Maral hara baxır? 9. Şair niyə deyir ki, təbiət barədə düşünmək, onun qayğısına qalmaq lazımdır? 10. Şeri əzbər öyrənməyə çalışın.

Şagirdləri aşağıdakı iki şeirlə tanış etmək də məsləhətdir: Onlardan biri Rəşid bəy Əfəndiyev "Fəsillər", digəri isə, Abdulla Şaiqin "Bahar" şeiridir. İlk növbədə Rəşid bəy Əfəndiyevin "Fəsillər" şeiri diqqətə çatdırılır. Bu şeir tapmaca xarakterlidir. Təbiətə, onun fəsillərinə aid müəllif özü sual verməklə onu (sualı) cavablandırmağı istəyir. Müəllimin tapşırığına əsasən, şeirin bəndləri səsləndirilir, kiçikyaşlı məktəblilər bu və ya digər fəslin hansı olduğunu tapırlar.

Nümunə:

- Qar gedər, yer açılar,
Çəmən, çiçək açılar,
Bil, bu hansı fəsildir?

Şagird: Açması – bahar və s.

Qeyd etdiyimiz kimi, digər şeir Abdulla Şaiqə məxsusdur. Həmin şeir səslənir. Şagirdlərə suallar verilir:

1. Şair baharın gəlməsinə görə niyə sevinir?
2. Baharda nə baş verir?
3. Siz hansı fəsilləri sevirsiniz?

Beləliklə, bu ardıcıllıqla, əlavə materiallar tədrisə cəlb edilməklə kiçikyaşlı məktəblilərə Azərbaycanımızın flora və faunasına, təbiətin gözəlliklərinə rəğbət, məhəbbət və sevgi hissləri aşılanır, onlarda Vətənimizin maddi və mənəvi sərvətlərini, ölkəmizin bitki və heyvanat aləminə qayğı ilə yanaşmaq, onları qorumaq, zənginləşdirmək və sairə tələbat formalaşdırılır.

# II FƏSİL. TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ TƏBİƏTƏ QAYĞIKEŞ MÜNASİBƏTİN FORMALAŞDIRILMASININ İMKANLARI VƏ YOLLARI

İbtidai sinif şagirdlərində Azərbaycanın florasına və faunasına, təbiətinə qayğı ilə yanaşmaq, təbiəti, onun nemətlərini, gözəlliklərini və özəlliklərini, dağlarını, meşələrini, çaylarını, göllərini, Xəzər dənizini, çəmənlərini, bağ-bağçalarını sevmək, onları habelə heyvanat aləmini qorumaq tələbatı formalaşdırmaqda təsviri incəsənət dərsləri də özünəməxsus rol oynayır.

I-IV siniflərin təsviri incəsənət dərslikləri [11; 12; 13; 14], bu fənn üzrə dərslər və təlim xarakterli sinifdənxaric məşğələlər bunu bir daha təsdiqləyir.

İbtidai siniflərin təsviri incəsənət dərslikləri nəzərdən keçirildi.

I sinfin dərsliyi [13] 4 bölmədən ibarətdir. Bölmələr aşağıdakı şəkildə adlandırılmışdır: "1. Ətrafa nəzər salaq. 2. Təbiət və incəsənət. 3. Dəyər verdiyimiz insanlar. 4. İnsan və məkan. 5. Əyləncə zamanı. 6. Həyatımızda baş verən dəyişikliklər.

I bölmə ("Ətrafa nəzər salaq") üzrə "Təbiətin gözəlliyi", "Təbiətin nemətləri", "Kiçik dostlarımız", "Rəngbərəng quşlar" mövzuları; II bölmə ("Təbiət və incəsənət") üzrə "Təbiətin yaratdığı evlər", "Heyvanların naxışlı geyimləri", "Təbiətin rəngləri", "Bəzəkli həşəratlar"; IV bölmə ("İnsan və məkan") üzrə: "Torpaq və səma", "Əyləncə parkı" mövzuları bilavasitə problem baxımından lazımi material verir.

III bölmə (Dəyər verdiyimiz insanlar), V bölmə (Əyləncə zamanı) və VI bölmə (Həyatımızda baş verən dəyişikliklər) nəzərdən keçirdiyimiz məsələ baxımından imkanlar açmır.

I sinfin dərsliyində öz ifadəsini tapmış aşağıdakı suallar təbiətimizə qayğıkeş münasibətin göstərilməsi, bitki və heyvanat aləminin mühafizəsi ilə bağlı kiçikyaşlı məktəblilərdə bilik və bacarıqlar formalaşdırır.

Dərsliyin I bölməsi ilə əlaqədar şagirdlərə aşağıdakı sualların verilməsi məsləhət bilinib:

1. Təbiət dedikdə nə başa düşürsünüz? 2. Ətrafımızda hansı gözəlliklər var? 3. Təbiəti necə təsvir etmək olar? [13, s.13].

Bölmədəki aşağıdakı suallar da səciyyəvidir, kiçikyaşlı məktəblilərdə ölkəmizin bitki və heyvanat aləminə qayğı ilə yanaşmaya xidmət edir:

1. Fotoşəkillərdə nə görürsünüz?

2.Təbiətdə hansı gözəllikləri görmək olar?

Suallardan sonra foto şəkillər gəlir. Fikir verək:

a) Yaşıl daş, güllü-çiçəkli

b) Marallar çəmənlikdə

I bölmə ("Ətrafa nəzər salaq") üzrə "Kiçik dostlarımız" mövzusu ilə bağlı:

1. Heyvanları sevirsinizmi? Onlar harada yaşayır?

2. Zooparkda olmusunuzmu? Orada hansı heyvanlara rast gəlmisiniz?

3. Nə üçün zooparkda hər heyvana xüsusi şərait yaradılır?
- sualları ilə kiçikyaşlılardan cavablandırma tələb olunur.

II sinfin "Təsviri incəsənət" dərsliyi [14] ilə tanışlıqdan görünür ki, "Sehrli rənglər" adlı birinci bölmə aşağıdakı mövzuları özündə birləşdirir: 1. Təbiət və rəssam. 2. Rənglərin müxtəlifliyi. 3. Payızın sehrli rəngləri.

II bölmə ("Təsviretmə qaydaları") problem baxımından material vermir.

II bölməyə ("Təbiət və insan") daxil olan mövzular bunlardır: 1. Təbiəti qoruyaq. 2. Qış nağılı. 3. Xoş gəlmisən, elin əziz bayramı! 4. Yurdumuza bahar gəlir".

IV bölməyə (Gözəllik aləminə səyahət) "Təbiətin gözəlliyi tikmələrdə", "Sualtı dünyanın sakinləri", "Təsəvvürə əsasən quşları çəkirik", "Güllərin möcüzəsi" mətnləri daxildir.

3-cü bölmənin "Təbiəti qoruyaq" mövzusu üzrə dərslikdə diqqət mərkəzinə gətirilən qənaətlər bunlardır: Hər gün istifadəmizdə olan kibrit, süd, şüşə qutuları və başqa əşya və mate-

riallar faydalandıqdan sonra atılır. Həmin atılanları məişətdən ötrü lazımlı əşyalar halına salmaq mümkündür. Bu yolla ana təbiət çirklənmədən mühafizə edilər.

Qeyd olunduğu kimi "Qış nağılı" II sinfin 2-ci bölməsinə daxildir. Mətndə təbiətin bütün fəsillərdə füsunkar, gözəl olduğu vurğulanır. Qışda təbiətin ağ yaylığa büründüyü göstərilir. Ayazın, şaxtası yağan qar ilə cəlbedici olduğu deyilir. Eyni zamanda qışın gözəlliyinə valeh olan rəssamlar ilhama gələrək qarlı, şaxtalı qış fəslini öz əsərlərində canlandırdığı diqqətə çatdırılır.

III sinfin "Təsviri incəsənət" dərsliyi [11] 3 bölməni özündə birləşdirir. I bölmə "Təbiətin emalatxanasında" adlanır. Bu bölməyə aşağıdakı mövzular daxildir: 1. Təbiətin rəng palitrası. 2. Təbiətdə kontrast rənglər. 3. Təbiətdə rəngin əhval-ruhiyyəsi. 4. İnsan təbiətdən öyrənir.

Dərsliyin digər bölmələri "İnsanın yaratdığı bəzək əşyaları"; "Sənətkarın emalatxanasında" və "Paytaxtımızın incəsənəti" adlanır. Bu bölmələr nəzərdən keçirdiyimiz mövzu baxımından zəruri imkanlar açmır.

IV sinfin "Təsviri incəsənət" dərsliyi [12] 4 bölməni əhatə edir: 1. Doğma incəsənətin mənbəyi. 2. Qədim abidələr diyarı. 3. Doğma yurdun incəsənəti. 4. Bütün xalqlar yaradıcıdır. Bu bölmələrdən yalnız biri – "Doğma incəsənətin mənbəyi" bölməsi Azərbaycanın flora və faunasına, təbiətinə münasibətdə qayğı göstərilməsi baxımından imkanlar yaradır. Bu bölməyə daxil olan mövzular aşağıdakılardan ibarətdir:1. Doğma diyarın rəngbərəng təbiəti. 2. Torpağımızın nemətləri.

Deyilənlər ümumiləşdirməli olsaq, deyə bilərik ki, istər I sinfin, istərsə də II-IV siniflərin təsviri incəsənət dərslikləri ölkəmizin təbiəti, bitki və heyvanat aləmi haqqında zəruri material verir. Bu da imkan yaradır ki, kiçikyaşlı məktəblilərdə təbiətə, onun sərvətlərinə qayğı ilə yanaşmaq, onları qorumaq və inkişaf etdirmək baxımından tələbat formalaşdırılsın.

# III FƏSİL. MUSİQİ DƏRSLƏRİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ TƏBİƏTƏ QAYĞIKEŞ MÜNASİBƏTİN FORMALAŞDIRILMASININ İMKANLARI VƏ YOLLARI

Biz problem baxımından musiqi dərsliklərini də araşdırdıq. I sinfin "Musiqi" dərsliyi [38] aşağıdakı bölmələrdən ibarətdir: "Musiqi aləmi", "Melodiya", "Ritm", "Melodiya, ritm və temp", "Könül açan nəğmələr". Təbiətə, onun gözəlliklərinin vəsfinə, düzlərimizin, meşələrimizin, dağlarımızın, "durna gözlü" bulaqlarımızın, merimizin-meyvəmizin, gül-çiçəklərimizin, şəfalı (dərman) bitkilərimizin ecazkarlığından söz açan heç bir mahnının adı çəkilmir. Lakin I sinfin dərsliyində "Könül açan nəğmələr" bölməsi üzrə "Nəğməli bahar", "Gözəl məkan Azərbaycan", "Hər birimiz bir çiçək", "Güllərin rəqsi", "Uşaqların nəğməli dünyası" mövzuları özünə yer almışdır. Həmin mövzuların imkanlarından faydalanmaq mümkündür. Bölmənin adına ("Könül açan nəğmələr") əsaslanaraq dərsdə dərslikdə adı çəkilməyən, lakin təbiətin gözəlliklərini ifadə edən mahnı səsləndirilə, onun barəsində məlumat verilə bilər.

II sinfin "Musiqi" dərsliyindəki [39] bölmələrə aşağıdakı adlar verilmişdir: "Mahnı janrı", "Marş janrı", " "Melodiya, ritm, temp", "Lad, ölçü, dinamika", "Musiqidə məzmun və forma", "Konsert zalında".

Bu sinfin dərsliyində də təbiət haqında mahnılar barədə məlumatın verilməsi, bu və digər uyğun mahnının səsləndirilməsi nəzərdə tutulmamışdır. Lakin bəzi bölmələr üzrə bəzi mövzuların imkanlarından istifadə etmək olar. Diqqət yetirək:

"Mahnı janrı" bölməsi üzrə "Vətənpərvər mahnılar", "Əmək mahnıları", "Laylalar", "Mahnı oyunlar".

Və yaxud, "Musiqidə məzmun və forma" bölməsi üzrə "Musiqidə məzmun", "Musiqi obrazları" və s.

III sinfin "Musiqi" dərsliyi [40] də diqqət mərkəzimizdə oldu. Dərsliyin bölmələri bunlardır: "Bayram musiqisi", "Mah-

nıların ritmik müşayiəti", "Musiqi forması", "Musiqi təəssüratları", "Musiqi alətləri", "Kino musiqisi", "Konsert zalında".

IV sinfin "Musiqi" dərsliyi [41] barədə nə demək olar? Dərslik nəzərdən keçirildi. Dərslikdə aşağıdakı bölmələr öz əksini tapmışdır: "Musiqi kollektivləri", "Musiqi əsərlərinin melodiyaları", "İkisəsli musiqi", "Musiqi və incəsənətin başqa növləri", "Musiqili şəkillər", "Konsert zalında".

"Gözəl məkan Azərbaycan", "Hər birimiz bir çiçək", "Güllərin rəqsi", I sinifdə musiqi dərsində "Könül açan nəğmələr" bölməsi üzrə "Uşaqların nəğməli dünyası" mövzusu keçilərkən "Salam, Payız" mahnısı səsləndirilə bilər (Söz, mus: Nüşabə Nuri, layihə rəhbəri: Zaur Ali Lyrics).

### "Salam, payız" mahnısı

Salam, payız, salam, payız,
Sən bizə xoş gəlmisən.
Söylə görüm bizə sən,
Nə sovqat gətirmisən.
Gətirmişəm mən sizə
Sarı-sarı buğdalar,
Gətirmişəm mən sizə
İsti çörək, qoğalla.
Bişirəcəklər sizə.
Bağlarda bol meyvə var.
Alma, armud, heyva, nar.
Onları siz çox yeyin,
Onlarda vitamin var.
Dadlı meyvələr üçün,
Sağ ol deyirik sənə.
Sən bolluq gətirmisən,
Bizim ana Vətənə [37].

Bu gözəl mahnı kiçikyaşlı məktəblilərdə təbiətə, onun fəsillərindən biri olan payıza, təbiətimizin gözəlliklərinə rəğbət və məhəbbət hisslərini qüvvətləndirməyə, eyni zamanda təbiətə qayğılı münasibətin daha da güclənməsinə imkan verir.

Bu sahədə "Yarpaqlar" uşaq mahnısı da faydalıdır. Uşaqlarda təbiətə, flora və faunamıza məhəbbət hisslərini artırır.

Həmin bölmə üzrə "Nəğməli bahar" mahnısı ilə yanaşı sözləri Teymur Elçinə məxsus "Yarpaqlar" uşaq mahnısına müraciət etmək mümkündür. Diqqət yetirək:

**Teymur Elçin**

## Yarpaqlar

Payız gəldi, uşaqlar,
Tökülürlər yarpaqlar.
Yarpaqlar, yarpaqlar,
Sarı, qızıl yarpaqlar
Yarpaqları biz yağaq
Onlar ilə oynayaq.
Külək əssə, vermərik,
Arxada gizlədərik [46].

Diqqətəlayiq uşaq mahnılarından biri də musiqisi M.Əlibəyliyə, sözləri Z.Ağayevaya məxsus "Yeddi çiçək, yeddi gül" mahnısıdır. İfa edir: "Kəpənəklər qrupu".

## Yeddi çiçək, yeddi gül

Yeddi çiçək, yeddi gül,
İstəyirsən sən də gül.
Qoşul bu göyçəklərə,
Sən də oxu, sən də gül.
Şən qızların hər biri,
Dağların bönövşəsi.

Onlar mahnı oxuyur,
Heyran edir hər kəsi.
Geyimləri al-əlvan,
Baxan olur heyran.
İstəyirəm qoşulum,
Mən də onlara bu an [4].

Şagirdlərə anlatmaq lazımdır ki, şən əhval-ruhiyyəyə, xoş əhvala yiyələnmək üçün təbiətin ən gözəl nemətlərindən, floramızın mühüm nümunələrindən biri olan güllərin, çiçəklərin rolu böyükdür. Odur ki, gülləri sevmək, onları qorumaq, artırmaq lazımdır. Gülü, çiçəyi sevməyən adama rast gəlmək olmaz. Odur ki, onlara qayğı ilə yanaşmaq lazımdır.

"Günəş olaram mən də" mahnısında təbiətin əsrarəngiz gözəllikləri təsvir olunur. İfadə tərzi elə kamildir ki, təbiətə sevgini çoxaldır.

IV sinifdə sözləri Gülzar İbrahimovaya, musiqisi Aliyə Sabirqızına məxsus "Dünya gözəldir" [25] mahnısının dinlənilməsi məqsədəuyğundur.

I-IV siniflərin musiqi dərslərində eyni zamanda sözləri Pərvin Feyziyeva, musiqisi Aliyə Sabirqızına məxsus "Fəsillər" musiqisi, Aygün Teymurova aid olan "Təbiəti qoruyaq" [43]; Mirzəyev M. "Təbiət nəğməsi" [33] mahnılarından faydalanmaq tövsiyə olunur.

Beləliklə, gəldiyimiz nəticə budur ki, ibtidai sinif müəllimləri uşaq mahnıların təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlarından faydalanmaqla kiçikyaşlı məktəblilərin diqqətini təbiətə, onun qorunmasına, ekoloji mühitin saflaşdırılması, heyvanat və bitki aləminə qayğıkeş münasibətə yönəldirlər.

# IV FƏSİL. HƏYAT BİLGİSİ DƏRSLƏRİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ TƏBİƏTƏ QAYĞIKEŞ MÜNASİBƏTİN FORMALAŞDIRILMASININ İMKANLARI VƏ YOLLARI

Həyat bilgisi Azərbaycanın florasına və faunasına rəğbət, məhəbbət. qayğıkeş münasibətin, bitki və heyvanat aləmin mühafizəsini öz borcu, vəzifəsi hesab etməkdə şagirdlərə kömək göstərəcək fənlərdəndir. Həmin fənn üzrə dərslik və proqramlarda nəzərdən keçirilən problemin reallaşmasına xidmət edən bir sıra mətnlər mövcuddur.

I sinfin həyat bilgisi dərsliyində [18] bölmələrin aşağıdakı şəkildə planlaşdırılması məqsədəuyğun hesab edilmişdir: “Mən kiməm”, “Sağlamlıq”, “İnsanlar və əşyalar”, “Ətraf mühit”, “Ehtiyatlı davranaq”.

Yuxarıdakı bölmələrdən əsasən “Ətraf mühit” bölməsi bu və ya digər dərəcədə məktəblilərdə ətraf aləmə, təbiətə həssaslıq və rəğbət hisslərinin aşılanmasına öz köməyini göstərir. Bu fikir baxımından “Ətraf mühit” bölməsi üzrə “Ətrafı necə öyrənirik, “Səs haradan gəlir”, “Bu gün hava necədir”, “Fəsillər bizə necə təsir edir”, “Canlı və cansız” və “Necə yaşamaq lazımdır” mövzuları [18, s.55-58], eyni zamanda “Ehtiyatlı davranaq” bölməsi üzrə “Seldən necə qorunmaq olar” mövzusu [18, s.63-65] imkanlar açır.

II sinif “Həyat bilgisi” dərsliyində [19] “Mən və məktəbim”, “Dəyərlər və sağlamlıq”, “Materiallar və təhlükəsizlik”, “Yer kürəsi”, “Canlılar”, “Ehtiyatlı davranaq” bölmələri verilmişdir. Həmin bölmələr arasında “Yer kürəsi” və “Canlılar” bölmələri bu və ya digər dərəcədə tərbiyə işlərinin aparılmasına şərait yaradır. Belə ki, Yer kürəsi” mövzusu üzrə - “Yaşayış yeri”, “Canlılar” bölməsi üzrə - “Heyvanları tanıyaq”, “Canlıların çoxalması və böyüməsi”, “Bitkiləri tanıyaq”, “Bitkilərin

böyüməsi üçün nə etmək lazımdır?" mövzulardan faydalanmaq mümkündür.

III sinif: Bölmələr: "Canlı həyat", "Ailə, cəmiyyət, ünsiyyət", "Hərəkət və istiqamət", "Sağlamlıq və təhlükəsizlik". "Canlı həyat"dan savayı digər bölmələr III sinif şagirdlərində təbiətə qayğıkeş münasibətin tərbiyələndirməsi üçün bilavasitə material vermir. "Canlı həyat" bölməsinin aşağıda adları çəkiləcək mövzuları isə bilavasitə və bilvasitə təbiətə məhəbbət, ona qayğıkeş münasibətin formalaşdırması baxımından imkanlar açır: "Canlılar və cansızlar", "Canlıların qidalanması", "Canlılar və həyat", "Torpaq" [20, s.18-21, mövzu 4]; Bitkilərin yayılması [20, s. 22-25, mövzu 5 ]; "Bitkilərin qruplaşdırılması" [20, s. 26-29, mövzu 6], "Heyvanların qruplaşdırılması" [20, s. 30-32, mövzu 7].

IV sinfin "Həyat bilgisi" dərsliyində isə, "Canlı həyat" bölməsi üzrə "Bitkilərin həyatımızda rolu", "Heyvanların həyatımızda rolu", "Sağlamlığımızın qayğısına qalaq", "Mühit amillərinin canlılara təsiri" mövzularının köməyilə IV sinif şagirdlərində Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılması üzrə müəyyən tərbiyəvi işlər aparmaq olar. Bu məqsədlə Zəlimxan Yaqubun "Axar su" şeiri zəngin material verir. Diqqət edək:

Şeirlə tanış olan məktəblilərə aşağıdakı sualları vermək məsləhətdir:

1. Qış gələndə su nə edir?
2. Yaz gələndə su nə edir?
3. Şairə görə dağ güclüdür, yoxsa su?

Müəllim sinfə müraciətlə deyə bilər: Tofiq Mahmudun şeiri də maraq doğurur. Nəzərdən keçirdiyimiz problem baxımından zəngin material verir. Tanış olaq:

Bir uşaq oluram bahar gələndə
Qaçıram dağlara güllər açanda.
Ürəyim nurlanır dan söküləndə,
Coşuram bulaqlar aşıb-daşanda.

Nədənsə qorxmuram, şəfqət içində
Baxıram, düşsəm də qar tufanına.
Həyəcan içində, heyrət içində
Baxıram göylərin həyəcanına.

Keçib qartal kimi göy qucağından
Uzaq ulduzlara uçar, uçaram.
Yelləncək düzəldib göy qurşağından
Bütün kainata qanad açaram...

Şagirdlərə veriləcək suallar:

1. Şairin ürəyi nə üçün "nurlanır dan sökülində"?

2. Şair göylərin həyəcanına necə baxır?

3. Dan yeri sökülində şeirin qəhrəmanının ürəyi nə üçün nurlanır?

4. Təqdim olunan şeirdə təbiət və onun gözəlliyi öz ifadəsini necə tapıb? Cavab verməyə çalışın.

I-IV sinif şagirdlərini həyat bilgisi dərslərində mütəfəkkirlərin təbiətə, fauna və floraya aid dəyərli fikirlərini çatdırmaq da məqsədəuyğundur.

4. Təbiətin ən böyük möcüzəsi anadır (*Yohann Volfqanq Höte).*

Təcrübə və müşahidələrdən görünür ki, bəzi ibtidai sinif müəllimləri haqqında danışılan mövzuların tədrisi zamanı şagirdlərə meyvələr, ağaclar, çiçəklər, yaşıl çəmənlər, çiçəkli bağlar, çay və göllər, dənizlər barədə çatdırılan məlumatları əsasən estetik zövqün formalaşdırılması baxımdan yönəldirlər. Əslində isə, ayrı-ayrı mövzular üzrə kiçikyaşlı məktəblilərdə Azərbaycanın zəngin flora və faunasına məhəbbəti, təbiətə qayğıkeş münasibəti tələbata çevirən son dərəcə gərəkli komponentlər vardır. Həmin komponentlər eyni zamanda kiçikyaşlı məktəblilərdə ekoloji mədəniyyətin formalaşdırılmasına yönəldilə bilər.

Təəssüf ki, bəzi sinif müəllimləri bu mövcud imkanlardan faydalanmırlar.

İbtidai sinif müəllimləri Azərbaycan dili, həyat bilgisi və musiqi fənləri üzrə mövzuların hər birinin köməyi ilə və əlavə materiallardan istifadə etməklə kiçikyaşlı məktəblilərin floramız və faunamız haqqında biliklərlə silahlandırılması, təbiətimizə və onun gözəlliklərinə qayğının göstərilməsi, təbiətimizin gözəlliklərinə, eyni zamanda zənginliklərinə görə onlara iftixar hissi keçirmək kimi zəruri hissləri aşılamaq üçün zəruri tədbirlər görməlidirlər.

Təhsilə aid sənədlərdə bitki və heyvanat aləminin, təbiətin mühafizəsi, gənc nəsildə ekoloji mədəniyyətin formalaşdırılması ilə bağlı mühüm vəzifələr irəli sürülür.

Müşahidə və sorğulardan görünür ki, ibtidai siniflərdə həyat bilgisi, Azərbaycan dili, musiqi fənlərindən başqa təsviri incəsənət və texnologiya fənləri üzrə dərslərdə də şagirdlərə flora və faunamız, eyni zamanda təbiətə qayğı ilə yanaşmağın vacibliyi ilə bağlı məlumatlar verilir.

Təbii ki, belə məlumatların şagirdlərə çatdırılması zamanı informasiya-kommunikasiya texnologiyalarından, pedaqoji innovasiyalardan faydalanmaq mümkündür. Bu texnologiyalar vasitəsilə kiçikyaşlı məktəbliləri bəzi ekoloji təzahürlərin aradan qaldırılması işinə hazırlamaq olar.

Ayrı-ayrı mövzuların köməyilə şagirdlərin hər birində təbiətə qayğıkeş münasibətin formalaşmasına tələbat yaranır. Şagirdlərə flora və faunamıza, təbiətə, onun gözəlliklərinə qayğıkeş münasibətin aşılanması kimi mühüm işə ibtidai siniflərdən başlamaq lazımdır. Bu sahədə təlim-tərbiyə işlərini yüksək səviyyədə apara bilmələri üçün sinif müəllimləri ilk növbədə özləri Azərbaycanın flora və faunası ilə yaxından tanış olmalı, təkcə I-IV siniflərin Azərbaycan dili, musiqi, həyat bilgisi dərsliklərində verilmiş mətnlərlə kifayətlənməməli, əlavə materiallardan - şifahi xalq ədəbiyyatımızdan, müdriklərin, mütəfəkkirlərin bitkilər və heyvanlar aləmi, təbiətimizin gözəllikləri və

onların mühafizəsi ilə bağlı söylədiklərindən, hekayə, şeir, nağıl, əfsanə, tapmağa, nəğmə, mahnı və bayatılardan faydalanmalıdırlar.

Kiçikyaşlı məktəblilərdə flora və faunamıza, təbiətimizə qayğıkeş münasibəti formalaşdırmaq üçün ilk növbədə onlarda inam yaradılmalıdır, onlara maraq aşılanmalıdır. Bu işin vacibliyinə tələbat yaranmasa, aparılan tərbiyə işlərinin səmərəsi az olar.

Təbiətə qayğıkeş münasibətin vacibliyi, təbiəti qorumağın əhəmiyyəti aydınlaşdırılmalı, şagirdlərə ekoloji böhran, ekoloji fəlakətlər barədə, ekoloji mühit, ətraf mühitin mühafizəsi ilə bağlı məlumatlar çatdırılmalıdır.

Azərbaycan folklorunda və klassik yazıçılarımızın yaradıcılığında təbiətin qorunmasının zəruriliyi, flora və faunamıza, təbiətə qayğılı münasibətlə əlaqədar lazımi məlumat vardır. Müasir dövrdə təhsilalanları milli dəyərlərimizə sevgi əsasında tərbiyələndirmək, məktəbliləri ətraf mühitin mühafizəsinə yönləndirmək çox mühüm vəzifələrindəndir. Həmin sahədə şifahi xalq yaradıcılığı böyük əhəmiyyət daşıyır.

Ona görə də baba və nənələrimiz təbiətə yaxın dost olmuş, çoxsaylı ağac, gül-çiçək əkib-becərmiş, ev heyvanları saxlamış, həm onlara qayğı göstərmiş, həm də onlardan bəhrələnmişlər. Bitki və heyvanat aləminə qayğı ilə yanaşmaqla, meşələri, çayları, gölləri, dağları, düzləri mühafizə etməklə, ətraf mühitin saflığının qorunması ilə bağlı faydalı fikirlər irəli sürmüşlər.

Diqqət yetirək. Ata-babalarımız demişlər:

*Torpağa aid:* "Torpaq becərənin, iş bacaranındır", "Torpaq deyər: döy məni, doyurum səni", "Torpaq qızıl quşdur əldən buraxdın, uçar gedər" və s.

*Floraya aid*: "Gülü sevən, tikanına dözər", "Bar verən ağacı kəsməzlər", "Bir çiçəklə bahar olmaz", "Meşədə də yaşasan ağacın qədrini bil", "Köksüz ağacın meyvəsi olmaz", "Hər meyvə öz vaxtında yetişər", "Tutmadı bostan, olmadı qarpız", "Susuz ağac meyvə verməz", "Barsız ağaca daş at-

mazlar", "Toxum at, toxum götür", "Tək ağacdan bağ olmaz" və s.

*Faunaya aid*: "Pişiyi bir vursan – dinməz, iki vursan – dinməz, axırda üz-gözünü cırmaqlar", "Pişiyi çox sıxışdırma, pələngə dönər", "Yatağan aslandan gəzəyən pişik yaxşıdır" və s.

Şagirdlərə Azərbaycanın florasına və faunasına, təbiətinə qayğı ilə yanaşmaq kimi mühüm keyfiyyətin aşılanması məqsədilə həmin fikirlərdən istifadə işin xeyrinə olardı. Artıq 30 ildən artıqdır ki, yenidən müstəqillik illərimizi yaşayırıq. Torpaqlarımızı işğal etmiş erməni-faşistlərini ölkəmizdən qovmuş, onların ordusunu darmadağın etmiş, onları təslimçilik aktını imzalamaq məcburiyyəti qarşısında qoymuşuq.

Lakin bütün dünyada olduğu kimi, ölkəmiz də ekoloji problemlərlə üzləşib. 30 il ərzində əzəli torpaqlarımızı ələ keçirmiş erməni nankorları – düşmənlərimiz işğal etdikləri yerlərdə olmazın vəhşiliklər törətmiş, saysız-hesabsız azərbaycanlıları qətlə yetirməklə, ev-eşiklərin, rayonları, kəndləri dağıtmaqla yanaşı Azərbaycanın flora və faunasını yaman günə qoymuşlar. Mənbələrdə göstərildiyi kimi, "Ermənistanın işğal etdiyi torpaqlarda yol verdiyi ağır cinayətlərdən biri ekoloji cinayətlərdir. Silahlı təcavüzün başlanandan ötən müddətdə düşmən tərəfindən ələ keçirilmiş ərazilərdə regionun bütün təbii sərvətləri də talan olunmuş, həmin ərazilərdə mütəmadi şəkildə yanğınlar baş alıb getmiş, işğal altındakı şəhər və rayonların flora və faunasına, ekoloji durumuna hədsiz zərər vurulmuşdur" [45].

Müəllim kiçikyaşlı məktəblilərə aşağıdakı məlumatları çatdırır: "Ermənistanın torpaqlarımızı işğal etməsi səbəbindən ölkəmizin 1,7 milyon hektar ərazisi tapdaq altında qalmışdı. Həmin yerlərdə 460 növdən artıq yabanı ağac və kol bitkiləri bitməkdə idi. Bu ərazilərdə bizim "Qırmızı Kitabı"mıza daxil olan quşların - 8, məməlilərin - 4, balıqların - 1, bitkilərin – 27, həşəratların da - 8 növü mühafizə edilirdi. İşğal altındakı ərazi-

lərdə 13197.5 hektarı qiymətli olmaqla 247352 hektar meşə sahəsi, 152 ədəd təbiət abidəsi vardı [15].

Son onilliklər ərzində respublikamızda – Bakı şəhərində, rayonlarda müşahidə olunan ekoloji problemlərlə kiçikyaşlı məktəblilərin tanış edilməsi məsləhətdir. Həmin problemlər hansılardır? Şagirdlər öyrənirlər:

1. Yaşıl ağacların yerli-yersiz kəsilməsi, yaşıllıqlara qayğısız münasibət.

2. Meşələrdən yanacaq mənbəyi kim bəhrələnmə. Xüsusən qış aylarında ağacları xəlvəti, oğurluq kəsərək evlərə gətirilməsi, onlardan sobaları yandırmaq, yemək bişirmək, çay qoymaq üçün vasitə kimi faydalanma.

3. Azərbaycanımızda Xəzər dənizinin, iri çaylarımızın, su hövzələrimizin çirkləndirilməsi. Bir yandan ermənilər, digər yandan özümüz təbiətə divan tuturuq. Bunların qarşısı alınmalıdır.

İşğaldan azad olmuş şəhər və rayonlarımızda, kəndlərimizdə hazırda görülən abadlıq işləri, ekoloji durumun yaxşılaşdırılması istiqamətində görülən tədbirlər barədə kiçikyaşlı məktəblilərə məlumatlar verilməlidir.

Eyni zamanda respublika Prezidenti cənab İlham Əliyevin şəxsən özünün rəhbərliyi və təşəbbüsü ilə ölkəmizdə ekoloji böhranın aradan qaldırılması, yaşıllıqların bərpası, bir-birinin ardınca parkların salınması, şəhər və rayonlarımızda minlərlə ağacın əkilməsi, su hövzələrinin təmizlənməsi istiqamətində görülən işlərdən şagirdlərin məlumatı olmalıdır. Bütün bunlar kiçikyaşlı məktəblilərdə Azərbaycan təbiətinə qayğı ilə yanaşmanı və onun qorunmasını borc sanmasını təmin edir. Gözəl təbiət, bitki və heyvanat aləminin zənginliyi, faydalılığı ibtidai sinif şagirdlərində milli qürur və iftixar hissləri meydana gətirir.

Kiçikyaşlı məktəblilərə ekoloji böhranla əlaqədar məlumatlar çatdırılarkən eyni zamanda onlar bəzi xarici ölkələrdə görülən tədbirlərlə də tanış olunmalıdırlar. Bunun əhəmiyyəti

böyükdür. Məlumatlandırma zamanı sinif müəllimi informasiya kommunikasiya texnologiyalarının imkanlarından da istifadə edə bilər. Müxtəlif ölkələrdəki sunamilər, okeandan qaynaqlanan ekoloji təhlükələr, daşqınlar (son zamanlar İspaniyada), meşə yanğınları kompüter, yeni pedaqoji texnologiyalar vasitəsilə ekranda canlandırıldıqda məlumatların əyaniliyi, təsirliyi artır.

İyirminci və iyirmi birinci yüzilliklərdə dünyada 5 ən güclü sunami baş verib. Hind okeanının şimal-şərq hissəsindəki zəlzələ səbəbindən meydana gələn sunamidə (2004) 300 min adam ölüb.

Mərkəzi və Şimali-şərqi Yaponiyadakı zəlzələ səbəbindən törəyən sunamidə (2011) 15 min vətəndaş dünyasını dəyişib.

Mərkəzi Çilinin cənub sahillərindəki zəlzələ səbəbindən yaranan (1960) 6 min adamın həyatına son qoyub.

Fillipin zəlzələsi səbəbindən baş verən sunami (1976) 2 min insanı ölümə məhkum edib.

Papua-Yeni Qvineyanın şimal sahillərindəki zəlzələ səbəbindən baş verən sunamidə (1998) 2 min şəxs o dünyalıq olub, 500 nəfərdən xəbər-ətər olmayıb.

İbtidai siniflərdə Azərbaycan dili, həyat bilgisi və musiqi fənlərinin imkanları bu və ya digər dərəcədə olsa da, digər fənlərin belə imkanları çox azdır. Odur ki, dərsdənkənar tədbirlərin imkanlarından da faydalanmaq lazım gəlir.

Hazırda ümumtəhsil məktəblərində kiçikyaşlı məktəblilərdə ekoloji mədəniyyətin bərqərar olmasına, onlarda Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılmasına müsbət təsir göstərən maraqlı tədbirlər keçirilir. Görülən işlər arasında "Ekoloji problemlər", "Ekologiyamızı qoruyaq", "Təbiətə münasibətdə qayğıkeş olaq", "Nəqliyyat tullantıları ilə atmosferin çirklənməsi", "Təbiəti qorumaq bizim borcumuzdur", "Azərbaycanın flora və faunası bizim milli qürur və milli iftixar mənbəyimizdir", "Atmosfer havasının qorunması", "Azərbaycan Respublikası çaylarının ekoloji

problemləri", "Kür və Araz çaylarının ekoloji problemləri", "Atmosferin çirklənməsinə yol vermək olmaz", "Bizim hər birimiz ekoloji mədəniyyətə yiyələnməliyik", "Havanın təbii çirklənmə mənbələri", "Xəzər dənizinin ekoloji vəziyyəti" və s. bu kimi tədbirlər kiçikyaşlı məktəblilərin Azərbaycanın təbiətinə qayğı ilə yanaşmalarına imkan verir.

III və IV siniflərdə təhsil alan şagirdlərin adları çəkilən tədbirlərdə iştirakı səmərəli nəticələnir. Bu kimi tədbirlərə qoşulmaqla onlar ekoloji problemlərdən xəbərdar olurlar. Təbiətin taleyi ilə maraqlanmamağın necə acı nəticələr verəcəyini başa düşür, torpağın, suyun, havanın çirklənməsi ilə mübarizə aparmağın vacibliyini anlayırlar. Şagirdlər insan həyatında və sağlamlığında suyun əhəmiyyətinin əvəzsiz olduğunu başa düşür. Onlara yazılı ədəbiyyatla yanaşı folklor nümunələrinə müraciət etmək məsləhət görülür. Bildiyimiz kimi, "Kitabi-Dədə Qorqud" dastanında Qazan xan "Su haqqı" kəlməsini işlədir. Başqa sözlə, o, suya and içir.

Bu, təsadüfi deyildir. Qədim Türk tayfaları, qədim azərbaycanlılar suyu müqəddəs saymışlar. Bu məlumatı alan məktəblilər suyu qənaətlə işlədir, bihudə yerə axıb getməsinə yol vermirlər.

Vaxtilə uşaq üzünə həsrət qalan qadınlar Azıx mağarasına yol alardılar. Onlar mağaraya yaxınlaşıb onun tavanından damcı-damcı süzülən suyu içir, oğul-uşaq sahibi olacaqlarına ümid bəsləyirdilər.

Suya möhkəm inamın olması Azərbaycanın hər bir yerinə xasdır. Xalqımız suyun paklığına, təmizliyinə, müqəddəsliyinə, saflığına, insan həyatında böyük rol oynadığına inanmışdır və hazırda da inanmaqdadır. Bu məlumatlarla kiçikyaşlı məktəblilərin tanış edilməsi onların suya inam hissini artırır.

Bioloji ehtiyaclarını ödəmək üçün insanlar hər gün haradasa 2-2,5 litr su qəbul etməlidir. Kiçikyaşlı məktəblilər bu məlumatdan da xəbərdar olmalıdırlar. Sinif müəllimləri şagirdləri bu kimi məlumatlarla dərslərdə də, yəni müxtəlif fənlər

üzrə bu və ya digər mövzu keçiləndə də, həm də təlim xarakterli sinifdənxaric işlərdə məktəblilərə çatdıra bilərlər.

Məktəblilər həm təlim xarakterli sinifdənxaric, həm də məktəbdənkənar vaxtlarda həyata keçirilən maraqlı, məzmunlu tədbirlərdə Azərbaycanımızın flora və faunasına, gözəl, əsrarəngiz təbiətinə dair zəruri məlumatlar alırlar. Odur ki, məktəblilər təbiətə qayğıkeş münasibət bəsləməyin vacibliyi ilə əlaqəli təlim xarakterli sinifdənxaric və məktəbdənkənar tədbirlərə cəlb edilməlidirlər. Sinifdənxaric tədbirlər dedikdə, məktəbdə dərsdənkənar vaxtlarda Azərbaycanın flora və faunası, təbiəti ilə əlaqədar təşkil edilən işlər başa düşülür.

Məktəbdənkənar tədbirlər ifadəsi altında təhsil müəssisəsindən kənarda ekologiya klubları, uşaq təşkilatları, ekoloji bəlalara qarşı mühafizə studiyaları, təbiəti mühafizə mərkəzləri, uşaq və gənclər təşkilatları daxilində fəaliyyətdə olan "Təbiətsevərlər" dəstələri kimi qurumlar başa düşülür. Onların fəaliyyətinə qoşulan kiçikyaşlı məktəblilər ekoloji problemlərdən xəbər tutur, bu kimi problemlərin aradan qaldırılması ilə əlaqəli mübarizə tədbirlərinə qoşulurlar. Nəticədə bütün bunlar ibtidai sinif şagirdlərində təbiətə qayğıkeş münasibət bəsləmələrinə imkan verir.

Onlar eyni zamanda bəşəriyyətin "Yaşıl evi"nə dair də zəruri məlumatlara yiyələnirlər. Məlum olduğu kimi, Yer kürəsi bəşəriyyətin "Yaşıl evi" adlandırılır. Təəssüf ki, bu "Yaşıl ev" hazırda təhlükəli, böhranlı vəziyyətdədir. Çayların, dəniz və okeanların suları, hava, torpaq hədsiz çirklənib. Bundan başqa, min hektarlarla meşələr qırılıb. Beləliklə, "Yaşıl evi"n flora və faunasına son dərəcə ciddi ziyan dəymişdir. Bunlardan başqa, çayların məcraları dəyişdirildiyindən, onların üzərində bəndlər salındığından bir çox balıq növləri yoxa çıxmışdır. Nüvə sınaqları, kosmik peyklərin havaya buraxılması, freon qazının ozon qatını zədələyərək yer üzündə radiasiyanın çoxalması ilə nəticələnməsi ağır xəstəliklərin baş verməsinə şərait yaratmışdır.

Təlim xarakterli sinifdənxaric məşğələlərdə bu kimi məlumatların verilməsi məktəblilərin həm respublikamızdakı ekoloji problemlərlə bərabər, beynəlxalq aləmdəki ekoloji böhran və fəlakətlərdən xəbər tutmalarına imkan verir. Şagirdlər Yer üzündəki ekoloji aləmi öz "Yaşıl evləri" bilir, onun taleyinə görə də narahat olurlar.

Təlim xarakterli sinifdənxaric məşğələlərdə nəzərdən keçirilməsi məsləhət bilinən məsələlərdən biri də Araz çayının problemlərinə aiddir. Ermənilər işğaldan əvvəl də, işğal zamanı da, hazırda da bu çayı çirkləndirməklə məşğuldurlar. Bu barədə də kiçikyaşlı məktəblilərin məlumatı olmalıdır. Dünyanın bundan xəbəri var, lakin özünü görməməzliyə vurur, yalnız səbəbsiz yerə Azərbaycanı suçlamaqdadır.

Ekoloji böhranın aradan qaldırılmasının zəruriliyini, ekologiyanın qayğısına qalmağın vacibliyini anlayan şagirdlər, təbii ki, bağ-bağçaları, yaşıllıqları, parkları, çəmənlikləri, xiyabanları, gölləri, çayları, su hövzələrini, bulaqları qoruyacaq, onları çirklənməyə qoymayacaqlar.

Ekoloji mühit, ekoloji tərbiyə, flora və faunamızın zənginliyi, təbiətimizin gözəllikləri ilə bağlı verilən məlumatlar şagirdlərin Azərbaycanın flora və faunasına, təbiətinə qayğı ilə yanaşmaq kimi dəyərli hərəkətlərin inkişaf etdirəcəkdir

Şagirdləri Azərbaycanın flora və faunası, ekoloji durumu ilə əlaqədar məlumatlara yiyələndirmək üçün müəllimlərin özləri də maariflənməyə cəlb edilməlidirlər. Onlar təlim xarakterli sinifdənxaric məşğələlər zamanı zəruri məlumatların köməyilə məktəbliləri flora və faunamıza, təbiətimizə qayğıkeş münasibət alışdırarlar. Bunun üçün onlar mövcud ədəbiyyatdan bitki və heyvanat aləmi, ekologiya, ekoloji tərbiyə ilə bağlı bilgilər seçmək mümkündür. Lakin imkan daxilində mətnlər, məlumatlar şagirdlərin yaşına, anlaq səviyyəsinə uyğun olmalıdır.

Sinif müəllimləri ekoloji mədəniyyətin başlıca məsələləri, o cümlədən ekoloji tərbiyənin məzmunu, mahiyyəti, məqsədi və vəzifələri ilə tanış olmalıdırlar.

Azərbaycanın flora və faunasına, təbiətinə, maddi və mənəvi sərvətlərinə dair məlumatları kiçikyaşlı məktəblilərə çatdırarkən onlarda ekoloji mədəniyyətin formalaşdırılması üzün imkan yaranır.

Şagirdlər dərsdə, yaxud təlim xarakterli sinifdənxaric məşğələlərdə "flora" və "fauna" anlayışları ilə tanış olurlar.

Öyrənirlər ki, flora dedikdə, "bu və ya digər ərazinin (eyni zamanda geoloji dövrün) bitki aləmi, başqa sözlə, bütün bitki növlərinin məcmusu başa düşülür. Flora sözü qədim Roma rəvayətlərində öz ifadəsini tapan gənclik, bahar və gül ilahəsinin adından götürülmüşdür" [48].

Floranı əks etdirən aşağıdakı şəkil şagirdlərə təqdim edilir:



Daha sonra "fauna" anlayışının mahiyyəti açıqlanır. Şagirdlərə məlum olur ki, fauna dedikdə bu və ya digər ərazidəki heyvan növlərinin toplusu anlaşılır.



Fauna haqqında təsəvvürə malik olmaq üçün aşağıdakı şəkil kiçikyaşlı məktəblilərin diqqət mərkəzinə gətirilir.

Məktəblilərdə flora və faunamıza, Azərbaycan təbiətinə qayğı ilə yanaşılması, təbiətin, ətraf aləmin saflığı, mühafizəsi ilə əlaqədar tərbiyələndirici, təhsilləndirici işlərin aparılmasına etnopedaqoji materiallar, folklor nümunələri yaxından kömək göstərə bilər.

Folklor nümunələrində saysız-hesabsız maraqlı nümunələr, materiallar vardır. Həmin materiallara atalar sözləri və məsəllər, nağıllar, dastanlar, əfsanələr, əsatirlər, bayatılar, rəvayətlər, nəğmələr, öyüdlər aiddir. Bu folklor nümunələri arasında ətraf aləmin, ağacların, gül-çiçəyin, yaşıllıqların, meyvələrin, heyvanların, quşların mühafizəsi ilə əlaqədar xalq deyimləri çoxdur. Şifahi xalq yaradıcılığında çinar ağacı, sərv ağacı – tale və bəxt ağacı qismində xatırlanır. Bu ağacların əkilməsi, sonra becərilməsi və onlara qulluq göstərilməsi ilə əlaqədar bir çox mülahizə və fikirlər mövcuddur. Xüsusən zoğal və əncir kimi ağaclara balta vurulması və mişar çəkilməsi folklorumuzda günah sayılır. Onlar tarixən müqəddəs ağaclar kimi qələmə verilib. Həmin ağaclar ətrafdakı tozları, çirkli havanı özlərinə çəkir. Deyilənlərin nəzərə alınması atmosferin daha da təmizlənməsi və daha da saflaşması demək olardı. Haqqında danışılan ağaclar eyni zamanda atmosferdəki karbon qazını, karbo-

hidratları udur, nəticədə atmosferə təmiz oksigen buraxırlar. Bu məsələlərlə tanışlıq şagirdlərin ağaclara, təbiətimizə, bitki aləmimizə qayğılı münasibəti inkişaf etdirir.

Şagirdlərə ekoloji mədəniyyətin, ekoloji tərbiyənin komponentlərinə dair məlumatların verilməsi də faydalıdır. Məsələn, ekoloji şüurun mahiyyəti aydınlaşdırıla bilər. Adından göründüyü kimi, şagirdlərə flora və faunamıza məsuliyyətli münasibətin aşılanması məqsədyönlü xarakter daşımalıdır. Onda Azərbaycanın flora və faunasına, təbiətinə qayğı ilə, həssas, sevgi və məhəbbətlə yanaşma olacaqdır.

Şagirdlərdə heyvanlar və bitkilər aləminə, yaşıllıqlara, bağlara, bağçalara, dağlara, yarğanlara, dərələrə, ceyran mələr düzlərə, çaylara, göllərə, bulaqlara, çeşmələrə qayğıkeş münasibəti tərbiyələndirməkdən ötrü onların şüurlu fəallığının yüksəldilməsi qayğısına qalınmalıdır.

Sinif müəllimləri ilə maarifləndirici işlər nəticəsində onlara aydın olur ki, ekoloji şüur ekoloji tərbiyənin əhəmiyyətli tərkib hissələrindən olub ibtidai sinif şagirdlərinin bu və ya digər psixoloji vəziyyətlərdə və emosiyalarında ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğılı münasibətinin öz ifadəsini tapması anlaşılır. Şagirdlər flora və faunamıza, ətraf aləmə qayğı göstərdikləri, onları qoruduqda, zənginləşdirdikdə ilk növbədə təbiəti gözəlləşdirərlər. Təbiət də onlara təmiz hava, saf su, bol ərzaq, mer-meyvə bəxş edər. Şagirdlərin ekoloji şüurunun formalaşması üçün onlar mövcud ekoloji problemlərlə məqsədyönlü, ardıcıl, mütəmadi şəkildə, tanış olunmalıdırlar.

Ekoloji şüura aid zəruri ədəbiyyata sahiblənmə müəllimlərin dərs vəsaitində nəzərdən keçirdiyimiz problemlə yaxından tanış olmalarına imkan verəcəkdir. Onlar ölkəmizin bitki və heyvanat aləmi, təbiətinə dair ibtidai sinif şagirdlərində tərbiyələndirmə işləri apararkən böyük kömək göstərəcəkdir. Təbiətin hadisələrinə şüurlu yanaşma kiçikyaşlı məktəblilərin həmin hadisələri yaxşı anlamalarına imkan yaradır.

İbtidai sinif müəllimləri bilməlidirlər ki, ekoloji şüurun inkişaf etdirilməsi şagirdlərin ekoloji biliklərə yiyələnmələrinə kömək edir.

Beləliklə, məktəblilərdə ölkəmizin flora və faunasına, təbiətinə, dağlarına, meşələrinə, çaylarına, Xəzər dənizinə, göllərinə qayğı ilə yanaşmaqla bağlı biliklər ekoloji biliklər sayılacaqdır.

Sinif müəllimləri ilə maarifləndirici işlər aparılarkən, onlara deyilməlidir ki, ekoloji şüur mövcud ədəbiyyatda tarixi kateqoriya kimi nəzərdən keçirilir.

Müəllimlərlə söhbət zamanı onlara aydın olmalıdır ki, ekoloji bilik – bu və ya digər şəxsi öz əhatəsinə alan canlı ekoloji aləmə dair məlumat sistemidir. Bu sistemə həm atmosfer, həm biosfer, həm də hidrosferlə bağlı zəruri məlumatlar aiddir. Həmin məlumat, adətən ətraf aləmin qorunması, şəxsiyyət-təbiət münasibətləri ilə bağlı məsələləri özündə birləşdirir. Ekoloji bilik, həmçinin Azərbaycanın florası və faunası, təbiətinə dair lazımi məlumatlar gərəklidir ona görə ki, bu və ya digər şəxs təbiət və cəmiyyət qarşılıqlı münasibətlərini hifz edib ətraf aləmi məqsədyönlü surətdə dəyişdirməyi bacarsın.

Digər məsələlər yanaşı təhsilin ekolojiləşdirilməsi məsələsinə də aydınlıq gətirilməsi tələbata çevrilir. Bu problem kiçikyaşlı məktəbliləri aşağıdakı qənaətlərlə tanış olunmasına imkan verir:

- şəxsiyyətin meydana gəlmə tarixi də xeyli dərəcədə təbiətin mövcud olma tarixi bir-biri ilə qarşılıqlı əlaqədədir, biri digərindən asılıdır;
- cəmiyyətin təbiətə münasibəti sosial münasibətlərlə şərtlənir;
- şəxsiyyət, insanın səhhəti, əxlaqi baxımdan təşəkkül imkanları sosial şəraitdən də, təbii mühitin zənginliyindən asılıdır və s.

İbtidai siniflərdə təlim prosesində və yaxud təlim xarakterli sinifdənxaric məşğələlərdə müəllim məktəblilərin şüu-

runda aşağıdakı ekoloji anlayışları canlandırır: "şəxsiyyətin səhhətinin yaxşı olması" (sağlamlıqdan ötrü əlverişli şərait), "təbii sərvətlərdən faydalanma", "monitorinq" (ətraf aləmin vəziyyəti), "ətraf aləminin əlverişliliyi", "təbiəti mühafizə" (ətraf mühit), "təbii şərait", "təbii ehtiyatlar", "antropogen amil".

Qeyd olunan anlayışlar mürəkkəb tərkiblidir. Bunun doğruluğunu "təbiətin qorunması", "ətraf aləm", "antropogen mühit" anlayışlarının mahiyyətinə varmaqla sübuta yetirmək mümkündür.

Söhbət zamanı sinif müəllimləri öyrənirlər ki, *"Ətraf aləm"* anlayışı cəmiyyəti, ölkə vətəndaşlarını, eləcə də müxtəlif səviyyəli təbii sistemləri özündə birləşdirir. Şəxsiyyət və təbiət sistemləri təhsil müəssisəsində nəzərdən keçirilən bir mövzudur.

Şəxsiyyəti əhatələyən təbii şəraitin (təbii obyektlərin) təsviri isə *təbii mühit* anlayışına aiddir. Diqqət yetirək: bioloji, kimyəvi, fiziki; mövzuda bu və ya digər dəyişikliklər yaradan amillər (biotik, abiotik, antropogen).

*Antropogen amil* təbiətin, bioloji sistemlərin vəziyyətinə və fəaliyyətinə öz təsirini göstərən ötəri və planlı, hazırki və keçmiş şəxsiyyət fəaliyyətinin hər bir növlərinə daxildir.

Sinif müəllimləri ilə maarifləndirici işlər nəticəsində onlar öyrənirlər ki, təbiətin qorunması cəmiyyət-təbiət münasibətlərinin optimallaşdırılmasına imkan verən tədbirlər sistemi (təhsil, iqtisadi, texnoloji, biotexniki, inzibati-hüquqi, sanitar-gigiyenik) kimi müəyyən olunur. Lakin tədris məqsədləri baxımından aşağıdakı qənaətlərdən faydalanmaq lazımdır: təbiətin-ətraf mühitin qorunması və keyfiyyətinin yaxşılaşdırılması, təbii sərvətlərin məhsuldarlığına nail olmaq, genofondun və nadir təbiət obyektlərinin mühafizəsi məqsədi ilə tədbirlər sistemi.

Dərslərdə flora və faunamızın, təbiətin mühafizəsi məsələlərinin diqqət mərkəzində dayanması şəxsiyyətin fəaliyyətinin məqsədlərinə, ətraf aləmin və təbii ehtiyatların keyfiyyətinə

nail olunmasına, nadir təbiət obyektlərinin, həmçinin genofondun qorunmasına əsasən qurulmalıdır.

Heyvanat aləminin ən dəyərli üzvlərindən biri də arılardır. Onlar uçan həşəratlar ailəsinə daxildir. Yer üzündə 20 mindən çox arı növü mövcuddur. Arılar təbiətdə nadir çiçəkləri tozlandırır. Lakin tozlandırdırmaqla bərabər gül-çiçəyin şirəsindən ləzzətli məhsul istehsal edirlər. Cənubi Asiya arıların Vətəni sayılır.

Dərsdə, həmçinin təlim xarakterli sinifdənxaric məşğələlərdə arılar barədə, arıların sayının artırılmasının vacibliyinə dair məktəblilərə məlumatlar verilməlidir.

Məktəblilər öyrənirlər ki, hazırda Yer kürəsində iki çox böyük ekoloji bəla mövcuddur. Biri – arıların sayının azalması, digəri – meşələrə divan tutulması, yaxud da onların od tutub yanmalarıdır. Meşə yanğınları son zamanlar xeyli çoxalmışdır.

Meşə yanğınları dedikdə, adətən kortəbii hadisələr səbəbindən yayılan yanğınlar anlaşılır. Meşə yanğınları səbəbindən təbii sərvətlər və ətraf mühit hədsiz zərər çəkir. Artıq ABŞ-dan başlamış Yaponiyaya kimi, həmçinin ekvatordan şimal qütbünə kimi Yer üzünün bütün nöqtələrində meşə yanğınları baş verir. Şagirdlər öyrənirlər ki, yanğınlar bir çox hallarda məsuliyyətsiz adamların ucbatından törəyir. Meşə yanğınları vaxtı həm canlı, həm də ölü örtük, meşə döşənəyi, ağaclar, budaqlar, yarpaqlar və s. od tutub yanır.

Mənbələrdə göstərildiyi kimi, meşə yanğınları bir sıra səbəblərdən törəyir. Buraya daxildir:

1. Meşədə ocaq qalamaq. Ocağı söndürmədən meşədən getmək.

2. Yanmaqda olan siqareti meşəyə tullamaq.

3. Uşaqların meşədə odla oyunu.

4. Şüşə qırıntılarının meşəyə atılması. Bu da yanğına səbəb olur. Həmin qırıntılardan meydana gələn şüalar əks olunaraq yanğın törədir.

Hazırda dünyada meşələrin kütləvi olaraq qırılması prosesi baş verir. Çoxsaylı nadir ağaclar, çəmənliklər, güllər, heyvanlar, quşlar məhv olur.

Bütün bu məlumatlardan kiçikyaşlı məktəblilər xəbər tutmalıdırlar. Kiçikyaşlı məktəblilərin təbiətə qayğıkeş münasibət bəsləmələrində ekoloji təhsilin rolu böyükdür. Ekoloji təhsil təbiətə, onun gözəlliklərinə, Azərbaycanın flora və faunasına dair bilikləri, ölkəmizin bitki və heyvanat aləmini qorumağın zəruriliyinə, ekoloji durumun yaxşılaşdırılmasına, ekoloji böhranın aradan qaldırılmasına yönələn məlumatlara yiyələnməni özündə ehtiva edir.

# V FƏSİL. İBTİDAİ SİNİF FƏNLƏRİ ÜZRƏ TƏLİM XARAKTERLİ SİNİFDƏNXARİC MƏŞĞƏLƏLƏRDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ AZƏRBAYCANIN FLORA VƏ FAUNASINA, TƏBİƏTİNƏ QAYĞIKEŞ YANAŞMANIN TƏŞKİLİ

## 5.1. Azərbaycan dili fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmağın imkanları və yolları

İbtidai siniflərdə keçilən bir çox fənlərin imkanları vardır ki, şagirdlərdə Azərbaycanın flora və faunasının zənginləşdirilməsi və mühafizəsinə qayğı ilə yanaşmaq, sistemli və müntəzəm ekoloji maarifləndirmə işləri aparılsın, ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğılı münasibət formalaşdırılsın. Bu sahədə, qeyd etdiyimiz kimi, Azərbaycan dili, həyat bilgisi, musiqi, texnologiya, təsviri incəsənət fənləri mühüm rol oynayır.

Haqqında danışılan məsələlərlə bağlı dərslərlə yanaşı təlim xarakterli sinifdənxaric məşğələlər də mühüm təhsilləndirici, təbiyələndirici və inkişafetdirici vəzifələrə malikdir.

İbtidai sinif müəllimləri yaranmış imkanlardan faydalanmalıdırlar. Təlim xarakterli sinifdənxaric məşğələlərdə ölkəmizin flora və faunasına aid materialları diqqət mərkəzinə gətirməli, şagirdlərin onlardan tərbiyəvi nəticələr çıxarmalarına nail olmalıdırlar.

Məktəbdə ibtidai təhsil illəri kiçikyaşlı məktəblilərin Azərbaycanın flora və faunasına, təbiətinə dair ilkin təsəvvürlər yaradır, ölkəmizin bitki və heyvanat aləmini qorumağı, zənginləşdirməyi, onlara qulluq göstərməyi tələbata çevirir.

Sinif müəllimləri dərsləri, təlim xarakterli sinifdənxaric məşğələləri optimallaşdırmaq üçün səmərəli metodlardan faydalanmalıdırlar.

Azərbaycan dili fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə kiçikyaşlı məktəblilərə respublikamızda hazırda nəsli kəsilən və ya nəsli kəsilməkdə olan heyvanlarla aid etno-pedaqoji nümunələr təqdim edilə bilər. Belə ki, meşələr şahı Aslan barədə atalar sözlərini yada salmazdan əvvəl bu vəhşi heyvanın bəzi önəmli xüsusiyyətləri qeyd edilə bilər. Şagirdlərə deyilir:

- Aslan meşələr sultanı sayılır. Bu, səbəbsiz deyil. Aslan vəhşi heyvanların ən güclüsüdür. Aslanın başqa adı da vardır. Çox zaman o, "Şir" deyə çağırılır. Çox zaman yeni doğulan uşaqlara Şirbala, Şiraslan, Şirməmməd, Aslan, Şirəli, Şirzad, Şiralı və s. bu kimi adlar verirlər. Aslan yaşayış məskəni kim təbiətin gözəl qoyununu – meşəni seçmişdir. Burada onun günü xoş keçir. Azad, sərbəst gəzib dolanır. Qidası dırnaqlı heyvanlardır. Təbiətlə ülfət bağlamaq insanlar kimi heyvanlarda da rəhmdillik, sülhsevərlik yaradır. Aslan da belə heyvandır.

- Məşğələdə Aslanın (şirin) təsvirinin verilməsi məsləhətdir: Aslan qısa, yuvarlaq başlı, yuvarlaq qulaqlara malik əzələli, qısa boyunlu, dərin sinəli heyvandır.

Cəsur, sücaətli, qorxmaz, qüvvətli olan, döyüşlərdə, güləşdə, samboda, qaydasız döyüşlərdə fərqlənən şəxsləri aslanla müqayisə edir, "Maşallah gücdə, qüvvətdə Aslandır, Şirdir", - deyirlər.

Təlim xarakterli sinifdənxaric məşğələdə Aslanın (şirin) üzərində ona görə dayanılır ki, o, heyvanat aləminin sayılıb-seçilən nümayəndələrindən biridir. Digər heyvanlar, quşlar kimi onu da qorumaq lazımdır. Aslanın ovlanması qadağan edilmişdir. Uşaqlar aslanlarla yaxından zooparklarda tanış olur, filmlərdə, videolarda, internetdə görür, onun barəsində məlumat toplaya bilirlər.

Məşğələdə haqqında söz açılan şirin şəkili nümayiş etdirilir:



Heyvanlar, o cümlədən Aslan barəsində məlumatlar ibtidai sinif şagirdlərinin vəhşi heyvanlar, onlardan daha güclü olanları, meşə mühitinə dair bilik və təsəvvürlərini genişləndirir.

Azərbaycan dili fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələdə Aslan haqqında atalar sözlərindən, bayatı və şeirlərdən, hətta nəğmələrdən istifadə oluna bilər.

Müəllim şagirdlərə aşağıdakı sualları verir:

1. Aslanın digər adı nədir?
2. Aslanlar harada yaşayırlar?
3. Güclü insanları nə üçün Aslanla müqayisə edirlər?
4. Aslan nə üçün heyvanat aləminin sayılıb-seçilən nümayəndəsi sayılır?
5. Uşaqlar aslanlarla yaxından haralarda tanış olurlar?

Təlim xarakterli sinifdənxaric məşğələdə insanın ən yaxın dostu at barədə söhbətin aparılması məsləhətdir. At əsrlər boyu insanın köməyində durub. Onlar döyüşlərdə sınanıb. Ağır müharibələrdə atlar öz sahiblərini çətin vəziyyətlərdən qurtarıblar. Atlardan minik vasitəsi kimi istifadə olunub, arabaya, faytona qoşulub. Məsafələr qət edib. At murad sayılır. At tarixən kişinin namus kimi dəyərləndirilib. İsmayıl Şıxlının "Dəli Kür" romanı işıq üzü görəndə kitabın üzqabığında at, papaq və qadın rəsmi çəkilmişdi. Qadın və papaq kimi at da namusdan sayılıb.

Allahyarın adamları Cahandar ağaya sataşmaq, onu alçaltmaq, qüruruna toxunmaq üçün onun atının həm yalını, həm də quyruğunu qırxmışdılar. Cahandar ağa bunu görəndə varından yox olur, özünə gələ bilmir. Bunu namusun ləkələnməsi kimi qəbul edir. Fikirləşir ki, daha bu atı adam arasına çıxara bilməz, onu ələ salarlar. Odur ki, vəziyyətdən çıxmaq üçün aparıb atını güllələyir.

Azərbaycan dili fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələdə at barədə səciyyəvi atalar sözlərinin səsləndirilməsi də məsləhətdir.

Kiçikyaşlı şagirdlərə müəllimin sualları:

1. Atı nə üçün insanın yaxın dostu adlandırırlar?
2. At tarixən necə dəyərləndirilib?
3. Cahandar ağa öz sevimli atını nə üçün güllələdi?
4. Atlardan nə məqsədlə istifadə olunur?

Məşğələdə şagirdlər at şəkli və Cahandar ağanın "Dəli Kür" filmindən şəkli (xalq artisti Ələddin Abbasov) təqdim olunur:






Məşğələdə insanın digər yaxın dostu, silahdaşı dəvə yada salınır. Dəvə var-dövlət sayılıb. Təsadüfi deyilməyib ki, "Dövlətdə - dəvə, övladda - nəvə". Hətta dəvə insanın ciyərparası nəvə ilə bərabər tutulub.

Kiçikyaşlı məktəblilər öyrənirlər ki, dəvə Azərbaycan faunasında önəmli yer tutur. Dəvə tarixən adamların minik və yük daşıma vasitəsi olub. Digər heyvanlarla müqayisədə dəvə aclığa və susuzluğa davamlıdır. Günlərlə yol getsə belə aclıq, yuxusuzluq çəkməz. Səhralarda yalnız dəvələrə bel bağlayıblar. Uzaq səfərlərə yollanan tacirlərin yükünü daşıyarkən dəvələr yaşıllıqlara dəymədən torpaq yolla, başqa sözlə karvan yolu ilə addımlayırdılar. Dəvələri "Səhraların möcüzəsi", "Səhra gəmisi" adlandırırlar. Bu nəhəng heyvan qoşadırnaqlılar ailəsinin nümayəndəsi sayılır. Dəvənin çəkisi haradasa 300-500 kiloqram arasındadır. Dəvələr atlardan da min il əvvəl əhliləşdirilib. Dəvə haradasa 400-500 kiloqram yük götürməyə qadirdir. Azərbaycan dili fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələdə şagirdlərə dəvə şəkili göstərilir:



Müəllim suallarla şagirdlərə müraciət edir:

1. Dəvə insanların həyat və fəaliyyətində hansı rolu oynayır?

2. Nə üçün səhrada atlardan yox, dəvələrdən istifadə olunur?

3. Dəvələr hansı ailəyə məxsusdurlar?

4. Dəvəyə hansı adlar verilib?

5. Dəvənin çəkisi adətən neçə kiloqram olur?

6. Dəvə, bir qayda olaraq nə qədər yük daşıya bilər?

Azərbaycan dili fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələdə eyni zamanda dəvəyə aid atalar sözlərindən, bayatı və şeirlərdən, hətta nəğmələrdən faydalanmaq lazımdır.

Azərbaycan dili fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələdə məktəblilərdə ölkəmizin florasına qayğı ilə yanaşmaq vərdişləri formalaşdırmaq üçün quşların həyat tərzi də səhifələnir. Bülbül yada salınır. Gözəl səsi olduğuna görə, əla cəh-cəh vurması səbəbindən bülbülə "Nəğməkar quş" da deyirlər. Bülbül azadlıq sevən quşdur. Bülbül yazın gəlməsini öz nəğmələri ilə xəbər verir. Odur ki, ona "baharın müjdəçisi" deyirlər. Yaz fəsillər içərisində ən gözəlidir. Onun gəlişi ilə bağlarda, bağçalarda güllər açır, ağaclar yaşıl donlarını geyinir, havalar istiləşməyə başlayır.

Bülbül qəfəsdə saxlanmağı sevmir. O, qızılgülün vurğunudur. Qızılgül də onunla təması xoşlayır.

Suallar:

1. Bülbül niyə "nəğməkar quş" adlanır.
2. Bülbül hansı rənglərdə olur?
3. Bülbül niyə qəfəsi xoşlamır?
4. Bülbül hansı gülü sevir?
5. Bülbülə nə üçün "baharın müjdəçisi" deyirlər?

Şagirdlər bülbülün şəkilləri ilə tanış olubülbülrlar:

 

Məşğələdə şagirdlər müəllimə belə bir sualla müraciət edirlər:

-Müəllim, bülbüldən savayı bir də Xarıbülbül var. Amma o, quş deyil, çiçəkdir. Müəllim Xarıbülbülün şəklini nümayiş etdirir:



- Uşaqlar, Xarıbülbül təbiətin möcüzəsidir. Gülün üzərində bülbül qərar tutub. Gül beləcə meydana gəlir, beləcə yaşayır: gül və bülbül əkiz bacı-qardaş kimi. Xarıbülbül Şuşada, həm də İsmayıllıda bitir. 44 günlük müharibədən sonra, Şuşa şəhəri erməni-faşist işğalçılarından azad olunandan sonra Xarıbülbül zəfərimizin müjdəçisi olub. Döş nişanına dönüb sinələri bəzəyir. Xarıbülbül artıq Qarabağın rəmzinə çevrilmişdir.

Müəllim xarıbülbülün təsviri olan döş nişanını da təqdim edir. Diqqət yetirək:




Azərbaycan dili fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələdə şeirdən bir parça səslənir:

“Vətən bağı” al-əlvandır,
Yox içində Xarıbülbül.
Nədən hər yerin əlvandır,
Köksün altı, sarı bülbül?!”

**Suallar:**

1. Xarıbülbül nə üçün təbiətin möcüzəsi adlandırırlar?
2. Xarıbülbül əsasən hansı ərazidə bitir?
3. Nə üçün deyirlər: Xarıbülbül Qarabağın rəmzinə çevrilib?

Təlim xarakterli sinifdənxaric məşğələdə həm də arılar barədə məlumatın dinlənilməsi məqsədəuyğundur. Qarışqalar kimi arılar da son dərəcə işləkdirlər. Dayanmadan fəaliyyət göstərir, çiçəkdən çiçəyə qonaraq bal istehsal edirlər. Ekoloji mühitin saflaşmasında arıların əməyi böyükdür. Çünki onlar, xüsusən işçi arılar çiçəklərin və bitkilərin tozlanmasını təmin edirlər.

Arı balı, arı südü, arı tozu dərdlərin dərmanıdır. Onlar insanların sağlamlığında böyük rol oynayırlar.

Folklor nümunələrimizdə arılara dair xeyli material vardır. Həmin nümunələrlə kiçikyaşlı məktəblilərin tanış edilmələri şagirdlərin təhsillənməsinə, maariflənməsinə və tərbiyələnməsinə çox kömək edir.

Arılar faunanın xırda və nadir nümayəndələrindəndirlər. İnsanlar təki arılar da ailə formasında yaşayıb fəaliyyətdə olurlar.

Bitki və heyvanat aləmi, təbiətimizin gözəllikləri ilə bağlı nümunələr arasında arılara aid xeyli atalar sözləri vardır. Məşğələdə onları diqqət mərkəzinə gətirmək mümkündür.

Bal gözəl nemətdir, qiymətsiz sərvətdir. Valideynlər övladlarını çox istəyirlər. Onları əzizləyəndə "bal kimi şirinsən" – deyirlər.

Təsviri incəsənət fənni üzrə təbiətə, ölkəmizin flora və faunasına, təbiətimizin gözəlliklərinə, zənginliyinə aid rəsmlərdən, fotoşəkillərdən, şəkillərdən, rəssamlarımızın əsərlərindən, yaradıcılıqlarından faydalanmaq mümkündür.

Azərbaycan dili fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə bitki və heyvanat aləminə, təbiətə aid kiçikyaşlı məktəblilərin yaradıcılıq nümunələrindən (yazdıqları şeirlər, nağıllar, hekayələr, rəsm əsərləri, fotoşəkilləri) faydalanmaq mümkündür. Bu, onların məşğələlərə həvəsini artırardı.

### 5.2. Təsviri incəsənət fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmağın imkanları və yolları

Təlim xarakterli sinifdənxaric məşğələlər təsviri incəsənət fənni üzrə də keçirilir və özünün səmərəli təsirini göstərir. Bu məşğələlər təlimdə ayrı götürülmüş şəkildə, tam sərbəst olaraq təşkil olunmur. Əksinə, təlim prosesinin bilavasitə davamı olaraq, başqa sözlə dərslərdə nəzərdən keçirilən məsələlərə daha geniş baxılması və kiçikyaşlı məktəblilərin müstəqilliyi və fəallığı şəraitində həyata keçirilir.

Azərbaycan dili fənni ilə yanaşı, həyat bilgisi fənni üzrə də dərslərdə ölkəmizin flora və faunası, onların mühafizəsinin vacibliyi, təbiətə qayğını özündə əks etdirən materialların üzərində əhatəli şəkildə dayanmaq mümkün olmur. Ayrı-ayrı məsələləri daha hərtərəfli nəzərdən keçirmək üçün təlim xarakterli sinifdənxaric tədbirlərin imkanlarından faydalanmaq mümkündür.

Dərs 45 dəqiqəni əhatə edir. Köhnə materialın soruşulması (müxtəlif metodlar tətbiq olunmaqla, pedaqoji texnologiyalar tətbiq edilməklə), suallarla, müəllimin şərhi, yeni dərsin izahı, möhkəmləndirilməsi, tapşırıqların icrası və s. Bütün bunlar 45 dəqiqə müddətində yerinə yetirilir.

Təlim xarakterli sinifdənxaric məşğələlərdə vaxt məhdudiyyəti yoxdur. Proqram materialı ilə bağlı bu və ya digər məsələ əhatəli şəkildə araşdırıla bilər. Lakin bu, həm də o demək deyildir ki, məşğələlərdə vaxtdan səmərəsiz istifadə olunsun, lüzumsuz yerə vaxt itirilsin və həddindən artıq vaxt getsin. Şagirdlərin yaş xüsusiyyətləri, anlaq səviyyələri, maraq və meyilləri də nəzərə alınmalıdır. Onları yormaq da olmaz. Əks təqdirdə onlarda Təlim xarakterli sinifdənxaric məşğələlərə maraq sönə bilər.

Təsviri incəsənət fənni üzrə təbiətə, ölkəmizin flora və faunasına, təbiətimizin gözəlliklərinə, zənginliyinə aid rəsmlərdən, fotoşəkillərdən, şəkillərdən, rəssamların əsərlərindən, yaradıcılıqlarından faydalanmaq mümkündür. Ölkəmizin bitki və heyvanat aləminə, təbiət mənzərələrinə aid kiçikyaşlı məktəblilərin rəsm əsərləri, fotoşəkilləri diqqət mərkəzinə gətirilə bilər.

Təbiətin mənzərəsi (Şəkil 1). Şagirdlərə diqqət yetirmələri təklif olunur. Onlara mənzərəyə aid ***suallar*** verilir:



**Şəkil 1.**

***Şəkil 1 üzrə suallar və tapşırıqlar:***

1. Şəkildə nə təsvir olunur?
2. Sizcə, hansı fəsildir?
3. Təbii gözəllikləri necə qorumaq, onları gələcək nəsillərə necə ötürmək olar?
4. Kənddəki su mənbələri necə qoruna bilər?
5. Bu təbiət mənzərəsini özünüz çəkməyə çalışın.



**Şəkil 2.**



**Şəkil 3.**

***Şəkil 2 üzrə suallar***

1. Sizcə, şəkildə hansı fəsil təsvir olunub?
2. Şəkildəki çayın ətrafını necə təmiz və gözəl saxlaya bilərik? ?
3. Şəkildə uçan quş görünür. Quşlaın qidalanması üçün hansı təbii mühitə ehtiyacı var?
4. Şəkildə görünən canlıları necə qorumaq olar?

***Şəkil 3 üzrə suallar və tapşırıqlar:***

1. Göy qurşağının rəngləri haqqında nə bilirsən?
2. Göy qurşağının görünməsi üçün hansı təbii hadisəyə ehtiyac var?
3. Göldəki canlıların sağlamlığı üçün nə etməliyik?
4. Göldə üzən nədir?
5. Təbiət mənzərəsini təsvir etməyə çalışın.



**Şəkil 4.**



**Şəkil 5.**

***Şəkil 4 üzrə suallar və tapşırıq:***

1. Şəkildəkiləri təsvir etməyə çalışın.
2. At harada otlayır?
3. Atları təbiətdəki təhlükələrdən qorumaq üçün nə edə bilərik?
4. Siz də buna bənzər şəkil çəkə bilərsiniz?

***Şəkil 5 üzrə tapşırıq və suallar:***

1. Şəkildə hansı fəsil təsvir edilib?
2. Yaşıllıq üçün nə lazımdır?
3. Ağacları necə  qorumaq olar?
4. Şəkildə hansı heyvanın təsviri verilib?
5. Maralın yaşaması üçün meşə necə olmalıdır?
6. Maralın təbii düşmənləri kimdir?



**Şəkil 6.**

***Şəkil 6 üzrə suallar*:**

1. Şəkildə nə təsvir olunub?
2. Bu heyvanın yeməyinə nə daxildir?
3. İnsanların həyatında inəyin rolu nədən ibarətdir?
4. İnəklər nə üçün təmiz və rahat  yerdə yaşamalıdır?



**Şəkil 7.**

***Şəkil 7 üzrə suallar*:**

1. Şəkildə hansı heyvanlar təsvir olunub?
2. Vəhşi heyvanların yaşayışı üçün nə vacibdir??
3. Heyvanların meşədə sığınacaq tapması üçün hansı növ ağaclar və bitkilər əhəmiyyətlidir??
4. Şəkildə daha hansı heyvanlar var?



**Şəkil 8.**

***Şəkil 8 üzrə suallar*:**

1. Bu heyvanın adı nədir?
2. O, harada yaşayır?
3. Bu heyvan haqqında nə bilirsiniz?
4. Bu heyvanın qorunması üçün hansı qanunlar, qaydalar, təşkilatlar mövcuddur?
5. Onun qoruması üçün hansı tədbirlər görülməlidir?



**Şəkil 9.**

***Şəkil 9 üzrə suallar***:

1. Bu hansı heyvandır?
2. Bu heyvan harada yaşayır?
3. Onun haqqında nə bilirsiniz?
4. Bu heyvan insanın həyatında hansı rolu oynayır?



**Şəkil 10.**

***Şəkil 10 üzrə suallar*:**
1. Şəkildə hansı heyvan təsvir olunub?
2. Canavarın hansı xüsusiyyətləri var?
3. Canavar meşədə yaşasa, necə həyat sürərdi?
4. Canavara aid hansı hekayəni oxumusan?



**Şəkil 11.**

***Şəkil 11 üzrə suallar*:**
1. Bu quşun adı nədir?
2. Bu quş nə ilə qidalanır?
3. Bu quş hansı iqlim şəraitində yaşayır?



**Şəkil 12.**

***Şəkil 12 üzrə suallar*:**
1. Bu hansı quşdur?
2. Bu quş haqqında nə bilirsiniz?
3. Bu quşun məskəni haradır?
4. Onun barəsində nə bilirsiniz?



**Şəkil 13.**



**Şəkil 14.**



**Şəkil 15.**

***Şəkil 13 üzrə suallar*:**

1. Bu quşun adı nədir?
2. Hansı ölkələrdə yaşayır?
3. Nə zaman uçub gəlir?
4. Onların çoxalması və qorunması üçün hansı tədbirlər görülməlidir?

***Şəkil 14 üzrə suallar*:**

1. Bu hansı güldür?
2. Gül ətrafımıza hansı gözəlliyi yaradır?
3. Gülün böyüməsi üçün nə lazımdır?
4. Gülə qayğı göstərmək sənə nə hiss etdirir?

***Şəkil 15 üzrə suallar*:**

1. Bəs bu hansı güldür?
2. O hansı rənglərdə olur?
3. Bu gül hansı mövsümdə əkilir?
4. Bu gülün böyüməsi üçün hansı şəraitə ehtiyacı var?
5. Onun çiçəkləri nə vaxt açır?



Şəkil 16.



Şəkil 17.

***Şəkil 16 üzrə suallar*:**

1. Bu hansı meyvədir?
2. Bu meyvə hansı rənglərdə olur?
3. Alma nə kimi faydalı xüsusiyyətlərə malikdir?
4. Azərbaycanda almanın vətəni haradır?
5. Alma ağacının qorunması üçün hansı ekoloji tədbirlər görülməlidir?
6. Onu zərərvericilərdən necə qorumaq olar?

***Şəkil 17 üzrə suallar:***

1.Bu hansı meyvədir?
2. Sən armudu xoşlayırsan?
3. Armud ağacının çiçəkləri və meyvələri hansı rəngdədir?
4. Bu meyvə canlıların həyatında hansı rola malikdir?
5.Armud ağacının çiçəkləri hansı böcəkləri cəlb edir?



**Şəkil 18. İlanlar**

***Şəkil 18 üzrə suallar*:**

1. Bu hansı heyvandır?

2. İlanlar harada məskən salırlar?
3. İlanlar nə ilə qidalanır?.
4. Təbiətdə ilanların sayı azaldıqca nə baş verər??
5. İlanlar nə üçün qorunmalıdır?




**Şəkil 19-20 (balıqlar).**

***Şəkil 19-20 üzrə suallar*:**
1. Balıqlar haqqında nə bilirsiniz?
2. Balıqlar harada yaşayırlar?
3. Balıqıarın təbiətdəki rolu və insan orqanizminə faydaları nələrdir?
4. Balıqların təbiətdəki rolunu göstərən rəsm əsəri yaratmaq üçün hansı rəngləri seçərdiniz?



**Şəkil 21.**

*Şəkil 21 üzrə tapşırıq və suallar*:

1. Bu hansı ev heyvanıdır?
2. Bu heyvan nə ilə qidalanır?
3. Quzuların qidalanma vərdişi necədir?
4. Quzunun müxtəlif mövqelərdə çəkilmiş şəkillərini təsvir edin.

Deyilənlərdən görünür ki, təsviri incəsənət fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə həqiqətən Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmaq mümkündür, bu baxımdan fənnin imkanları genişdir, ibtidai sinif müəllimləri bu imkandan faydalanmalıdırlar.

### 5.3. Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmağın imkanları və yolları

İbtidai sinif müəllimləri həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlər təşkil etməklə, bu məşğələlərin imkanlarından faydalanmaqla, kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılmasına nail ola bilərlər.

II sinif şagirdləri ilə məşğələdə müəllim Əhməd Cəmilin "Vətən" şeirini yada salır. Məktəblilər Rəşid Behbudovun ifasında "Vətən" nəğməsini dinləyirlər. Musiqinin sədaları altında monitorda ölkəmizin gözəl təbiəti göz oxşayır. Əsrarəngiz mənzərələr bir-birini əvəz edir: Xəzər dənizinin qumlu sahilləri, Göy Gölün əsrarəngizliyi, yaşıllıqlar və gül-çiçəklərlə dövrələnmiş Maralgöl, enliyarpaqlı meşələr, göy çəmənlər, nadir quşlar, daha nələr nələr!

Mahnı sona yetir. Şagirdlər Azərbaycan təbiətinin təsiri altındadırlar. Bu təbiətə görə, maddi və mənəvi sərvətlərimizə

görə milli iftixar hissləri keçirirlər. Müəllimin sualına cavab olaraq şagird deyir:

- Azərbaycanımız gözəl təbiətə malikdir. Bizim borcumuz, vəzifəmiz bu gözəlliyi qorumaq və inkişaf etdirməkdir.

Digər şagird:

- Biz ölkəmizin bitki və heyvanat aləminə qayğı ilə yanaşmalıyıq. Təbiətə qayğısız, laqeyd münasibət bəsləyən şəxsləri başa salmaq lazımdır ki, havamız, suyumuz, qidamız nə qədər saf, təmiz, təbii olsa, ömrümüz bir o qədər uzun olar.

Başqa şagird:

- Parklarda, bağ-bağçalarda meyvə ağacları, rəngbərəng gül-çiçək olur. Baxımsız olduqda onlar quruya bilər. Bitkilər də, ağaclar da, kollar da canlıdır. Nəfəs alırlar. Yaşıllıq bizim üçün oksigen istehsal edir. Özümüzü bu oksigendən məhrum edə bilmərik.

Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə müəllimin tapşırığına əsasən, məktəblilər bitki və heyvanat aləminə, təbiətə dair atalar sözləri və məsəllərinə müraciət edir, bayatılar, şeirlər deyirlər. Tapmaca söyləyib cavabını tapırlar. Təlim xarakterli sinifdənxaric məşğələdə mükafatlanma həyata keçirilir. Müsabiqə elan olunur: kim vətənin ekoloji aləminə, atmosferinə, flora və faunasına, hidrosferi və biosferinə, qoruqlarına, balıqlarına dair məzmunlu faktlar və məlumatlar çatdırarsa, rəğbətləndirəcəkdir. Şeir, mahnı müsabiqəsi də keçirmək mümkündür.

Müəllim onlara Vətənimizə aid bir şeiri təqdim edir. Müəllifi bilinməyən "Belə sevdim, mən Vətəni" şeirində Vətənə məhəbbətlə yanaşı onun təbiətinin gözəllikləri təsvir olunub. Həmin şeirlə bağlı şagirdlərə suallar verilir.

***Suallar və tapşırıq:*** 1. Göy Göllə bağlı nə bilirsiniz? 2. Göy Göl harada yerləşir? 3. Azərbaycanda Göy Göldən savayı hansı gölləri tanıyırsınız? 4. Xəzər dənizi harada yerləşir? 5. Azərbaycanımız üçün Xəzər dənizin əhəmiyyəti nədən ibarətdir? 6. Deyilənə görə, Xəzərdən neft çıxarılır? 7. Bu barədə nə bilirsiniz? 8. Düşmənlər niyə Azərbaycanı sevmir? 9. Vətəni nə

üçün sevmək lazımdır? 10. Nə üçün belə deyirlər: Vətən – anadır! 11. Nə üçün şeirdə "Vətənə bizim ürəyimiz" deyilir? 12. Bəs nə üçün belə deyilir: Vətən mənim canımdadır, damarımda, qanımda, ürəyimdə, ruhumdadır? 12. Şeir xoşunuza gəldimi? 13. Şeiri əzbərləməyə çalışın.

Şeirə münasibət bildirmək, tərənnüm olunan başlıca məsələləri vurğulamaq məktəblilərə tapşırıla bilər. Müəllim ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğı ilə yanaşmağın və təbiəti qorumağın vacibliyinə diqqəti yönəldir.

Müəllim:

Vətən bizim ürəyimiz,
O, suyumuz, çörəyimiz.
Ölsək belə, gərəyimiz,
Belə sevdim, mən Vətəni,

- söyləyən şair Vətənin bizim ürəyimiz, suyumuz, çörəyimiz olduğuna diqqəti yönəldir. İnsa-nın mövcudluğu üçün başlıca rol oynayan şeyləri diqqət mərkə-zinə gətirir. Hətta "ölsək belə", Vətənimizin yenə də "gərəyimiz" olduğunu deyir.

Şagirdlərin gəldikləri qənaət: "Çox gözəl mənalandırmadır".

Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələdə təqdim olunan şeirin aşağıdakı beyti üzrə şagirdlərə sual verilir:

Göy Gölü var, Xəzəri var,
Xəbislərin nəzəri var.

Müəllim: - Şair nə üçün "Xəbislərin nəzəri var" deyir? Kimlərdir bu xəbislər?

Şagirdlər cavablandırmağa çalışırlar:

- Azərbaycanımızın gözəl dənizi var – Xəzər dənizi. Gölləri də var: Göy Göl. Bu gözəllik düşmənlərimizi narahat edir, yuxularını ərşə çəkir.

Başqa sual. Şagird: - Bizim daha hansı gölümüz var?

Müəllim:

- Ölkəmizdə təxminən müxtəlif xarakterli 450 göl mövcuddur. Onlardan Maralgöl, Böyükşor, Qanlıgöl, Ağgöl , Qaragöl və başqaları

Şagird: - Bizim qürbətdə olan gölümüz də var.

Müəllim: - Doğrudur. Göyçə gölü hazırda ermənilərin məskunlaşdığı ərazidə yerləşir. Həmin ərazi tarixən Azərbaycan torpağı olub. Azərbaycanlıların, Aşıq Ələsgərin vətəni olub və hazırda da vətənidir o torpaqlar.

Müəllimin sualı: - Göy Göl, Maralgöl harada yerləşir?

Məktəbli: - Göy Göl Gəncə şəhəri yaxınlığındadır. Maralgöl də həmçinin.



**Göyçə gölü**

Müəllim:

- Göyçə gölü barədə nə deyə bilərsiniz?

Şagird:

- Xəzər dənizində, Kür çayında, Göy Göldə, Araz çayında, Maralgöldə olduğu kimi Göyçə gölündə də zəngin balıq və canlılar aləmi mövcuddur. Bu göllər yaşıllıqlarla, meşələrlə, əhatə olunublar. Meşələrdə heyvanlar və quşlar məskunlaşıblar. Göllərimiz, çaylarımız, bulaqlarımız ölkəmizin təbiətini gözəlləşdirir.

Məşğələnin ruhuna uyğun olaraq misralar səslənir. Həmin misralarda uca dağların baş-başa dayandığı, düzlərin isə, bir

tamaşa; dərələri – dərin, yaylaqların səpsərin olduğu; Vətənin qoynunun da gözəlliyi, doğmalığı tərənnüm edilir [23].

Müəllim: - Uşaqlar, şeirlə bağlı fikrinizi bildirin.

Məktəbli: - Şeiri dinlədikcə Kəpəz dağı, İlandağ, Şahdağı, Əlincədağ, Tufandağ, Dəli dağı, Talış dağları, Böyükdüz dağı yada düşür.

- Müəllim: - Uşaqlar, siz bilirsinizmi ki, Azərbaycanımızın ərazisinin təxminən 60 faizini dağlıq ərazilər tutur.

Şagird: - Müəllim, bunu bilmirdik. Yaxşı ki, öyrəndik.

Müəllim: - Bu dağlardan hansılar barədə məlumat verə bilərsiniz?

Şagird S.: - İcazənizlə Kəpəz dağı barədə məlumat verim.

Müəllim: -

-Buyur.

Şagird S.: - Göygöl rayonunun ərazisindədir. 3066 metr hündürlüyündədir. Zəlzələlər səbəbindən Kəpəz neçə dəfələrlə uçqunlara məruz qalmışdır. Axırıncı uçqun 1139-cu ildə olmuşdur. Kəpəzin yerindən qopan sal daşlar, qaya parçaları Ağsu çayının dərəsinə yuvarlanmış, çayın qarşısını qapayaraq Göy Gölü, Maralgölü meydana çıxarmışdır.

Müəllim: - Çox yaxşı. Yoldaşlarına çox yaxşı məlumat çatdırdın. Daha kimin sözü var?

Şagird V.: - Mən İlandağ barədə danışmaq istəyirəm. Bu dağ Culfa rayonunun ərazisindədir. 2415 metr hündürlüyündədir.

Şagird Ü.: - Müəllim, olar mən əlavə edim?

Müəllim: - Buyur.

Şagird Ü.: - Dağ vulkan səciyyəlidir. Zirvəsinin aldığı formaya bu dağı Haça dağ da adlandırırlar.

Şagird P.: - İlandağla bağlı bir rəvayət var. Nuh peyğəmbərin gəmisi, sən demə, Gəmiqaya ilə yanaşa digər bir dağ zirvəsinə də çırpılıbmış. Toxunuşdan gəmi çox yırğalanıb. Bunu görən Nuh peyğəmbər üzünü gəmidəkilərə tutaraq: “İnan, dağ-

dır", - söyləyib. Həmin rəvayət dillərdə dolaşıb, "İnan dağ" "İlandağ" şəklini alıb.

Şagird B.: - Mən Əlincə dağı barədə məlumat vermək istəyirəm. Bu dağ zirvəsinin hündürlüyü 1821,4 metrdir. Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda yerləşir.

Şagird G.: - Əhməd Cəmil "Vətən" şeirində "düzlərimiz" söyləyəndə ola bilsin ki, Cıdır düzünü fikrində tutub. Cıdır düzü Şuşa şəhərindədir. Bu düzdə vaxtilə müxtəlif oyunlar ("Yaylıq oyunu", "Papaq oyunu" və s.) yarışlar, qaçış və çovkan oyunları təşkil edilirdi. Özü də yarışlar atlardan başqa həm də dəvələrlə keçirilirmiş. Qoç və dəvə döyüşləri, olurmuş. Burada pəhlvanlar güclərini sınayarlarmış. Qələbə qazananlar mükafatlandırılarmış.

Şagird T.: - Azərbaycanın maddi və mənəvi sərvətləri həmişə qibtə doğurub. Dostlar buna sevinib, düşmənlər od tutub yanıb.

- Respublikamız dünyada çayları, sərin bulaqları, gölləri, yaylaqları, təmiz havası, dərman bitkiləri, ətirli çiçəkləri ilə tanınır. Çay və göllərimizin sahillərində maral, ceyran, cüyür gəzib dolaşmış, qidalanmış, saf sudan içmişlər. İnsanlar saf sulu, göy rəngə çalan suyunu bəyənərək gölə Göygöl adını vermişlər. Ölkəmizin bitki və heyvanat aləmi ekoloji mühiti zənginləşdirən, saflaşdıran amildir. Onlara qayğı varsa, qorunursa ekologiya da mühafizə edilmiş olur.

Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə şəkillər üzrə tapşırıq və suallar əsasında şagirdlərin bəzi cavablarının təxminən aşağıdakı səpgidə olacağı mümkündür:

**Fil** – Məktəblilər filləri kitablarda, filmlərdə, zooparkda görürlər. Təlim xarakterli sinifdənxaric məşğələlərdə onlar haqqında bəzi məlumatlar almaları məsləhətdir. Müəllim aşağıdakıları onlara çatdıra bilər: fillər iki cür olur: Afrika fili, Asya fili. Fillər Afrika qitəsinin cənub-şərqində, həmçinin Cənub-Şərqi Asiyada məskən salmışlar. Afrika filinin boyu 4 metr,

ağırlığı isə haradasa 7 tondur. Filləri digər heyvanlardan fərqləndirən onun iri çəkili olması deyil, həm də uzun xortuma malik olmasıdır. Fil həmin xortumdan bir sıra məqsədlər üçün faydalanır. Filin uzun və kəsici dişləri vardır. Onun kəsici dişləri müharibələrdə güclü silah kimi işlədilib. Fillər yaşamaq üçün su hövzələrinə yaxın əraziləri seçir. Onunla bataqlıq, səhra, Savanna və meşələrdə rastlaşmaq mümkündür. Digər heyvanlar, o cümlədən şir, pələng fillərdən çəkinirlər.

Müəllim şagirdlərə müraciətlə belə bir faktı onların diqqətinə çatdırır:

- Bir dəfə televizorda "Heyvanlar aləmində" verilişinə baxırdım. Söhbət fillərdən gedirdi. Bir də gördüm ki, bir neçə şir bir nəhəng fili qabaqlarına qatıb qovur. Fil bu qədər şirin ona hücum etdiyini görüb qaçırdı. Nəhayət, fil qaçmaqdan yorulub dayandı və yerə oturdu. Şirlər filə daraşdılar. Bir neçə şir nə qədər əlləşdisə, dişləri filin dərisinə batmadı ki, onu parçalayıb yesinlər. Odur ki, fili tərk edərək çəkilib getdilər. Fil ayağa qalxıb yoluna düzəldi. Onun, necə deyərlər, heç burnu da qanamamışdı.

Şagirdlər, dediklərim, şahidi olduqlarım filin necə güclü olduğunu göstərdi. Yırtıcı heyvanlar fillərlə bacara bilmirlər, yalnız ata-analarından uzaq düşmüş körpə fillərə hücum edə bilirlər.

Fillər də ailə şəraitində yaşamağı xoşlayırlar. Bu onların gücünü artırır və təhlükəsizliyini təmin edir. Müəyyən yaşa çatan erkək fillər ailə qrupundan çıxır, ya tək-tənha həyat sürür, ya da başqa erkən gənc fillərlə qrup halında yaşayırlar.

Vaxtilə müharibələrdə fillərdən istifadə olunardı.

Asiya qitəsində fillər daha çox yük daşıma vasitəsi rolunu oynayır.

***Suallar:*** 1. Fil insanların həyatında nə kimi rol oynayır? 2. Afrika filinin boyu neçə metrdir? 3. Afrika filinin ağırlığı neçə tondur? 4. Filləri digər heyvanlardan fərqləndirən nədir? 5. Fil

öz xortumundan hansı məqsədlər üçün faydalanır? 6. Fillər yaşamaq üçün hansı əraziləri seçir?

***İnək*** – ey heyvanıdır. Rayon və kənd yerlərində ailələrin ən yaxın dostu və qida mənbəyidir. Südü sağılır, əti yeyilir. Südündən istifadə olunur, yağ, ayran hazırlanır. Şəhər yerlərində uşaqlar inəyi şəkillərdə, ət dükanlarının qarşısında görürlər. Bəzən elə şəhər yerlərində də inəyi, dananı göz qarşısında kəsirlər. Bir çox hallarda bunu uşaqlar da görürlər. Kənd yerlərində həyət-bacada olur, naxıra gedir. Heyvan yiyələri bir sıra hallarda həyətdə uşaqların gözləri qarşısında inəyin, dananın boğazına bıçaq dirəyirlər. Bu, müəyyən mənada, yolverilməzdir. Uşaqların yanında inəyin, toyuğun, qazın, ördəyin kəsilməsi heç bir halda məsləhət görülmür.

Uşaqlar heyvanların, quşların əziyyət, əzab çəkdiklərinin şahidi olmamalıdırlar. Biz onlarda qəddarlıq, rəhmsizlik deyil, çox mühüm mənəvi keyfiyyətlər olan mərhəmət, rəhmdillik və s. tərbiyələndiririk, heyvanat aləmini qorumağı, onlara rəğbətlə, qayğı və sevgi ilə yanaşmağı öyrədirik.

***Suallar*:** 1. İnsanların həyatında inəyin tutduğu mövqe nədən ibarətdir? 2. İnəklər harada otlayırlar? 3. Ailələrdə inəkləri nə ilə qidalandırırlar? İnəkdən hansı məhsullar əldə olunur?

***Maral*** – təbiətin möcüzəsi, gözəllik mücəssəməsidir. Qadınları, qızları əzizləyəndə çox zaman onlara “maral duruşlu”, “maral baxışlı” deyirlər. Maral meşədə yaşayır. Qoruqlarda mühafizə olunur, zooparklarda olur. Uşaqlar məhz zooparkda maral görə, filmlərdə, televiziya və şəkillərdə ona baxa bilərlər.

***Suallar*:** 1. Qadınları, qızları əzizləyəndə nə üçün onlara “maral duruşlu”, “maral baxışlı” deyirlər? 2. Marallar, adətən harada məskən salırlar?

***Ceyranlar*.** Kiçikyaşlı məktəblilərin Azərbaycanda məskunlaşmış ceyranlar haqqında da məlumata yiyələnmələri məqsədəuyğun sayılır. Bu barədə onlara ya müəllim məlumat verir, ya da onlar müstəqil yolla, özünütəhsil əsasında zəruri biliklərə sahiblənirdilər. Həm də sorğulardan, söhbətlərdən görünür ki,

şagirdlər ceyranları sevir, onları təbiətin gözəl əsəri hesab edirlər. Məktəblilər ceyranı şəkillərdə, filmlərdə, internet səhifələrində, yaxud zooparkda görmüşlər. Məlum oldu ki, bəzi şagirdlər heç zooparkda da olmamışdır. Odur ki, zəruri məlumata ehtiyac duyurlar. Onlar aşağıdakı mətnlə tanış olurlar:

*Ceyranlar* barəsində müvafiq təsəvvürün yaradılması məktəblilərdə bitki və heyvanat aləminə, təbiətə qayğı ilə yanaşmaq kimi mühüm davranış təcrübəsinin formalaşdı-rılmasına imkan verir. Digər məməlilərlə müqayisədə təbiətin bu gözəl incisi Yer üzündə çox azdır. Ötən əsrin ortalarına kimi respublikamızın ərazisində lazın olduğu qədər ceyran vardısa, XX əsrin 60-cı illərdən sonra onların sayı azalmağa başladı.



Bir vaxtlar insanlar ceyranları hədəf almışdılar. Ceyran ovuna çıxırdılar. Odur ki, təbiətin Azərbaycan faunasının qiymətli nümayəndəsi ceyranların nəsli kəsilməyə başladı. Naxçıvan meşələrində də ceyranların sayı azdır.

İndi Şirvan milli parkında ceyran ailələri xüsusi mühafizə olunmaqdadır.

Ceyranlar həm təbiətə, həm də məişətə dəyərli məhsullar verirlər. Belə ki, onların göbəklərində ətirli maddələr meydana gəlir. Ceyranlar ətirli maddəni daşlara, sal qayalara, sərt maddələrə sürtərək göbəklərindən kənarlaşdırırlar. Keçmişlərdə

insanlar ceyranların göbəklərindən özlərindən kənarlaşdırdıqları maddəni axtararaq əldə edir, onlardan ətirlər və digər ətirli maddələr, dərmanlar hazırlayırdılar.

Bu maddə balaca palıd qozasına oxşayır. Həmin maddə adamlar tərəfindən "müşk" adlandırılmışlar.

Yaradıcı şəxslərin əsərlərində müşkün ətri Yer üzünün çox güclü və bənzərsiz ətri kimi tərənnüm olunmuşdur. Müşkün qoxusuna "müşki-ənbər" deyilmişdir. Beləliklə, təbiət ceyransız qalsaydı, bu kimi ətirli qoxulara və dərman pereparatlarına həsrət qalardılar.

Şagirdlərin gəldikləri nəticə: Odur ki, biz ceyranları da qorumalı, onlara qayğı göstərməliyik.

Ceyranlar eyni zamanda gözəllik rəmzi sayılırlar. İnsanlar ceyranları qorumaqla estetik gözəlliyi də, təbiəti də qoruyurlar.

Müəllim:

- Bu gün evlərdə, mənzillərdə, həyətyanı sahələrində itləri, pişikləri və başqa heyvanları saxlayan, onlara qulluq göstərən, istirahəti qayğısına qalan, gəzintilərini təşkil edən insanlar ceyranları da himayə etməlidirlər.

Ümumi nəticəyə gəlinir: kiçikyaşlı məktəblilərin ceyranlara aid yiyələndikləri maraqlı məlumatlar ekoloji aləmə, eyni zamanda ceyranlara qayğıkeş münasibəti aşılamaqla bağlıdır.

***Suallar və tapşırıqlar*****:** 1. Hansı ev heyvanlarını tanıyırsınız? 2. Hansı çöl heyvanlarını tanıyırsınız? 3. Hansı heyvana daha çox rəğbətiniz var? 4. Nə üçün? 5. Heyvanlara aid hansı şeiri bilirsiniz? 6. Heyvanlara aid hansı atalar sözlərini bilirsiniz? 7. Heyvanlara aid hansı yazıçının hekayəsini oxumusunuz? 8. Heyvanlara aid çoxlu nağıllar yazılmışdır. Həmin nağıllardan hansını xoşlayırsınız? 9. Ceyrana aid hansı şeiri səsləndirə bilərsiniz? 10. Nə üçün ceyranları ekoloji mühitin bəzəyi adlandırırlar? 11. Ceyranları necə qorumaq mümkündür? 12. Məişətdə və təbabətdə Müşkün rolu nədən ibarətdir?

***Canavar*** – vəhşi heyvandır, yırtıcıdır. Canavarlara Azərbaycanın müxtəlif ərazilərində rast gəlmək mümkündür. Dişi

canavarla müqayisədə erkək canavar daha iri gövdəlidir. Çəkisi 30–80 kiloqram çatır, bədəni haradasa 1-1,4 metr uzunluğunda, hündürlüyü isə, təxminən 1 metrə, quyruğu da 0,5% metrə yaxındır.

Canavar son dərəcə iti iybilmə qabiliyyətinə malikdir. Təxminən 1,5 kilometr məsafədən iyi duymağı bacarır. Səhralarda da, dağ yamaclarında da yaşayırlar. Xüsusilə gecə vaxtları ova çıxır. Müxtəlif heyvan və quşlarla, o cümlədən ev heyvanları və ev quşları ilə qidalanır. Qoyun sürülərinə basqın edir. Bir sıra hallarda ovunu ələ keçirməklə yanaşı, ziyankarlıq edir, bir neçə əlavə qoyunu, quzunu, keçini də boğaraq, bağırsağını dağıdaraq o şəkildə qoyub gedir. Gecə vaxtları həyətlərə soxulur, qoyundan-quzudan, ev quşlarından caynağına keçəni aparır. Bu onun yırtıcılığından, vəhşiliyindən irəli gəlir.

Gün ərzində qida norması 2-5 kiloqram ətdir. Ac olduqda bu norma 9-10 kiloqrama belə çata bilir. Onlar sürülərlə yaşamağa üstünlük verirlər. Hər sürünün öz başçısı olur. Sürülər, adətən 5-10 fərddən ibarət olur.

Canavarların və canavar ailələrinin özlərinə məxsus bəzi təqdirolunası xüsusiyyətləri vardır. Belə ki, canavar ailəsində doğulmuş balaya nəinki onun sahibləri, hətta digər canavarlar da qayğı göstərirlər. Canavar əgər ovsuz yuvasına qayıdırsa, bunu hiss edən qohum canavarlar bu ailəyə pay gətirirlər. Canavarlardan hər hansı biri qurulmuş tələyə düşdükdə digər canavarlar onu tələdən qurtarmağa çalışırlar.

Canavar 20 ilədək ömür sürür. 11-12 yaşındakı canavar artıq qocalmaqda olan vəhşi heyvan olaraq tanınır.

***Suallar*:** 1. Canavarlara respublikamızın hansı müxtəlif ərazilərində rast gəlmək olar? 2. Canavar təxminən neçə kilometr məsafədən iy duyma qabiliyyətinə malikdir? 3. Canavarın çəkili təxminən neçə kiloqramdır? 4. Canavar nə zaman ova çıxır?5. Canavar hansı heyvan və quşlarla qidalanır? 6. Canavar hansı ev heyvanları və ev quşları ilə qidalanır? 7. Canavarın

gün ərzində qida norması neçə kiloqram ətdir? 8. Canavar orta hesabla neçə il yaşayır?

***İlan*** – İlanlara hər bir qitədə rastlaşmaq olar. Deyilənə görə, ilanlar təkcə Antarktikada mövcud deyil. Deməli, müxtəlif növ ilanlara hər yerdə, hər bir qitədə rast gəlmək mümkündür. İlanların çənələri elastik quruluşludur. Odur ki, onlar hər hansı bir canlını uda bilir. İlanların bir çoxu zəhərlidir. Onlar ov ovlamaq, yaxud özlərini təhlükədən azad etmək üçün sancır və zəhər buraxır. İlanlardan zəhərsiz olanları da vardır. Bəs onlar necə qidalanırlar? Zəhərsiz ilanlar ovlamaq istədikləri canlıya dolanaraq onları boğmaq məcburiyyətində qalır.

İlanların qidası, adətən balıq, siçan, qurbağa, kərtənkələ, quş və s.-dır.

Çox zəhərli ilan Kral kobrası sayılır. Bu ilanın uzunluğu təxminən 5 metrdir. Həmin ilanlar 20 il ömür sürür. Ən uzun ilan torlu piton, çəkidə ən ağır ilan – anakondadır. Kral kobrasının uzunluğu 8 metr, anakondanın ağırlığı 200 kiloqramdır. Qəribədir, adları çəkilən bu nəhəng ilanlar zəhərsizdir.

Ölkəmizdə 27 növ ilanın olduğu müəyyən edilmişdir. Onların 16 – zəhəri olmayan, 5 yarızəhərli, 6 zəhərlidir.

Müəllim əvvəlcə zəhərsiz ilanları diqqət mərkəzinə gətirir: kor ilan, xaltalı eyrenis, nöqtəxətli eyrenis, Qərb yatağanı, qonur ilan, Xəzər təlxəsi/Sarıqarın təlxə, naxışlı təlxə, Cənubi Qafqaz təlxəsi, İran təlxəsi, qırmızıqarın/qızılı təlxə və ya şahmar ilan, zeytuni təlxə, qurğuşunrəngli təlxə, Pallas təlxəsi, Qarabaş rinxokalamus, adi suilanı.

Sonra yarızəhərli ilanlardan söz açılır: kələz ilan, bəzəkli rəngarəng təlxə, damalı su ilanı, oxvari qum ilanı, dam ilanı.

Nəhayət, müəllim zəhərli ilanlarla məktəbliləri tanış edir: nəhəng gürzə, Radde dağ gürzəsi, Şamaxı gürzəsi Şərq çöl gürzəsi, Qafqaz qalxansifəti, İran çöl gürzəsi, İrəvan çöl gürzəsi və s.

***Suallar və tapşırılar:*** 1. İlanlara hansı qitədə rast gəlmək mümkün deyil? 2. İlan insanı, digər canlını nə üçün sancır? 3.

İlanın qidası nədən ibarətdir? 4. Ən zəhərli ilan hansıdır? 5. Kral kobrası neçə il yaşayır? 6. Ən uzun ilan hansıdır? 7. Anakondanın ağırlığı neçə kiloqramdır? 8. İlanların qidası nədən ibarətdir? 9. Respublikamızda neçə növ ilan var? 10. Onların neçəsi zəhərsizdir? 11. Onların neçəsi yarızəhərlidir? 12. Onların neçəsi zəhərlidir? 13. Zəhərsiz ilanların adlarını deyin. 14. Yarızəhərli ilanları sayın. 15. Hansı ilanlar zəhərlidir?

***Balıqlar.*** Balıqların bir çoxu mövcudluğu dövründə qəlsəmələrlə, müəyyən hissəsi isə, atmosferin köməyilə hava alır. Onlar tənəffüsü suda həll olunan oksigenlə edirlər. Balıqlarda ağciyəri qəlsəmələr əvəzləyir. Balıqlar, adətən kürü tökməklə artır. Kürü elə sudaca mayalanır. Diri balıq doğan balıqlara da rast gəlinir. Belələrinin yumurta hüceyrəsi, bir qayda olaraq daxildə mayalanmış olur.

Balıqların su heyvanlarıdır. Su onların həyat mənbəyi sayılır. Balıqlar çaylarda, göllərdə, dəniz və okeanlarda məskən salırlar. Balıqlar hər suda yaşaya bilmir. Onların yaşam tərzi şirin, yaxud duzlu suyun hərarətindən, dərinliyindən xeyli dərəcədə asılıdır. Bundan başqa, balıqlara da basqılar olur. Bu da onların mövcudluğu üçün təhlükə yaradır. Mənbələrdə göstərildiyi kimi, balıqlar bir sıra ekoloji növləri əhatə edir. Həmin qruplar aşağıdakı şəkildə təsnif olunur: dəniz balıqları, keçici balıqlar, yarımkeçici balıqlar, şirin su balıqları. Bu və ya digər balıq qrupunun qidalandığı özünəməxsus mənbələr vardır.

Respublikamızda təxminən 112 növdən, eyni zamanda və yarımnövdən ibarət balıq mövcuddur. Bayramlarda, şənliklərdə Azərbaycan süfrələrini qızıl balıq, nərə balığı, kütüm, xəşəm, çəki və s. bu kimi qiymətli balıqlar bəzəyir.

Müəllim təlim xarakterli sinifdənxaric məşğələdə yuxarıda adları çəkilən balıqlar barədə şagirdlərə məlumat verir.

***Suallar*:** 1. Balıqları hava alması ilə bağlı nə deyə bilərsiniz? 2. Balıqlar tənəffüsü nəyin köməyi ilə əldə edirlər? 3. Balıqlar bir qayda olaraq necə artırlar? 4. Balıqlar hansı ekoloji

növləri əhatə edir? 5. Ölkəmizdə təxminən neçə növdən, və yarımnövdən ibarət balıq mövcuddur?

***İtlər.*** İti insanın vəfalı yoldaşı, dördayaqlı dostu hesab edirlər. Kənd yerlərində həyət-bacanı oğrudan, vəhşi heyvanlardan qorumaq üçün it (lər) saxlayırlar. İt üçün yuva quraşdırılır, vaxtlı-vaxtında yeməyini, suyunu verirlər.

Rayon mərkəzlərində, şəhər küçələrində bəzən yiyəsiz itlərə də rast gəlinir. Vaxtilə sahibsiz, ziyankar, quduz itləri güllə ilə vurar, qarşısına zəhərli nə isə atardılar. Hazırda dünyada heyvanlara münasibətdə humanist qaydalar hökm sürür. Heyvanlarla qəddarcasına rəftar etmək yolverilməzdir, onlar da qayğı ilə əhatə olunmalıdırlar.

Çobanlar qoyun sürüsü ilə yaylağa, qışlağa çıxanda özləri ilə çoban itləri aparırlar. Bu, sürünün rahatlığı, mühafizəsi üçün lazımdır. Çöldə qurd-quş çox olur. Vəhşi heyvanlar, o cümlədən canavar qoyun, quzu, keçi iyi alıb sürüyə basqın edə bilər. Bu zaman çoban itləri onlarla mübarizəyə girişirlər.

İtlərin iybilmə qabiliyyəti biz insanlardan yüz min dəfə güclüdür. Odur ki, təhlükəsizlik xidmətində, hərbdə, tibbdə, həmçinin təbii fəlakətlər zaman itlərin üstün qoxubilmə qabiliyyəti çox köməyə çatır. Elə itlər də vardır ki, onların qoxu həssaslığı insanlarla müqayisədə milyon dəfə artıqdır.

İt növləri çoxdur. İrili-xırdalı cins itlər vardır ki, onları baha qiymətə alır evlərdə, mənzillərdə saxlayır, onlara xüsusi xidmət göstərir, qulluğunda durur, davası-dərmanı qayğısına qalır, həkim müayinəsindən keçirir, çimdirirlər.

Belə deyir, belə danışırlar ki, bu və ya digər şəxsdə yüksək qan təzyiqi varsa, o, öz iti ilə danışsın, onu tumarlasın, əzizləsin, o dəqiqə qan təzyiqinizi aşağı düşəcək.

İnsanlarla müqayisədə itlərdə qoxu həssaslığı xeyli çoxdur. Onlar çox zəif iyi də çətinlik çəkmədən duyurlar.

Şagirdlərə belə bir məlumat çatdırıla bilər ki, itlər yüz əllidən artıq sözü anlayır, eyni zamanda beşə kimi saymağı ba-

carırlar. Ona görə də mütəxəssislər bu qərara gəlmişlər ki, itlər 2 yaşında uşağın zəkasına malikdirlər.

İnsanlar kimi itlərin də depressiyaya uğraması mümkündür.



İtlər heyvan və quşlara, o cümlədən insanlara baxmaqla onların nə etmək istədiklərini, başqa sözlə, hisslərini bilir. Bəzən insanlar qəfil qarşılarına çıxan, yaxud ümumiyyətlə, rast gəldikləri itləri qorxutmaq üçün yerə əyilirlər. Guya yerdən daş götürüb onu vuracaqlar (*və yaxud doğrudan da yerdən daş-kəsək götürüb itə atırlar)*. İt onların niyyətini başa düşüb qaçır.

İnsanlar kimi hər bir it sevdiklərindən ötrü qüssələnir, dilxor olur, darıxırlar. Eyni zamanda onlar da bir-birinə eşq elan edirlər.

***Suallar*:** 1. Nəyə görə itə insanın dördayaqlı dostu deyilir? 2. Ailələr öz həyət-bacalarında nə üçün it saxlayırlar? 3. İtin ailəyə nə xeyri var? 4. Çobanlar qoyun sürüsü ilə yaylağa, qışlağa çıxanda özləri ilə nə üçün çoban itləri aparırlar? 5. İtlərin iybilmə qabiliyyəti barədə nə deyə bilərsiniz? 6. İtlərin üstün qoxubilmə qabiliyyətindən harada istifadə olunur? 7. İtlər neçə yaşlı uşağın zəkasına malikdirlər? 8. İtlər neçə sözü anlaya bilir? 9. İtlər neçəyə kimi saymağı bacarırlar.?

***Pişik*** – ev heyvanıdır. Xüsusən uşaqlar pişikləri sevir, onlarla oynamaqdan, əylənməkdən yorulub usanmırlar. Pişiklər də itlər kimi insanların dostudur. Onlar da uşaqları sevir, onlarla oynamağı xoşlayırlar. Pişiklər ətrafda qorxu hiss etdikdə,

itlər onları qabağına qatıb qovduqda tez insanlara yaxınlaşırlar. Bilirlər ki, onların əhatəsində onlara zaval yoxdur. Mağazalarda xüsusi pişik yeməkləri satılır. Mənzillərində, həyətlərində pişik saxlayanlar həmin yeməklərdən alır, pişiklərin qidadan korluq çəkmələrinə imkan vermirlər. Deyilənə görə, ev pişiyi ailə üzvlərindən birinə öz mehrini salır. Onunla son dərəcə səmimi münasibətdə olur. Həmin şəxs ağır xəstələndikdə pişik ondan aralanmır. Belə deyirlər ki, o adamın ağrısını öz üzərinə götürür, hətta bu səbəbdən ölür də.



Şagirdlər öyrənirlər ki, hər bir pişik 230 sümüyə malikdir. Ağırlığı haradasa 2.7-4.5 kq olur. Ev pişikləri qısa tüklüdür. Adətən pişiyin üst çənəsində 16, alt çənəsində 14 diş vardır.

Pişiklərin qidalanmasına fikir vermək lazımdır. Çünki onlara sarımsaq, soğan, üzüm, çiy ət, çiy yumurta, şokolad, sümük, çiy xəmir, qəhvə, alkoqol, süd və süd məhsulları, it yeməyi verilməməlidir.

Pişiklərə südün verilməsi heç məsləhət deyil. Ona görə ki, süddə olan şəkər pişiklər üçün son dərəcə zərərlidir.

Təxminən 70-ə yaxın pişik cinsi mövcuddur. Pişiklər yalnız insanlara miyoldayırlar. Onlar miyoldamaqla insanlar ilə ünsiyyət qururlar. Pişiklərin musiqidən xoşları gəlmir.

Onların toxunma səs eşitmə hissləri son dərəcə itidir. Pişiyin qulaqları saniyədə 25.000-ə çatan səs üstü tezliklərə həssas olur.

***Suallar və tapşırıq*:** 1. Pişiklər təhlükə hiss etdikdə nə üçün tez insanların olduğu yerə yaxınlaşır? 2. Pişiyi təsvir etməyə çalsın. 3. Deyilənə görə, pişik ailə üzvlərindən birinə öz mehrini salır. Onun həmin şəxsəköməyi nədən ibarət olur? 4. Pişiklərə hansı qida məhsullarını vermək olmaz? 5. İndiyə kimi neçə pişik növü məlumdur?

***Qartal*** – yırtıcı quşdur. Onun bədəninin uzunluğu az qala bir metrə çatır. Qanadları açılmış vəziyyətdə qanadının uzunluğu 2 metrdən çoxdur. Tüklü ayaqları var. Qartal əsasən dağları və meşələri özünə məskən seçmişdir. Özü üçün əlçatmaz yuva qurur. Çox ağır yük qaldırma qabiliyyətinə malikdir. Qoyunu, keçini, quzunu, təxminən yüz kiloqrama qədər çəkisi olan digər canlıları caynağına alaraq asanlıqla havaya qaldıra bilir.

Qartal sümüklərinin içi, adətən boş olur. Odur ki, sümüklər xeyli yüngüldür. Onun skleti vur-tut 300 qrama yaxındır. Bu isə qartala havada çox yaxşı uçmağa, havada covlan vurmağa, aşağıya – ovunun üstünə dərhal şığımağa imkan verir.

***Suallar və tapşırıq:*** 1. Qartal necə quşdur? 2. Qartalın görünüşünü təsvir edin. 3. Qartalın bədəninin uzunluğu neçə metrə çatı? 4. Qanadları açılmış vəziyyətdə qartalın qanadlarının uzunluğu neçə metr olar? 5. Qartalın gücü, qüvvəti, ağırlıq qaldıra bilmək bacarığı haqda nə deyə bilərsiniz?

***Qaranquş*** – köçəri quş hesab edilir. Onun növü 4-dür. Həmin növlərin adlandırılması belədir: dağ qaranquşu, kənd qaranquşu, sahil qaranquşu, şəhər qaranquşu. Qaranquşlar öz yuvalarını qayalarda, dağ çayları dərələrində, daşdan olan tikililərdə, insanların yaşadıqları yerlərdə qururlar. Qaranquşların uçuşu sürətlidir. Günü-güzəranı, əsasən havada keçir. Boyları qısa, özləri kiçik, qurduqları haçalıdır. Dişi qaranquşlar il ərzində 2-3 dəfə yumurtlayır. Bu quşun qanadları iti və həm də

uzun, dimdiyi qısa, eyni zamanda genişdir. Qidası həşəratlardır.

***Suallar*****:** 1. Qaranquş neçə quşdur? 2. Qaranquş neçə növdən ibarətdir? 3. Həmin növlər necə adlanır? 4. Qaranquşlar öz yuvalarını harada qururlar? 5. Qaranquş hansı fəslin gəldiyini xəbər verir?

***Göyərçin*** - ağ, qara və s. rənglərdə olur. Dünyada sülh quşu kimi tanınır, sülhün rəmzi sayılır. 300-dən çox növə malikdir. Uçuşu iti və sürətli, qanadları orta uzunluqda olur. Göyərçinin qidası meyvələr, dənəli, yaxud tumlu toxumlardır.

**Suallar:** 1. Göyərçin hansı rənglərdə olur? 2. Göyərçini nə quşu adlandırırlar? 3. Göyərçinin neçə növü vardır? 4. Göyərçin nə ilə qidalanır?

***Xəşəm* -** başlıca olaraq Xəzər dənizində məskən salmışdır. Keçici balıq sayılır. 5-6 yaşlarında olarkən cinsi yetişkənliyə qovuşur. Bundan sonra çoxalmaq üçün Kür çayına, eyni zamanda Qızılağac körfəzinə keçid edir. Aprel ayında kürü verir. Bu məqsədlə suyun temperaturu 14 C olduqda öz kürüsünü xırda daşların üzərinə tökür. Mənbələrdə qeyd edildiyi kimi, dişi balıq 46,8 mindən 342 min ədədədək kürü hasil edir.

***Suallar*****:** 1. Xəşəm harada məskən salıb? 2. Xəşəm çoxalmaq üçün hansı sulara keçir? 3. Xəşəm balığı nə zaman kürü verir? 4. Dişi xəşəm balığı nə qədər miqdarda kürü hasil edir?

***Kütüm*** – Xəzər dənizi balığıdır. Duzlu və az duzlu suyu xoşlayır. Bu balığın əti də, kürüsü də, ətindən hazırlanmış ləvəngi də çox sevilir və dadlı olur. Kütümü duzlayıb (şor balıq) saxlayırlar. Yayın qızmar çağında qarpızla, üzümlə ləzzətlə yeyilir.

Sümüklüdür. Yeyərkən ehtiyatlı olmaq lazımdır ki, sümüyü boğazda qalmasın.

Erkəklər – 3, dişilər isə 4 yaşında cinsi yetişkənliyə qovuşurlar. Artmaq üçün çaylara (Kür, Lənkərançay, Samurçay və s.) doğru yönələrək kürü tökürlər.

Mənbələrdə göstərildiyi kimi, Kütüm balığının cənuba artımı, bir qayda olaraq mart ayının ilk günlərində, suyun hərarəti 9-12 C olduğu zaman baş verir, kürü tökmə aprel ayının sonlarınadək davam edir. Tutulan Kütümün uzunluğu 49-62 sm, kürü məhsuldarlığı isə, təxmini 101,3 min ədəd olur.

***Suallar*:** 1. Kütüm balığının məskəni əsasən haradır? 2. Kütüm balığının ətindən hansı yeməklər hazırlanır? 3. Sudan tutulan kütümün uzunluğu nə qədər olur?

***Nərə balığı*** – səyahəti sevən balıqdır. Bir məkanda qərar tutmaqla arası yoxdur. Dəqiq ünvanı bilinmir. Dəniz və çaylarda gəzib dolaşır. Gah Kür çayında, gah Volqa çayında olur, gəlib Xəzər dənizə çıxır, oradan da yenə Kürə, yenə Volqaya. Körpəlik illəri ona çaylarda təsadüf olunsa da, buralarda kürülərdən çıxsalar da, böyüsələr də, yerini dəyişir, Xəzərdə tora düşür. Dünya üzrə nərə balıq ehtiyatının 80%-i Xəzər dənizində yerləşir.

Nərə balığı cücülər, xərçəng, sürfələr, balıqlarla qidalanır. Nərə balığının uzunluğu təxminən 2,5-3 metrə, çəkisi də 200 kiloqram olur.

Nərə balığı son dərəcə qiymətli balıq növüdür. Dünya bazarında əri və qara kürüsü çox baha qiymətə satılır. Bizdə və xaricdə restoranlarda nərə balıq kababı verilir.

Müəllim şagirdlərə müraciətlə deyir:

- Təəssüf ki, son 15-20 ildə nərə balığının sayı azalmaqdadır. Bunun bir çox səbəbləri vardır. Əvvəla, Xəzər dənizinin çirklənməyə məruz qalması. İkincisi, qanunsuz nərə balıq ovu. Üçüncüsü, respublikada balıqçılıqla bağlı zəruri tənzimlə sisteminin bərqərar olmaması, budan Xəzər dənizindəki nərə balıqlarının da ziyan çəkməsi və s. və i.a.

***Suallar*:** 1. Nərə balığı nəyi xoşlayır? 2. Dünya üzrə nərə balıq ehtiyatının neçə %-i Xəzər dənizində yerləşir? 3. Son 15-20 ildə nərə balığının sayı azalır. Bunun səbəblərini deyə bilərsinizmi?

***Qızıl balıqlar*** – soyuq suyu xoşladıqlarından Yer üzünün şimal zonalarında məskən salmaqdadır. Nəsli təhlükə altındadır. Getdikcə sayı azalmaqdadır. Çox qiymətli balıq növüdür. Adı (qızıl) kimi özü də qızıl dəyərlidir. Yəni öz adını doğruldur. Dünyada onların çoxsaylı növü məlumdur. Xəzər dənizində iki növü mövcuddur: Xəzər qızılbalığı və ağ qızıl Xəzər qızılbalığı. Ətinin keyfiyyətinin yüksək olması, tez böyüyüb boy atması və ölçüsü nöqteyi-nəzərindən ilk yerə sahiblənib. Fəqət sayı azdır.

Qızılbalıqların həyat tərzi son dərəcə qibtə doğurucudur. Onların bədənlərinin rəngi tez-tez dəyişir. Çoxalmaq üçün dənizdən çaylara keçərkən təxminən 10 min km məsafə üzməli olurlar.

***Suallar və tapşırıq*:** 1. Qızılbalıq isti, yoxsa soyuq suyu xoşlayır? 2. Qızılbalıq, adətən harada məskən salır? 3. Xəzər dənizində qızılbalığın neçə növü mövcuddur? 4. Həmin növləri sadalayın. 5. Qızılbalıqların həyat tərzi barədə nə deyə bilərsiniz?

***Qızılgül*** – güllərin şahıdır. Bayramlarda, ad günlərində, toy məclislərində insanlar, sevgililər bir-birlərinə qızılgül təqdim edir, sevinclərini bir-birlərinə çatdırırlar. Qızılgül evləri bəzəyir, ətri gözəldir, özü qəşəngdir, göz oxşayır, mənzilə, məclislərə yaraşıq verir. Qızılgül kolunun hündürlüyü haradasa 1,5-2,0 metr olur. Gövdəsi yaşıl, yaxud qırmızı-yaşıl tikanlıdır. Çiçəyi 100-ə qədər ləçəyi əhatə edir. Qızılgülün 300-ə yaxın növü, 3 min sortu mövcuddur. Həmin növlərdən biri olan efiryağlı qızılgül əlli ilə qədər yaşaya bilir.

Qızılgül ləçəyindən ətir, mürəbbə, yağ hazırlanır. 1 kiloqram qızılgül yağı əldə etmək üçün 4 ton ləçək lazındır. Bu yağın qiyməti az qala 10 min dollara çatır.

Yer üzündə zanbağın 240 cinsinə və 4000 növünə rast gəlmək mümkündür.

***Suallar*:** 1. Qızılgül kolunun hündürlüyü neçə metr olur? 2. Siz hansı gülü daha çox xoşlayırsınız? 3. Siz qızılgülü xoşlayırsınız? 4. Qızılgülün neçə növü vardır?

***Zanbaq gülü***. Qızılgül kimi zanbaq da bayramların, ad günlərinin, toyların bəzəyidir. Zanbaq gülünün adı "türban" mənasına verən fars sözü "toliban"dan alınmışdır. Bu, təsadüfi deyildir. Zanbaq gülünün qönçəsi baş örtüyünə oxşayır. Onun vətəni İran hesab edilir.

Zanbaq göy və qara, hamar və çoxləçəkli, iri və kiçik, alçaq boylu olur. Onun təxminən 3 metr hündürlüyə çatan növlərinə də rast gəlmək mümkündür.

Zanbaq İrandan Türkiyəyə aparılıb, lalə adlandırılıb. Deyilənə görə, Türk sultanının bağ-bağçasında yaz aylarında haradasa 500 min zanbaq çiçək açarmış. Hər il zanbaq gülü ilə bağlı bayram mərasimləri təşkil olunurmuş.

Hazırda da yaz girəndə İstanbul şəhərinin Əmirgan parkında zanbaq (lalə) festivalı olur.

Zanbaq bütün dünyada yayılmışdır, sevilir. İndi Yer üzündə zanbaqların 2500-dən çox növü var.



***Suallar*: 1.** Zanbaq gülünün adı hansı sözdən götürülmüşdür? 2. Zanbaq gülünün qönçəsi nəyi xatırladır? 3. Zanbaq gülü hansı rənglərdə olur? 4. Türkiyə sultanının zanbağa münasibəti

necə olub? 5. Türk sultanının bağında neçə min zanbaq çiçək açarmış? 6. Hazırda yaz ayında Türkiyənin hansı ərazisində zanbaq (lalə) festivalı keçirilir? 7. Yer üzündə zanbağın neçə növü var?

**Qərənfil gülü.** Gül-çiçəklər arasında Qərənfil gülünün həmişə öz ad-sanı, şöhrəti olub. Qızılgül, Ətirşah, Zanbaq, Lalə... kimi. Bayram günlərində, təntənəli mərasimlərdə digər qiymətli, gözəl güllər kimi Qərənfildən də dəstək bağlayıb, çələng bağlayıb təqdim edərdilər. 8 Mart – Qadınlar günündə xanımlara qərənfillər verər, onları təbrik edərdilər.

Qərənfil müxtəlif rənglərdə olur: ağ, qırmızı, çəhrayı, sarı, çəhrayı kantlı və s.

Qərənfil ilin bütün fəsillərində olur. Əkilib bitdiyi kimi, istixanalarda da yetişdirilir. Bakıda qərənfil gülçülükləri mövcuddur. Məsələn, Nardaran gülçülüyü.

Rəngindən asılı olaraq bu gülün mənası var. Belə ki, qırmızı qərənfil qızılgül kimi – eşq və sevgidən, çəhrayı qərənfil məsumluq, həssaslıq və məhəbbətdən, ağ qərənfil - təmizlik və saflıqdan xəbər verir.

Sevgi, məhəbbət, eşq, məsumluq, saflıq rəmzi olan qərənfil ölkəmizdə birdən-birə göz yaşlarına büründü. Sevinci, xoşbəxtliyi, bəxtiyarlığı, xoş müjdəsi yoxa çıxdı. Həmin vaxtdan nə az, nə çox, düz 35 il ötür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Qırmızı ordu dəstələri tanklarla, zirehli texnika ilə Bakıya soxuldular. Erməni özbaşınalığına, vəhşiliyinə, torpaq iddiasına göz yuman Sovet rejiminə qarşı azadlıq səsinə qaldıran dinc sakinlər güllələbaran elədilər. Neçə yüz Azərbaycan vətəndaşı öldürüldü, yüzlərlə şəxs itkin düşdü. Gül yetişdirənlər qərənfil güllərini gətirib küçələrdə iz buraxmış qan ləkələrinin üzərinə düzdülər. Bakıda, rayon və şəhərlərdə "Şəhidlər xiyaban"ları salındı. Şəhid məzarlarını, xiyabanları qərənfillər bəzədi. Həmin gündən respublikamızda qərənfil matəm gülü elan olundu.

30 ildən çoxdur ki, ad günlərində, bayramlarda, toyda insanlar daha qərənfillə bir-birlərini təbrik etmirlər. Rəhmətə getmiş əzizlərini, 20 yanvar şəhidlərini, Qarabağ müharibəsində həlak olanları ziyarət edəndə qərənfil gülündən istifadə edirlər.

Bu məlumatı kiçikyaşlı məktəblilərə çatdıran müəllim daha sonra onları Z. Kazımova “Bir gülün dəyişən taleyi: Qərənfil gülü” hekayəti ilə tanış edirlər. Həmin tanışlıqdan sonra şagirdlərə suallar verilir.



***Suallar və tapşırıq***: 1. Bu hekayənin müəllifi kimdir? (*Zeynəb Kazımova*). 2. Baba hər il yanvarın 19-da Zərifəni hara aparırdı? (*Şəhidlər xiyabanına*). 3. Baba gül mağazasına yaxınlaşıb hansı güldən aldı? (*Qərənfil gülündən*). 4. Şəhidlər xiyabanına yaxınlaşanda baba adəti üzrə nəvəsinə neçə dənə gül verirdi? (2 gül). 5. Baba Zərifəyə nə üçün 3, 5 gül deyil, 2 gül verirdi? Yəni tək yox, həmişə cüt gül verirdi? (*ad günlərində, toylarda, bayramlarda verilən güllər, adətən tək olur, matəm mərasimlərində verilən güllər isə, cüt*). 5. Baba Zərifənin “Nə üçün biz həmişə bu güldən alıb gətiririk. Niyə başqa güllərdən almırıq?” – sualına baba nə cavab verdi? (*baba qanlı, qara yanvarı yada salır*). 6. Hekayədə göstərildiyi kimi, Zərifə ayaq saxlayıb məzar daşında öz əksini tapmış Fərizə ilə İlhamın

şəklinə baxdı. Onlar kim idi? (*onlar ər-arvad idilər. Toyları təzə olmuşdu. İlhamın şəhid olduğunu eşidən Fərizə də özünə qəsd edir. Ulu eşqin təntənəsi*). 7. Qərənfil əvvəlki on illiklərdən fərqli olaraq daha sevinci, şadlığı deyil bəs nəyi ifadə edir? (*kədəri, hüznü*).

***Təbiət qoruqları*** - nadir və səciyyəvi təbiət kompleks və obyektlərini təbii şəkildə mühafizə etmək üçün meydana gətirilən təbiət mühafizə və elmi müəssisə (təşkilat) hüququ daşıyan ərazilərdir. Dövlət təbiət qoruqları torpaqlarından, həmçinin onun hüdudlarındakı bitki və heyvanlardan, sudan təsərrüfat məqsədləri baxımından faydalanmaq qəti qadağandır.

Göy-göl Dövlət Təbiət Qoruğu ölkəmizdə birinci qoruqdur. O, 1925-ci ildə formalaşdırılıb.

Hazırda respublikamızda Şirvan Dövlət Təbiət Qoruğu, Türyançay Dövlət Təbiət Qoruğu, Eldar şamı Dövlət Təbiət Qoruğu, İlisu Dövlət Təbiət Qoruğu, Qarayazı Dövlət Təbiət Qoruğu, Korçay Dövlət Təbiət Qoruğu, Bəsitçay Dövlət Təbiət Qoruğu, Zaqatala Dövlət Təbiət Qoruğu, Altıağac Dövlət Təbiət Qoruğu, Qaragöl Dövlət Təbiət Qoruğu, Şahbuz Dövlət Təbiət Qoruğu, Palçıq vulkanları quru Dövlət Təbiət Qoruğu, Pirqulu Dövlət Təbiət Qoruğu, İsmayıllı Dövlət Təbiət Qoruğu fəaliyyət göstərir.

Müəllim həmin qoruqlardan biri - Şirvan Dövlət Təbiət Qoruğu barədə şagirdlərdə təsəvvür yaradır. Göstərir ki, bu qoruq Kür-Araz ovalığının cənub-şərqi Şirvan düzənliyində özünə yer tutmuşdur. Ötən əsrin altmışıncı illərində Kür-Araz ovalığının bu hissəsində 77 baş ceyran vardı. 1969-cu ildə ceyranların sayı 400 başa çatdı.

Qazanılmış uğur dəyərləndirildi. Azərbaycan hökuməti 17700 min hektar ərazidə Şirvan Dövlət Təbiət Qoruğunu yaratdı. Sonralar qoruğun sahəsi genişləndirildi və 25761 hektar oldu.



İndi qoruğun sahəsi 4657 hektardır. Bu yerlər dəniz səviyyəsindən aşağıdadır.

Vaxtlar olub ki, qoruğun ərazisi Xəzərin suları altında qalıb. Dənizin səviyyəsinin aşağı düşməsi ilə bağlı sahə həm dəniz, qismən sel çöküntüləri səbəbindən qup-quru olub.

Şirvan Dövlət Təbiət Qoruğunun meydana gətirilməsi ona görə vacib idi ki, ölkəmizin "Qırmızı kitab"ına daxil edilmiş ceyranların, həmçinin başqa fauna növlərinin qorunmasına və bərpasına nail olmaq planlaşdırılmışdı.

Şirvan Dövlət Təbiət Qoruğunda ceyran, dovşan, porsuq qunduz, çaqqal, canavar, tülkü, Xəzər suitisi, çöl donuzu və s. heyvanlara, oturaq və köçəri quşlara rast gəlmək mümkündür. Burada qızıl qaz, qu quşu, turac, Quba qazı, boz qaz, boz ördək, qızılbaş ördək, enliburun ördək, bizquyruq ördək, dovdaq, anqut, qaşqaldaq, bəzgək, böyük ağ vağ, kiçik ağ vağ, boz vağ, sarı vağ və s. çoxdur.

Şirvan Dövlət Təbiət Qoruğunda ölkəmizin "Qırmızı Kitabı"na salınmış qızılqaz, qara leylək, soltan toyuğu, fısıldayan qu, çəhrayı qutan, bəzgək, dovdaq, ərsindimdik, qırmızıdöş qaz, kiçik qu kimi köçəri quşlar qorunmaqda və çoxaldılmaqdadır. Burada saysız-hesabsız sürünənlərə, suda-quruda yaşayanlara, məməlilərlə rastlaşmaq mümkündür.

Şirvan Dövlət Təbiət Qoruğunun torpaqlarında bir sıra bitkilər mövcuddur. Həmin bitkilərə şoranotlu yarımsəhra, yovşanlı yarımsəhra, yovşan-şoranotlu yarımsəhra, qumluq, səhra, çəmən-çala bitkiləri aiddir.

***Suallar*:** 1. Dövlət təbiət qoruqları torpaqlarından, həmçinin onun hüdudlarındakı bitki və heyvanlardan, sudan təsərrüfat məqsədləri baxımından istifadə etmək olarmı? 2. Hansı Dövlət Təbiət Qoruğu ölkəmizdə birinci qoruqdur? 3. Hazırda ölkəmizdə hansı qoruqlar vardır? Sadalayın. 4. Şirvan Dövlət Təbiət Qoruğu harada yerləşir?

Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələdə qeyd olunur: Azərbaycanın təbiəti gözəldir. Dünyada on bir iqlim qurşağı var, onun doqquzu respublikamızdadır. Təbiətin gözəl olmağı o demək deyil ki, yalnız bu gözəlliklərdən faydalanasan, nemətlərindən bəhrələnəsən. Bu gözəlliyi qorumaq, zənginləşdirmək lazımdır. Bu özü Vətən, yurd sevgisi, ekoloji mühitin saflaşdırılması qayğısına qalmaq deməkdir.

Müəllim şagirdlərə müraciətlə soruşa bilər:

- "Bu gözəlliyi qorumaq, zənginləşdirmək lazımdır", - deyirik. Bunu necə başa düşmək lazımdır.

Şagird: - Bizim hər birimiz yaşıllaşdırma hərəkatına qoşulmalıyıq. Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban xanım Əliyeva, Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq kampaniyasının (İDEA) sədri Leyla xanım Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə hər il ölkəmizdə ağacəkmə aksiyaları həyata keçirilir, minlərlə ağac basdırılır, onlara qulluq göstərilməsi təmin olunur. Belə ki, 2024-cü ilin oktyabr ayının 29-da Xətai rayonunda, "Gənclik" parkında belə bir tədbir təşkil edilmişdi. Beləliklə, Heydər Əliyevin adını daşıyan Fondun "Regional İnkişaf İctimai Birliyinin və "İDE" könüllülərinin, eləcə də Avropa Azərbaycan Məktəbi şagirdlərinin fəal iştirakı ilə 600 ədəd Eldar şamı əkilmişdir.

Bunu da qeyd etmək lazımdır ki, son zamanlar respublikamızda yaşıllaşdırma və abadlaşdırma işləri geniş vüsət almış, ağacların qanunsuz kəsilməsi, onların tərk edilməsi, budağının sındırılması və s. bu kimi hallar çox azalmışdır. Təbiətin qorunması xüsusi nəzarət altındadır. Bu, çox yaxşı haldır. Ekoloji problemlərin qarşının alınmasının vasitələrindən biri kimi özünü göstərir.

Leyla Əliyevanın rəhbərliyi ilə IDEA İctimai Birliyinin üzvləri Bakıda qanunsuz ağac kəsilməsi hallarının qarşısını almaqdadırlar. Bakı şəhərində, digər şəhər və rayonlarımızda yüzlərlə, minlərlə yeni ağaclar əkilir. IDEA İctimai Birliyi ağacəkmə mərasimlərini genişləndirməklə Azərbaycanın florasının, təbiətinin qorunmasının zəruriliyini vətəndaşlara, o cümlədən yeniyetmə və gənclərə çatdırır. Beləliklə, insanlar ekoloji problemlərə, ekoloji böhrana qarşı birgə mübarizəyə çağırış edir

Şagird: - Belə aksiyalarda bizim hər birimiz də yaxından iştirak etməliyik.

Şagird: - Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır. Əcnəbiləri ölkəmizə cəlb edən Azərbaycanın qədim tarixə malik olması, abidələrinin qədimiliyi, maddi və mənəvi sərvətlərinin bolluğu, təbiətinin gözəlliyi, florası və faunası, incəsənəti, mədəniyyəti, mətbəxinin zənginliyi, xalqımızın qonaqpərvərliyi, insanlarının mehribanlığı, respublikamızda hökm sürən tolerantlıq mühiti, xalqların, millətlərin burada qaynayıb-qarışması, dost və qardaş münasibətində olmasıdır.

Təlim xarakterli sinifdənxaric işin bu şəkildə aparılması kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına rəğbət və məhəbbətin inkişafına, təbiətə qayğı ilə yanaşmanı formalaşdırmaq üçün geniş imkanlar açır.

Məşğələdə ağaclar barədə məlumatın verilməsi də diqqət mərkəzində dayanır. Yaşıllıqları yaradan, yaşıllıqların mənbəyi məhz ağaclardır. Müxtəlif ağaclar. Meyvə ağacları, giləmeyvə kollarıdır. Ağaclara sevgidəndir ki, onlara xas bəzi əlamətləri

insanlara da şamil edirlər. Düz qamətli, uca boylu, dik yerişli kişilərə "sərv boylu" deyirlər. Məlum olduğu kimi, sərv ağacı son dərəcə hündür olur, əyilmədən uzanıb göylərə meydan oxuyur. Yaxud insanlar çinarlarla müqayisə edilir. Deyirlər: "Gəldi bizə bir qoca, boyu *çinardan* uca".

Ataların belə məsəli var: "Bağa baxarsan bağ olar, baxmazsan – dağ olar". Bağda, bağçada, parklarda ağacların olması hələ o deməк deyildir ki, hər şey qaydasındadır: Meyvə ağacının meyvəsindən faydalanacaqsınız,. həmişəyaşar ağacların kölgəsində dincələcəksiniz". Ağaclara qulluq lazımdır. Vaxtlı-vaxtında dibi bellənməli, torpaq şumlanmalı, sulanmalı, dərmanlanmalıdır.

Məşğələdə Məhəmməd Füzulinin "Meyvələrin söhbəti" poeması yada salınır. Adı çəkilən əsərində 40-dan çox meyvə ağacının adı çəkilir.

Xalqımız əməyi çox sevir, əməklə ülfət bağlamağı, bağ-bağçada işləməyi çox xoşlayır. Təmiz hava, ailəni ruzisi, dolanışığı, sağlamlığı üçün müxtəlif meyvə ağacı - alma, armud, gilas, heyva, üzüm, albalı, şaftalı, alça, göyəm, gavalı, əncir, ərik, əzgil, nar ağacı yetişdirir.

Təlim xarakterli sinifdənxaric məşğələlərdə giləmeyvələr barədə məlumatın şagirdlərə çatdırılması da məsləhətdir. Giləmeyvələr təbiətin ən gözəl nemətlərindəndir.

Şagirdlərə giləmeyvə bitkilərinin adlarını çəkməyi tapşırılır. Onlar sayırlar: moruq, böyürtkən, çiyələk, kivi, çaytikanı, qarağat. Qarağat qırmızı, qara və ağ rəngdə olur.

Müəllim: - Daha hansı giləmeyvələr var.

O, məktəblilərin dayanıb durduqlarını görüb:

- Cır mərsin, firəngüzümü, qış armudu, qaragilə də giləmeyvələrdir, - deyir.

Giləmeyvələrin bir qismi (*qarağat, kivi, çiyələk, böyürtkən, moruq və s.)* becərilir; bir qismi isə (qaragilə, mərcangilə, mərcanı və s.) yabanı şəkildə dağlarda, meşələrdə və çöllərdə bitir.

Giləmeyvə mürəbbələri soyuqdəymənin ən yaxşı dərmanıdır. Giləmeyvələr həm yeyilir, həm də onlardan cem, mürəbbə kompot, şirə və s. düzəldilir.

Giləmeyvələrin tərkibi üzvi turşular, vitaminlər və s. zəngindir.

Ağaclar arasında qoz, fındıq, şabalıd ağacları əhəmiyyətinə və faydalılığına görə son dərəcə önəmlidir. Onlar təbiətdə olan zəhərli maddələri udaraq havanı təmizləyir. Bu ağaclar ekoloji tarazlığı saxlamağa kömək göstərməklə yanaşı orqanizmini möhkəmləndirən, ürəyin səmərəli fəaliyyətini təmin edən vasitə rolunu oynayır.

Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric tədbirlərdə yazıçı Akif Abbasovun "*Xallı kəpənək*" hekayəsi ilə tanış olmaq da məsləhətdir.

## Akif Abbasov
## Xallı kəpənək *(hekayə)*

*Yayın qızmar günləri idi. Həmişəyaşıl ağacların kölgəsi adamı istinin təsirindən qoruyurdu. Bağçaya bir sərinlik çökmüşdü. Quşların cəh-cəhi eşidilirdi.*

*Bayaqdan dil boğaza qoymayan Ülkünün indi nədənsə səsi gəlmirdi. Atatürk qəzeti bir kənara qoyub ətrafa boylandı. Ülkünün başa nəyəsə qarışmışdı. Əlində tutduğu stəkana diqqətlə baxır, sevincək atılıb-düşürdü. O, Atatürkün qəzetdən ayrıldığını görüb:*

*- Atatürkcüyüm, bir gör nəyim var!*

*Ülkü yaxın gəldi. Stəkandakı xallı kəpənək idi:*

*- Atatürkcüyüm, bir gör nə qəşəngdir!*

*Atatürk qaşlarını çatdı:*

*- Onu niyə tutmusan?*

*Ülkü şən səslə dilləndi:*

*- Onunla oynayacağam. Gör nə gözəldir!*

*- Qızım, kəpənək bağda, bağçada gəzib-dolaşanda, çiçəkdən-çiçəyə qonanda daha gözəl görünür.*

*Ülkü öz əməlindən razı halda:*

*- Bağ-bağçada uçanda o, hamının olur, -* dedi. *– Mənimlə oynamır. Özünü mənə göstərir, sonra uçub gedir. İndi isə mənimdir, tək mənim.*

*Atatürk onu başa salmağa çalışaraq:*

*- Qızım, -* dedi,*- axı o, canlıdır. Onu belə gözəl mənzərədən, təmiz havadan, güldən-çiçəkdən ayırıb qaranlıq, dar və havasız bir yerə salıbsan.*

*- Qaranlıq niyə olur, Atatürkcüyüm?! Bu stəkandan bağ-bağça da görünür, gül-çiçək də!*

*Atatürk başını yelləyərək dedi:*

*- Sən məni başa düşmədin. Yaxın gəl.*

*Ülkü yaxınlaşdı. Atatürk onun saçlarını tumarlayaraq üzündən öpdü:*

*- Mənim nə demək istədiyim sənə aydın olsun deyə, gəl belə danışaq. Bu kəpənək bizim bağçada oynayandan, atılıb-düşəndən, şənlənəndən sonra öz bacı-qardaşlarının, ata-*ana*sının yanına gedir. Səni bacı-qardaşından, ata-*anandan *ayırsalar xoşuna gələr?!*

*Ülkü qaşlarını çatdı. Başını yelləyərək:*

*- Yox, -* dedi.

*- Bax görürsən?! Bir yandan xallı kəpənəklə dostluq etmək istəyirsən, bir yandan da onu öz yaxınlarından ayrı salırs*an.
*Bunu necə başa düşək?*

*Ülkü fikrə getmişdi. Deyəsən artıq başa düşürdü. Atatürk sözünə davam etdi:*

*- Heç bilirsən o xallı kəpənəyin ömrü nə qədərdir?*

*- Yox.*

*- İki gün.*

*Ülkü təəccüb içərisində:*

*- Doğrudan? – deyə soruşdu.*

*- Əlbəttə, qızım. İndi sən razı olarsan ki, o, iki günlük həyatını belə başa vursun?*

*Ülkünün gözləri doldu:*

*- Əlbəttə, yox.*

*Atatürk:*

*- Elə isə, qabın ağzını aç, xallı kəpənəyə azadlıq ver. Qoy iki günlük ömrünü özü bildiyi kimi yaşasın.*

*Ülkü xallı kəpənəyi azadlığa buraxdı. Kəpənək sevinc içərisində havaya qalxdı. Sonra bir çiçəyin üzərində oturub Ülküyə baxmağa başladı. Atatürk dedi:*

*- Görürsən, qızım, sənə sağ ol deyir!*

*Bayaqdan gözləri xallı kəpənəkdə olan Ülkü sevincdən qanad açıb uçdu.* [1, s. 17-19].

Hekayə ilə bağlı şagirdlərə aşağıdakı suallara cavab vermək təklif olunur:

1. Ülkünün əlində tutduğu stəkanda nə var idi?
2. Ülkü onu stəkana niyə salmışdı?
3. Atatürk qaşlarını niyə çatdı?
4. Atatürkün "Onu niyə tutmusan?" sualına Ülkü nə cavab verdi?
5. Onun cavabını eşidən Atatürk nə dedi?
6. Atatürkün "Səni bacı-qardaşından, ata-anandan ayırsalar xoşuna gələr?!" sualına Ülkünün cavabı nə oldu? O, Atatürklə razılaşdımı?
7. Xallı kəpənəyin ömrü nə qədər olur? Bunu biləndən sonra Ülkü nə etdi?
8. Ülkü stəkanın ağzını açıb kəpənəyi nə üçün buraxdı?

Bitki və heyvanat aləmi ilə yaxından tanış olan kiçikyaşlı məktəblilər onlardan öz qayğılarını əsirgəmir. Onları sevir və qoruyurlar.

Təlim xarakterli sinifdənxaric məşğələlərdə öyrədici materiallardan faydalanarkən heyvanlara, gül-çiçəklərə dair şifahi xalq yaradıcılığı nümunələrindən faydalanmaq mümkündür.

Sinifdənxaric məşğələdə kiçikyaşlı məktəblilərin diqqətinə “Qanlı gölün maralı” hekayəsini çatdırılır. Bu hekayədən məktəblilərə Azərbaycanımızın faunasına rəğbət və məhəbbət hisslərinin aşılanması, təbiətin qorunmasının vacibliyinə tələbatın formalaşdırılması məqsədilə faydalanaraq mümkündür.

Məşğələdə müəllim şagirdlərə deyir:

- Bizim böyüklərmiz, sizin valideynlər daim ekoloji mühitin, güllərin, çiçəklərin, ağacların, heyvanların qorunmasını bizə məsləhət görmüşlər. Kənddə, kəsəkdə bağdan narı, üzümü kal qıranda bizə acıqlanaraq, “Meyvəni niyə tərk edirsiniz. Yetişəndə əlinizdən almayacaqlar. Qoyun bir özünə gəlsin, ondan sonra nə qədər yeyirsiniz yeyin”. Və yaxud “Almanı dişləyib yarısından çoxunu yerə atmısan”. Meyvəyə qarşı belə münasibət olarmı?!”

Yenə də “O pişiyi niyə elə incidirsən. Acıqlanıb özün də gözləmədən qəfil əlini-ayağını, üzünü cırmaqlayar”.

Təlim xarakterli sinifdənxaric məşğələdə “Qanlı gölün maralı” rəvayəti üzərində dayanılır. Həmin rəvayəti diqqət mərkəzinə gətirək: Maralın gözünün ağı-qarası iki balası vardı. Ana maral sevimli balaları ilə gəzintiyə çıxmışdı. Ağ gölün sahilində idilər. Birdən o, balalarına sahildə onu gözləməyi tapşırıb hara isə getdi.

Yaşıl çəmənlik tapıb otlamağa başladı. Balalarına süd verməli idi.

Çəmənliyin otundan, gül-çiçəyindən qarın dolusu yeyirdi ki, nə isə hənirti eşitdi. Başını qaldıranda gözlərini ona zilləmiş bir ovçu gördü. Qaçmaq istəyirdi ki, ox yayından çıxdı və ana maralın sinəsini deşdi.

Maral öz hayında deyildi. Ac balalarını düşünürdü. Bir təhər özünü toplayıb Ağ gölə tərəf götürüldü. Ana maralı qan götürmüşdü. O, özünü ac balalarına çatdırdı, imkan verdi ki, onu əmsinlər. Maral balaları hələ bapbalaca idilər. Qan harada görmüşdülər ki, analarının halını da başa düşsünlər. Həmişə olduğu kimi, ana südünü marça marçla içirdilər. Sən demə, bu

balaların öz analarını əmdikləri son gün imiş. Ana maral canını tapşırırdı. O, son dəfə balalarına baxır, onların bundan sonrakı gününə ağlayırdı. Balalar ananın taqətdən düşdüyünün, ağladığının fərqinə varmayaraq atılıb-düşür, bir-birini qovur, oynayırdılar. Axı hələ balaca idilər, heç nə başa düşmürdülər. Yaralı maralın qanı axıb gölə süzülürdü. Ağ göl maralın qanından qıpqırmızı olmuşdu. Həmin vaxtdan etibarən Ağ göl "Qanlı göl" deyə çağırılmağa başladı.

Ana maralın əhvalatını eşidən kiçikyaşlı şagirdlər mütəəssir oldular. Onun halına acıdılar. Ovçunu qınadılar.

***Tapşırıq*** və ***suallar:*** 1. Ana maralın neçə balası vardı? 2. Bir dəfə ana və bala marallar haraya getmişdilər? 3. Ana maral balalarını Ağ gölün sahilində qoyub hara getmişdi? 4. Ana maral çəmənlikdə nə edirdi? 5. O, çəmənlikdə kiminlə qarşılaşdı? 6. Ana maral nə üçün tez geri döndü? 7. Ana marala nə olmuşdu? 8. Bala marallar analarını görəndə nə etdilər? 9. Bala marallar analarının başına gələn əhvalatdan xəbər tuta bildilərmi? 10. Ana maralın sonu necə oldu? 11. Ovçunun hərəkətini qiymətləndirməyə çalışın.

Şagirdlər, təbii ki, ovçunun ana marala ox atmasını təqdir etməyəcək, onu qınayacaqlar.

Şagird: Ovçunun atdığı ox təbiətin ən qiymətli övladının canını almışdır. Südəmər körpələr kimsəsiz, yetim qalmışlar. Belə hərəkətlərimizlə təbiətə, bitki və heyvanat aləminə qəsd edirik.

Müəllim: - Maral kimi nadir heyvanların (cüyür, ceyran və s.) nəsli kəsilmək üzrədir. Odur ki, indi onlar qoruqlarda saxlanır, hər cür qayğı ilə əhatə olunurlar. Bir çox heyvanlar Azərbaycanın qırmızı kitabına düşmüşdür. Onların ovlanması qanunla qadağan edilmişdir.

Şagird: - Bizim də borcumuz maral, ceyran, cüyür və s. kimi heyvanları qorumaqdır.

Təlim xarakterli sinifdənxaric məşğələlər zamanı Azərbaycanımızın florasına aid də öyrədici materiallar yada salınır. Çiçəklərlə bağlı rəvayət nəzərdən keçirilə bilər. Diqqət yetirək:

***"Qızboyu çiçəyi"*.**

Qızboyu sarı rənglidir, qızdırmanın, öskürəyin dərmanı hesab edilir. Bu çiçəkdən nadir dərman hazırlığında faydalanırlar. Belə deyirlər ki, Qızboyu ürəkləri fəth edən gözəl bir qız imiş. Onun atası varlı şəxs idi, çoxlu qoyunları varmış. Qoyun sürüsünə baxmaq üçün çobanlar tutubmuş. Qızboyu həmin çobanlardan birinə möhkəm vurulubmuş. Qız sevsə də, bundan heç kimin xəbəri yox idi. Sirrini heç kimə açmamışdı. Utanırdı deməyə. Bu məhəbbətdən ata-anası da, cavan çoban da xəbərsiz idi. Qızboyu çobana ürəyini açmaq istəyir, lakin buna imkan tapa bilmirdi. Odur ki, çox düşünüb-daşındıqdan sonra qərara gəldi ki, gedib çobanın gəzib dolaşdığı çəmənlikdə əyləşsin. Allaha da yalvarsın ki, onu bir çiçəyə çevirdin. O, fikirləşdiyi kimi də edir. Allah onu gözəl, ətirli bir çiçəyə çevirir. Həmin çiçək isə o yamyaşıl çəməndə qərar tutur. Gözəl çiçəyi görən çoban gəlib onu qoxulayır, ətrindən doymur. O vaxtdan çiçəyin adı "Qızılboyu" qalır.

Şagirdlər sorğuya cəlb edildilər.

***Suallar və tapşırıqlar*:** 1. Varlı kişinin gözəl qızı nə üçün narahat idi? 2. O, sevgisini kimə isə demişdimi? 3. Qız ürəyini cavan çobana aça bilmişdimi? 4. Gözəl qız cavan çobanı görmək üçün hansı tədbirə əl atdı? 5. Sarıya çalan bu çiçəyin adı niyə Qızboyu olub? 6. Sən çiçəkləri xoşlayırsanmı? 7. Sizin evinizdə (mənzilinizdə) otaq gülləri varmı? 8. Çiçəklərin məişətdə və təbabətdəki rolu nədən ibarətdir?

Azərbaycan dili, musiqi və həyat bilgisi fənləri üzrə dərslərdə Azərbaycanın flora və faunası, təbiəti ilə tanışlıq hələ onların ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğıkeş münasibətin təşəkkül tapacağına zəmanət vermir. Təlim xarakterli sinifdənxaric məşğələ və tədbirlərdən də faydalanmaq lazımdır.

Həyat bilgisi üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə şagirdlərin təbiətə aid rəsm əsərləri ilə tanış olmaları da faydalıdır. Səyyar Bəhlulzadənin aşağıdakı məşhur rəsmlərini onlara təqdim etməklə fikirlərini öyrənmək mümkündür:





**Səttar Bəhlulzadənin Şuşa sevgisi**



**Qudyalçay dərəsi**



**Peyzaj**



**S.Bəhlulzadə və Qarabağ**

 

I-IV siniflərin həyat bilgisi dərsliklərində təbiətə aid şeirlər nədənsə azlıq təşkil edir. Təlim xarakterli sinifdənxaric məşğələlərdə kiçikyaşlı məktəblilərin xalqımızın görkəmli şairlərinin, həmçinin gənc şagirdlərinin təbiətə aid şeirlərindən seçmələrlə tanış olmaları təmin edilməlidir. Bu baxımdan Səməd Vurğunun “Təbiət ilhama çağırır məni” şeri səciyyəvidir. Şagirdlərdə Azərbaycanımızın flora və faunasına rəğbət, məhəbbət hisslərinin inkişafına öz köməyini göstərir, təbiətimizə, onun gözəlliklərinə qayğını tələbata çevirir. Şeiri dinləyən şagirdlərə suallar verilir. Diqqət yetirək:

***Suallar və tapşırıq:*** 1. Şeirin müəllifi kimdir? 2. Müəllif haqqında nə bilirsiniz? 3. Şair ilin hansı fəslindən söz açır? 4. Dağlar nə zaman yam-yaşıl geyinir? 5. Qaynar bulaqlar nə edir? 6. Güneylər döşündəki qara nə olur? 7. Şair təbiətdən niyə ilham alır? 8. Dan yeri sökülən də təbiətdə nə kimi dəyişiklik olur? 9. Tarla və zəmilər niyə şadlanır? 10. Şeir qəhrəmanı nəyi özünə şöhrət hesab edir? 11. Haralar sərin olur? (fikrinizi şeirə əsasən deyin) 12. Su insanın həyatında nə kimi rol oynayır? 13. Hara su gəlir? 14. Torpağa insanın nəyi gəlir? 15. Şair Vətəni

niyə bağrına basır? 16. Səməd Vurğunun "Təbiət ilhama çağırır məni" şerini əzbərləyin.

Təlim xarakterli sinifdənxaric məşğələlərdə İslam Səfərli "Azərbaycanım" şeiri də şagirdlərə təqdim edilir. Münasibət bildirmələri tapşırılır.

İslam Səfərlinin "Azərbaycanım" şeiri də kiçik yaşlı məktəblilərə ölkəmizin flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılması baxımından önəmlidir. Bu şeir də dərsdə dinlənilir. Müəllim sagirdlərə suallar verir:

***Suallar və tapşırıq:*** 1. Əvvəlcə deyin: Şeirin müəllifi kimdir? 2. Şeir nəyə həsr edilmişdir? 3. Şeirdə göstərildiyi kimi, çiçək harada əkildi? 4. Söyüdlər niyə nazlanır? 5. Şeirdə yollar necə təsvir olunub? 6. Şeir xoşunuza gəldimi (bəli, xeyr, azacıq və s.). 7. Şeiri əzbərləyin.

Həyat bilgisi fənn üzrə təlim xarakterli sinifdənxaric məşğələdə öyrədici materialın təqdimatından sonra alınan nəticələr sübut yetirdi ki, şagirdlərə bitki və heyvanat aləmi, ölkəmizin təbiətinə, dair bilik və məlumatlar onlarda maraq doğurur. Bu zaman şagirdlər Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət bəsləyirlər.

Sorğunun nəticələrindən görünür ki, təqdim edilən materiallardan faydalanan məktəblilər artıq bitki və heyvanat aləminə qayğı ilə yanaşmağa başlayırlar. Ağacları, gül-çiçəyi, meyvə və giləmeyvə ağaclarını, bitkiləri və heyvanları sevir, qoruyur, hər birinə həssaslıqla yanaşır, başqalarından da bu münasibəti gözləyirlər. Bu cür münasibət şagirdləri flora və faunamıza, Azərbaycanın flora və faunasına, təbiətinə yaxınlaşdırır.

***Qənaətlərimiz:***

- I-IV siniflərdə həyat bilgisinin öyrədilməsi zamanı şagirdlərdə Azərbaycanın flora və faunasına, təbiətinə, ekologiyasına qayğı ilə yanaşmaya nail olmaq üçün zəruri imkanlar yaranır;

-Kiçikyaşlı məktəblilərdə ölkəmizin bitki və heyvanat aləminə, təbiətə qayğıkeş münasibət formalaşdırmaq üçün təlim xarakterli sinifdənxaric məşğələlərdən istifadə olunması faydalıdır.

-Təlim xarakterli sinifdənxaric məşğələlər keçirilərkən kiçikyaşlı məktəblilərdə ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğı ilə yanaşmaya istiqamətlənən tədbirlərə geniş yer verilə bilər. "Ekoloji böhran: buna səbəb kimdir, yaxud nədir?", "Ölkəmizin ekologiyası", "Azərbaycanın florası", "Ölkəmizin faunası", "Azərbaycan təbiətinin gözəllikləri", "Gəzməli, görməli yerlərinmiz", "Azərbaycan gölləri", "Azərbaycan çayları" və s. mövzularda söhbətlərin təşkili faydalıdır. Tədbirlər vaxtı şagirdlərin təbiətə qayğılı münasibətə dair fikirlərini və maraqlı məlumatlarını dinləmək olar. Söhbətlərdə təbiətin, onun gözəlliklərinin, yaşıllıqların mühafizəsi, onlara qayğının göstərilməsi ilə bağlı məlumatlar çatdırılar. Söhbətlər vaxtı bağların, meşələrin, parkların, meşədə məskunlaşmış canlıların qorunması, onlara qayğı göstərilməsi ilə bağlı tövsiyələr və məsləhətlər verilir.

-Təlim xarakterli sinifdənxaric tədbirlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğının göstərilməsi ilə bağlı görüşlər də şagirdlərdə ekoloji mədəniyyətin təşəkkülünə güclü təsir göstərir. Bu fikir baxımından ümumtəhsil məktəblərində Azərbaycanın flora və faunasının mühafizəsi, təbiətə qayğıkeş münasibətin formalaşdırılması ilə əlaqədar məşhur şəxslərlə görüşlər təşkil edilə bilər. Həmin görüşlərdə məktəblilər fiziki və zehni əməyin gözəllikləri, texnikanın, bədii və elmi təfəkkürün uğurları barədə məlumata yiyələnirlər.

Kiçikyaşlı məktəblilərə Azərbaycanın flora və faunasına rəğbət və məhəbbət hisslərinin aşılanmasında "Batabat gölü" mövzusunda söhbət də maraqlı olmuşdur.



Şagird A.A. – Batabat gölü barədə danışanda biz gərək təkcə Batabatın ekologiyası, gölün ekoloji durumu, onun mühafizəsi məsəlləri üzərində dayanmamalıyıq. Batabat şirin sulu göldür. O, uçqun və sürüşmədən meydana gələn bənd gölü olaraq tanınır. Bu göl Naxçıvan Muxtar Respublikasının dağlıq hissəsində - Şahbuz ərazisindədir. Dəniz səthindən 2424 m yüksəklikdə qərar tutub. Batabatın üzərində əsrarəngiz torf adaları göz oxşayır.

Gölün yan-yörəsindəki **karbonat, hidrokarbonat**, həmçinin kalsium-natrium-maqnezium minerallaşdırılmasında bulaqların suyu mədə-bağırsaq xəstəliklərinin müalicəsində əhəmiyyətli rol oynayır. Hazırda Batabat gölünün ətrafı insanlar üçün piknik ərazisinə çevrilmişdir.

Müəllim: - Batabatın mineral suyundan müalicə məqsədləri üçün də faydalanmaq mümkündür.

***Suallar və tapşırıqlar:*** 1. Batabat gölü Naxçıvan Muxtar Respublikasının hansı hissəsindədir? 2. Batabat necə sulu göldür? 3. Batabat dəniz səthindən neçə metr yüksəklikdə qərar tutub? 4. Batabat gölünün üzərində dayanıb göz oxşayan nədir? 5. Mədə-bağırsaq xəstəliklərinin müalicəsində nədən istifadə olunur?

## 5.4. Musiqi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmağın imkanları və yolları

Digər fənlərlə bağlı olduğu kimi musiqi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə də kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, ekoloji mühitə, onun sağlamlaşdırılmasına, qorunmasına, təbiətə qayğı ilə yanaşmaya tələbat formalaşdırmaq mümkündür. Bu məqsədlə folklorumuzdalı nəğmələrdən, aşıq musiqisindən, xalq və bəstəkar mahnılarından, uşaq mahnılarından istifadə edilə bilər. Bu sahədə səmərəli nəticələrin əldə edilməsi müəllimdən, pedaqoji əməkdaşlığın, müəllim-şagird münasibətlərinin düzgün qurulmasından çox asılıdır.

Musiqi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələdə müəllim ilk növbədə seçim edir: məhz hansı musiqiləri, mahnı və nəğmələri müəyyənləşdirmək lazımdır? Bu zaman, təbii ki, ilk növbədə kiçikyaşlı məktəblilərin maraq və meyilləri, yaşının xüsusiyyətləri nəzərə alınmalıdır. Nəğmələr, mahnılar şagirdlər tərəfindən dinlənilə və ifa edilə bilər. Müəllimin səyi ona doğru yönəlməlidir ki, şagirdlər mahnıların mətninə, sözlərinə diqqət yetirsinlər, ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğıkeş münasibət formalaşa bilsin.

Elşən Xəzərin ifasında “Təbiət cana gəlir” mahnısından bir fraqment dinlənilir:

Bahar gələndə,
Təbiət cana gəlir.
Allahın iznilə,
Nizama-intizama gəlir.
Anamızdır bu Vətən,
Gəl qoruyaq torpağı.
Lap adi bir daşı,
Lap hər ağac, yarpağı.

Alar caynağa,
Qalxır Zəfər bayrağı.
Köçən quşlar uçub
Azərbaycana gələr.
Mahnı üzrə iş gedir.

***Suallar***: - 1. Bahar gələndə təbiətdə nə baş verir? 2. Vətəni başqa hansı adla çağırırıq? 3. Vətənə nə üçün ana Vətən deyirik? 4. Köçən quşlar Azərbaycana nə zaman gəlir?

Şagirdlərin cavabları, təbii ki, mahnının sözlərinə uyğun olacaqdır.

Daha sonra I sinif şagirdləri üçün "Arı Vız Vız Vız" mahnısı səslənir.

Yay gəldi, çiçəklər açdı, arılar hər tərəfdə,
Yay gəldi, çiçəklər açdı, arılar hər tərəfi bürüdü.
Arı vız vız vız, arı vız vız vız, arı vız vız vız diyə dolaşır
Arı vız vız vız, arı vız vız vız, arı vız vız vız diyə dolaşır
Əvvəlcə bənövşənin iyini hiss edirik, sonra qızılgülü əmərik Əvvəlcə bənövşənin iyini hiss edirik, sonra qızılgülü əmərik
Gül balı, gül balı, gül balı sevirik.
Gül balı, gül balı, gül balı sevirik.
Arı vız vız vız, arı vız vız vız, arı vız vız vız diyə dolaşır
Arı vız vız vız, arı vız vız vız, arı vız vız vız diyə dolaşır
Arı vızıldayan vızıltı, arı vızıltısı vızıltısı, arı vızıltısı vızıltısı gedir.
Arı vızıldayan vızıltı, arı vızıltısı vızıltısı, arı vızıltısı vızıltısı gedir.
Əvvəlcə bənövşənin iyini hiss edirik, sonra qızılgülü əmərik Əvvəlcə bənövşənin iyini hiss edirik, sonra qızılgülü əmərik
Gül balı, gül balı, gül balı sevirik.
Gül balı, gül balı, gül balı sevirik.

Arı vızıldayan vızıltı, arı vızıltısı vızıltısı, arı vızıltısı vızıltısı gedir

Arı vızıldayan vızıltı, arı vızıltısı vızıltısı, arı vızıltısı vızıltısı gedir

Arıya aid mahnı səsləndiyindən müəllimin sualları arıya aid olur. Sonra müəllim özü məlumat verir. Onun məlumatından ekoloji mühitdə, insanların həyatında arıların oynadığı rol diqqət mərkəzinə gəlir. Bu məlumat elə səciyyədə olmalı ki, şagirdlərdə ekoloji mədəniyyətin təşəkkülünə, onlarda təbiətə, bitki və heyvanat aləminə qayğıkeş münasibət formalaşdırılmasına kömək göstərə bilsin.

Müəllim: - Arılar təbiətdə qiymətli və nadir gül-çiçəyin tozlanmasına səbəb olan həşəratlar ailəsinə məxsusdur. Lazım gəldikdə onlar öz yuvalarını tərk edərək haradasa 15-20 km uzaq məkana səfər edərək çiçək sorağında olurlar. İstədiyinə çatanda arı ailəsinə aid başqa arılara da xəbər göndərir, onları bu məkana çağırır.

Arıların özünəməxsus ünsiyyət vasitələri mövcuddur. Onlar vızıltıları, səsləri, ətraf aləmə yaydıqları qoxuların köməyilə bir-birinin köməyinə, dadına çatır, harayına gəlirlər. Beləliklə, vacib gül-çiçəyin tozlanmasında həmiştirak olurlar. Məhz arılar sayəsində bu gül-çiçəklər öz həyatlarını yaşayır, əks təqdirdə təbiətdən yoxa çıxardılar. Həmin gül-çiçəklər ekologiyanın, ekoloji aləmin durumunun yaxşılaşmasında, dava-dərmanların istehsalında böyük əhəmiyyət daşıyır.

Arı südü dərmanlar dərmanıdır. Ən ağır, sağalmaz xəstələr arı südü sayəsində şəfa tapırlar. Bu günlər dünya bazarında arı südünün 1 litri 2 milyon manatadır. Həkimlər arı südündən ən çox ağciyər, ürək, qaraciyər, həmçinin başqa daxili orqanların müalicəsində faydalanırlar.

Təbii arı balı yeganə qida məhsuludur ki, heç zaman, heç bir şəraitdə xarab olmur. Uzun müddət öz keyfiyyətini özündə saxlayır. Arılar ailə şəraitində mövcud olurlar. Başqa sözlə, arılar ailə şətaitində yaşayır, fəaliyyət göstərirlər. Arı ailəsi ana

və ata arıdan, eləcə də işçi arıdan ibarətdir. Arı ailəsinin hər biri il ərzində 35-40, bir sıra hallarda hətta 45-50 kq bal hasil edir. Təbii arı balı süfrələrin bəzəyidir. Adətən səhərlər kərə yağı ilə birlikdə ortaya gəlir.

Təbii arı balı ilə yanaşı bəzən süni bal da satılır. Bu balı arılar əziyyət çəkmədən çox asanlıqla istehsal edirlər. Təsəvvür edək ki, gül-çiçəyin dalınca uzun məsafələr qət edib arı istehsal edəndən fərqli olaraq, süni bal hasil edən arılar hazırına nazir olur, yaxınlıqda sahiblərinin hər hansı qablarda qoyduğu şirin şeylərə, şəkər tozuna daraşaraq bal "düzəldirlər". Bu bal da təbii balın görkəmini, müəyyən mənada dadını verir. Fəqət o keyfiyyətdə, o gücdə deyil, sağlamlığın təmin edilməsində xüsusi rola malik olmur. Arılar şan toxumaq üçün mum hasil etməli olurlar.1 qram mumun istehsalı arının üçün 10 qram bal yeməsi tələb olunur. Arı mumunu uzun aylar ərzində saxladıqda da xarab olmaq ehtimalı yoxdur. Çünki havanın temperaturu və nəmliyi muma təsir etmir.

Bəzən şanlı bal alanlar evdə balı şandan azad edərək qablara yığırlar. Nahaq. Şanın özünün üstünlükləri var. Xüsusən bronxial astma və haymorit şəraitində şanlı bal yemək son dərəcədə faydalıdır. Şanlı balı çeynəməklə dişimizin diblərini möhkəmləndirə bilərik. Dişlər kariesdən qurtular.

Arı ailəsi gül-çiçəklərin, çəmənin şirəsini çəkib bal istehsal etdikdən sonra mum düzəltməklə məşğul olur. Elektrik enerjisinin kəşfindən qabaqlar bütün Yer üzündə gecələr hər yeri arı mumdan hazırlanan şamlar işıqlandırırdı.

Arılardan söz açan müəllim "Güldəz" hekayəsini yada salır. Hekayədə bir nəfər arıçı təsvir olunub. Kitab qələmə alanlar bu kişidən dərs alırlar, yəni onun söhbətlərini dinləyib öyrənirlər. Hətta alimlər də uzaq ellərdən arıçıya baş çəkməyə, onun söhbətlərini eşitməyə gəlirlər. Lakin qəribə burasındadır ki, bu arıçı əslində savad almayıb, nə yazı, nə oxu bilir. Uzun illərdir ki, arı saxlayır, onların qulluğunda durur. Bu kişi arıla-

rın uçuşuna göz qoyub buna əsasən onların analarının sağlam, yoxsa xəstə olduğunu bilir.

Respublikamızın səfalı, gül-çiçəyə bürünmüş guşələrinin balları daha dadlı olur. Kəlbəcər, Laçın, Lerik, Zaqatala, Şəki, Quba, və s. təriflənir.

***Sual və tapşırıqlar:*** 1. Nə üçün “Ana təbiət” deyirik? 2. Biz təbiəti nə üçün mühafizə etməliyik? 3. Şəhər və rayonlarda nə üçün parkların sayı günü-gündən artır? 4. Ağaclar hansı aylarda əkilməlidir? 5. Təbiətdə və insanların həyatında arılar hansı rola malikdir? 6. Arılar balı nəyin köməyi ilə istehsal edirlər? 7. Arı balının xeyri nədir? 8. Arı südü nə üçün lazımdır? 9. Təsəvvür edin ki, təbiətdə və insanları həyatında arılar yoxdur. Bu nə demək olardı?

***Suallara cavablar:***

Şagird B.: “Arı son dərəcə fəal, zəhmətkeş canlıdır. Təbiətin gözəl yaranışıdır. Bitkilərin tozlanmasında, beləliklə onların mövcud olmasında, bütün bunlarla yanaşı insanların sağlamlığında böyük rol oynayır. Həm də qida mənbəyidir.

Şagird J.: Arı balı, arı südü, arı tozu dərmandır. Bir çox xəstəlilərin müalicəsində arıların nemətləri insanın dadına çatır.

Şagird C.: - Sinif yoldaşım artıq dedi. Mən də əlavə edirəm. Arılar gül-çiçəyin tozlanması, onların çoxalması vasitəsidir. Onlar hər yerdə, hər guşədə məskən sala bilir. Təkcə buz kimi soyuq qitədən başqa.

Şagird Ü.: Arının istehsal etdiyi balın hamısını götürmək lazım deyil. Onlar özləri də balla qidalanırlar. Arıların payını da özləri üçün saxlamaq gərəkdir.

Şagird V.: Arılar gözəl təbiətli, yam-yaşıl, onları öz gözəllikləri ilə valeh edən yerlərdə, meşələrdə daha məhsuldar işləyirlər. Odur ki, Arı yeşikləri dağ yamaclarında, meşələrdə qoyulur.

Şagird X.: - Arı mumu son dərəcə mürəkkəb biokimyəvi tərkiblidir, efirlər, karbohidrogen, yağ turşuları, karbohidratlar və s. özündə birləşdirən 300-dən artıq komponenti əhatə edir.

Saxlandığı şəraitdən asılı olmayaraq mum öz çəkisini itirmir, oksidləşmir, havanın nəmliyinin udmur.

Şagird A.: - Arılara məhəbbət - Azərbaycan təbiətini sevmək, onu qorumaq deməkdir.

Yuxarıda söylənilənləri ümumiləşdirməli olsaq, deyə bilərik:

Şagirdlərə Azərbaycanın flora və faunasına, təbiətinə, təbiətin gözəlliklərinə qayğıkeş münasibəti formalaşdırmaq üçün onları həm də ekoloji biliklərlə silahlandırmaq lazımdır;

- ibtidai siniflərdə şagirdlərə bitki və heyvanat aləminə, təbiətə qayğıkeş münasibəti formalaşdırmağa kömək göstərən zəruri mətnlər seçmək lazımdır.

- şagirdlərdə təbiətə məhəbbəti, onun taleyi üçün narahat olmaq və onu qorumaq məqsədilə aparılan işlər zamanı təlim xarakterli sinifdənxaric məşğələlərin təşkili lazımdır.

Bu məqsədlə öyrədici materiallar köməyə gələ bilər. Təlim xarakterli sinifdənxaric məşğələdə tətbiq edilən öyrədici material şagirdlərin marağına səbəb oldu.

Təlim xarakterli sinifdənxaric məşğələlər musiqi fənninin proqramına və dərsliklərinə daxil olan mövzuların səmərəli tədrisinə öz köməyini göstərir və mühüm rola malikdir.

Təlim xarakterli sinifdənxaric məşğələlər zamanı Azərbaycanın flora və faunasına, təbiətinə, təbiətin gözəlliklərinə, ekologiyanın saflaşdırılmasına, ekoloji böhranın qarşısının alınmasına, bitki və heyvanat aləminin mühafizəsinə xidmət göstərə biləcək materiallardan, musiqi əsərlərindən – mahnılardan, nəğmələrdən faydalanmaq məsləhət görülür. Musiqi əsərləri şair və bəstəkarlarımızın birgə yaradıcı işləridir. Musiqi insanda xoş duyğular yaradır, necə deyərlər, qol-qanad açmağı öyrədir. Musiqi insan psixikasına təsir edərək, hər bir şəxsdə, o cümlədən kiçikyaşlı məktəblilərdə xoş əhval yaradır, səmərəli fəaliyyətə sövq edir.

Belə deyim var ki, musiqi insanların qəlbini fəth edir. Həmin sözlərdə dərin həqiqət vardır. Qədim yunanlar musiqini

Allahın insan nəslinə göndərdiyi, bəxş etdiyi ən qiymətli hədiyyə kimi dəyərləndirirdirlər, Yunan əsatirlərində göstərilir ki, Orfey ifa etdiyi ecazkar nəğmələri ilə həm Allahı, həm də insanları heyrətdə qoyur. O öz nəğməsi ilə həm də təbiətin kor qüvvələrini ram edirmiş. Təlim xarakterli sinifdənxaric məşğələlərdə xalq artisti Tofiq Quliyevin bəstələdiyi "Kəndimiz" mahnısını səsləndirmək mümkündür. Məlum olduğu kimi, bu mahnı "Ögəy ana" bədii filmindəndir. İsmayılın mahnısı kimi tanınır. Diqqət yetirək:

**Kəndimiz**

(*musiqisi Tofiq Quliyevin*)

Yurdum, yuvam, ay əziz kəndimiz,
Azad, abad, a qəşəng kəndimiz.
Gözəl olur səndə yay, qış, bahar,
Gözəl olur səndə yay, qış, bahar.
Yaşıl, əlvan, sarı çiçəkləri
Barlı dağları, qarlı bağları,
Sevirəm səni, gözəl kəndimiz
Barlı dağları, qarlı bağları,
Sevirəm səni, gözəl kəndimiz [29].

Mahnıda Azərbaycan kəndinin, Azərbaycan təbiətinin gözəllikləri vəsf olunur. İsmayıl kəndi əzizləyərək "yurdum, yuvam" adlandırır, kəndin azad və abad olduğunu vurğulayır. Kəndin yayının, baharının, qışının gözəlliklərini diqqət mərkəzinə gətirir. Yaşıl meşələrini, barlı dağlarını yada salır.

Bu mahnıda Azərbaycanın flora və faunası xatırlanır. Hər biri haqqında xoş sözlər deyilir. Bitki və heyvanat aləminə sevgi, məhəbbət, qayğı öz ifadəsinin tapmışdır. Sevən həm də qoruyucu olar. İsmayıl uca səslə "Sevirəm səni, gözəl kəndimiz!" deyir. Kəndi sevdiyi üçün İsmayıl, hər bir məktəbli ana yurdun bitki və heyvanat aləmini qorumalıdır.

Daha sonra “Quşlar” mahnısı səslənir. Bu, uşaq mahnısıdır, mahnı şagirdlərdə maraq doğurur. Uşaqlar quşları çox sevirlər. Onlara dən, su verir, qayğısına qalırlar. Bəzi ailələr göyərçinlər saxlayır, evdə qəfəsdə tutuquşu saxlayanlar da var. Quşlara məhəbbəti, ilk növbədə valideynlər, ata-analar, baba və nənələr, daha sonra uşaq bağçasında tərbiyəçilər, məktəbdə isə, müəllimlər ayrı-ayrı fənlərin tədrisi prosesində uyğun mətnlərin materialları əsasında, yaxud sinifdənxaric tədbirlərdə, sinif-dənxaric işin bu və ya digər növü üzrə tədbirlərdə aşılayırlar. “Quşlar” mahnısının həm sözləri, həm də musiqisi son dərəcə xoşagələndir. Mahnıda qaranquşun adı çəkilir. Yazın gəlməsini xəbər verən məhz qaranquşdur. Mahını dinləyən məktəblilər quşların cəh-cəh vurmalarını, onların budaqdan budağa qonmalarını gözləri qarşısında canlandırır. Dərsdə videoçarxın nümayiş etdirilməsi də dərsin, mövzunun əyaniləşməsinə böyük kömək edərdi.

Aşağıdakı suallar səslənir: 1. Nə üçün quşlara uzağa getməmək təklif olunur? (“Çox getməyin uzağa”) 2. Hansı quşlar uçub isti ölkələrə gedir? 3. Bəzi quşlar isti ölkələrə niyə gedirlər? 4. Mahnıya diqqət yetirin. Quşlar isti ölkələrdən gələndə sovqat kimi nəyi gətirərlər?

Bu mahnıda heyvanat aləminə məhəbbət tərənnüm olunur. Aparılmış məqsədyönlü, sistemli, fasiləsiz iş nəticəsində kiçikyaşlı məktəblilər bitkilər, meyvələr, güllərlə yanaşı, heyvanları da, quşları da sevir, onları qoruyurlar. Bundan başqa, təbiəti çirkləndirmir, başqalarından da bunu tələb edirlər. Ekologiyamızın korlanmamasını istəyir, bu sahədə əllərindən gələn köməyi göstərirlər.

Ekoloji problemlərlə tanış olan şagirdlər öyrənirlər ki, bu problemlər müəyyən ekoloji amillər sayəsində təbiətin strukturunun və funksiyasının dəyişməsi ilə bağlı meydana gəlir. Haqqında danışılan problemlərə aiddir: iqlim dəyişiklikləri; biomüxtəlifliyin məhvi; su, torpaq və hava çirkliliyinin artması; torpağın eroziyası; canlıların məhvi.

# VI FƏSİL. ŞAGİRDLƏRDƏ AZƏRBAYCANIN FLORASINA VƏ FAUNASINA, TƏBİƏTİNƏ QAYĞIKEŞ MÜNASİBƏTİ FORMALAŞDIRMAQ SAHƏSİNDƏ MÜƏLLİMİN ROLU

Kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə və onun əsrarəngiz gözəlliklərinə rəğbət, məhəbbət, sevgi və qayğıkeş münasibətə tələbatın formalaşdırılması son dərəcə aktual problemdir. Bu sahədə müəllimin üzərinə çox mühüm vəzifələr düşür.

İbtidai sinif müəllimlərinə məsləhətimiz budur ki, öz fəaliyyətləri, şagirdlərlə iş prosesində təlim və tərbiyənin prinsip və metodlarından faydalansınlar. İnandırma və alışdırma, tərbiyəçinin şəxsi nümunəsi, rəğbətləndirmə və cəzalandırma, tərbiyə prosesinə nəzarət və onun səmərəliliyinin təhlili metodlarının imkanlarından istifadə etsinlər, cəzalandırma metoduna çox da müraciət etməsinlər. İnandırma metodu ağla, şüura, idraka təsir edən metodlar qrupuna; alışdırma isə, fəaliyyətin təşkili və mənəvi davranış təcrübəsini formalaşdıran metodlar qrupuna; rəğbətləndirmə və cəzalandırma metodları – şagirdlərin hiss və münasibətlərini stimullaşdıran metodlar qrupuna; aparılan təhsil-tərbiyə işlərinə nəzarət metodları – tərbiyədə nəzarət, özünənəzarət və özünü qiymətləndirmə metodlarına daxildir.

Sinif müəllimi bu metodlar qrupuna bələd olmalı, onlardan səmərəli şəkildə faydalanmalıdır.

Azərbaycanın florası və faunası ilə yaxından tanış olmaq, onların mühafizəsinin vacibliyini dərk etmək və bu istiqamətdə səmərəli fəaliyyət göstərmək üçün sinif müəllimləri tərbiyənin prinsiplərini rəhbər tutmalıdırlar. Aşağıdakı prinsiplərdən istifadə məsləhət bilinir. Sinif müəllimlərinə kömək məqsədilə tərbiyənin zəruri prinsiplərini və onlarım məzmununu təşkil edən məsələləri diqqət mərkəzinə gətiririk:

- təhsil-tərbiyə işlərinin həyatla, dinc quruculuq ilə əlaqələndirilməsi prinsipi;

- məqsədaydınlığı prinsipi;

- bitki və heyvanat aləminə rəğbət, məhəbbət və qayğılı münasibətin təşəkkül etdirilməsi məqsədilə sistemlilik, fasiləsizlik prinsipi;

- şagirdlərin yaş, fərdi və cinsi xüsusiyyətlərinə diqqətin yetirilməsi prinsipi;

- nikbinlik prinsipi;

- hörmət və tələbkarlıq prinsipi;

- tələblərdə vahidlik prinsipi.

***1.Təhsil-tərbiyə işlərinin real həyatla əlaqələndirilməsi prinsipi.*** Təlim-tərbiyə işində bu prinsipə əsaslanmaq son dərəcə səmərəli nəticələr verir. Həmin prinsip şəraitində məktəblilərin bitki və heyvanat aləminə, təbiətə, onun gözəlliklərinə qayğıkeş münasibət bəsləmənin nümunəvi təşkili, sağlam həyat tərzi, fəaliyyətin düzgün qiymətləndirilməsi nəzərdə tutulur. Haqqında danışılan prinsipə əsaslanarkən ölkəmizin flora və faunasına, təbiətinə qayğı ilə yanşama işi təhsil-tərbiyə işlərinin həyatla, dinc quruculuq ilə əlaqələndirilir. Tərbiyə işləri, özü də təbiətə, flora və faunaya qayğı ilə bağlı işlər həyatdan təcrid olunmuş şəkildə aparıla bilməz. Təlim xarakterli sinifdənxaric məşğələlərdə ekoloji durumun yaxşılaşdırılması istiqamətind ölkəmizdə görülən işlərdən nümunələr gətirilir.

***2. Məqsədaydınlığı prinsipi.*** Kiçikyaşlı məktəblilərdə ölkəmizin flora və faunasına, təbiətinə qayğı ilə yanşama üzrə iş aparan sinif müəllimi ilk növbədə qarşısına məqsəd qoyur. Bu məqsədə çatmaq üçün vəzifələri müəyyənləşdirir. Bu vəzifələrə daxil ola bilər:

1) Təlim prosesində ibtidai siniflərdə tədris olunan ayrı-ayrı fənlərin, o cümlədən Azərbaycan dili, həyat bilgisi, musiqi, təsviri incəsənət və s. fənlər üzrə dərsliklərin araşdırılması. Azərbaycanın flora və faunasına, təbiətinə dair dərsliklərin imkanları hansı səviyyədədir? Haqqında söz açılan məsələlər aid mətnlər varmı? Əhatə dairəsi necədir?

2) Təlim xarakterli sinifdənxaric məşğələlərin imkanlarından faydalanmaq mümkündürmü? Hansı səviyyədə? Bu məşğələlərin hansı fənlər üzrə təşkil olunması məqsədəuyğundur? Təbii ki, Azərbaycan dili, həyat bilgisi, musiqi, təsviri incəsənət fənlərinin seçilməsi məsləhətdir.

3) Təlim xarakterli sinifdənxaric məşğələləri haqqında danışılan fənlərin məzmunundan, başqa sözlə, mətnlərindən, materiallarından təcrid olunmuş şəkildə nəzərdə tutulmalıdır. Bu məşğələlər təlim prosesinin bir növ davamı olaraq, həyata keçirilməlidir.

***3. Bitki və heyvanat aləminə rəğbət, məhəbbət və qayğılı münasibətin təşəkkül etdirilməsi məqsədilə sistemlilik, fasiləsizlik prinsipi.*** Bu prinsip nəzərdə tutur ki, istər təlim prosesində, istərsə də təlim xarakterli sinifdənxaric məşğələlərdə flora və faunamıza, təbiətə dair nəzərdə keçirilən məsələlərdə sistemlilik gözlənilsin, fasiləyə yol verilməsin. “Fasiləyə yol verilməsin” dedikdə nə nəzərdə tutulur? Bəzən görürsən ki, bu və digər istiqamətində tərbiyə işləri bir müddət görülür, müəyyən vaxt keçdikdən sonra nədənsə yaddan çıxır. Bu isə, görülən işlərin səmərəli nəticələnəcəyinə imkan vermir.

Beləliklə, sistemlilik, ardıcıllıq, fasiləsizlik prinsipi nəzərdə tutur ki, Azərbaycanın florası və faunasına rəğbət, məhəbbət, sevgi, qayğılı münasibət üzrə işlər aparılarkən bu iş fasiləsiz olsun, müntəzəm xarakter daşısın, sistemli şəkil alsın. Ölkəmizin bitki və heyvanat aləminin mühafizəsi işinə şagirdlərin cəlb olunması zamanı, bitki və heyvanat aləminə rəğbət, məhəbbət və qayğılı münasibətin təşəkkül etdirilməsi məqsədilə sistemlilik, fasiləsizlik prinsipinin nəzərə alınmasını zəruri hesab edirik.

***4. Humanizm və mənəviyyata nailolma prinsipi.*** Təlim-tərbiyə, təhsilin təşkili prosesində humanizm uşağın imkanlarına inamda özünü göstərir. Şagirdin həyat tərzi ilə maraqlanmaq, onun şəxsiyyətinə hörmətlə yanaşmaq və onunla, necə deyərlər, dil tapmağa çalışmaq məsləhət bilinir. Məktəbli ilə

müəllimin mənəvi baxımdan bərabərliyini qəbul etmək, şagirdə təzyiq göstərməmək vacibdir. Kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğı ilə yanaşmanın formalaşdırılması işi ilə məşğul olan səriştəli müəllim onlara münasibətdə tərifi, xoş sözləri əsirgəmir, humanizmi üstün tutur. Müəllim öz davranışı ilə şagirddə inam və əməkdaşlıq mühiti yaradır, beləliklə də şagirdin inkişafına kömək göstərir.

Humanizm tələbkarlığı istisna etmir. Hörmət və ciddiliyin birləşməsi şagirdlərin mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsi zaman qarşıya çıxan pedaqoji problemlərin həlli və aradan qaldırılması üçün son dərəcə zəruri şərtdir.

***5. Təbiətə müvafiqlik prinsipi*** - təhsilin təbiətin inkişafının ümumi qanunlarının həyata keçirilməsinə, təbii və sosial proseslərin qarşılıqlı əlaqəsinin elmi anlamına, təhsilalanların cins və yaş xüsusiyyətlərinin hesaba alınmasına əsaslanmanı nəzərdə tutur. Tərbiyənin məqsədi özünə, biosferin vəziyyəti və gələcək təkamülü üçün cavabdehliyin təşəkkülü olmalıdır. Bu məqsədlə biosferə və planetə münasibətdə zəruri etik münasibətlər tərbiyə olunur, ona uyğun ekoloji və resurslara qənaət edən davranış və düşüncənin formalaşması baş verir.

Bildiyimiz kimi, bəşər övladı təbiətin bir hissəsidir. Odur ki, şəxsiyyətin təlimi, tərbiyəsi, təhsili və inkişafı *təbiət qanunlarından* son dərəcə asılıdır. İrəli sürdüyümüz bu ideya insanlığa çox qədim vaxtlardan - təbiət hadisələrinin və elementlərinin ibadət obyekti olduğu dövrlərdən tanış idi.

Bu prinsip XVII əsrdə çex pedaqoqu Yan Amos Komenski irəli sürülmüşdür. O, "Böyük didaktika" əsərində təbiətəmüvafiqlik prinsipinin mahiyyətinə aydınlıq gətirmiş, uşağın təbii inkişafının vacibliyini əsaslandırmışdır.

Odur ki, çox zaman Komenskinin pedaqogikası təbiətəmüvafiqlik pedaqogikası kimi nəzərdən keçirilir. Bu pedaqogika təbiətəmüvafiqlik prinsipi əsasında formalaşdırılmışdır. Böyük pedaqoq tərbiyənin yeni təbi qanunlarının sorağında olmuşdur. Onun fikrincə, həmin qanunlar təlimin öz təbiətin-

dən irəli gəlməlidir. Bütün bunları əldə rəhbər tutaraq demişdir ki, düzgün tərbiyə təbiətə müvafiq şəkil almalıdır, insan təbiətin qanunlarına əsaslanmalı, bu qanunlara tabe olmalıdır.

***6. Şagirdlərin yaş, fərdi və cinsi xüsusiyyətlərinə diqqətin yetirilməsi prinsipi.*** Ailədə hələ uşaqlıq illərindən oğlanlarla və qızlarla tərbiyə işləri aparılarkən səriştəli valideynlər onların yaş, fərdi və cinsi xüsusiyyətlərinə diqqət yetirirlər. İkincisi, bu iş məktəbdə davam etdirilir. Hər iki halda onlara yaşlarına uyğun tapşırıqlar verilməlidir. Sinif müəllimləri ilə maarifləndirici işlər zamanı onlara məsləhət görülürdü ki, bu məsələni diqqət mərkəzində saxlasınlar.

Müəllimlərə deyilirdi ki, şagirdlər flora və faunamızın qorunması, onlara qayğı ilə yanaşılması işinə cəlb olunarkən onların yaş, fərdi və cinsi xüsusiyyətlərinə fikir versinlər.

***7. Mədəniyyətə müvafiqlik prinsipi*** - təhsilin ümumbəşəri mədəni dəyərlərə əsaslanmasını və milli mədəniyyətlərin dəyər və normalarına xas olan xüsusiyyətlərə uyğun qurulmasını təklif edir. Bu prinsip üzrə tərbiyənin məqsədi şəxsiyyəti öz etnik qrupunun və bütövlükdə dünyanın müxtəlif mədəniyyət təbəqələri ilə tanış etmək, özündə və ətraf aləmdəki dəyişikliklərə uyğunlaşmağın yollarının inkişafına nail olmaqdır. Prinsipin həyata keçirilməsi problemi mədəniyyətin ümumbəşəri dəyərləri ilə konkret etnik qrupların dəyərləri arasında uyğunsuzluq, bəzən isə əhəmiyyətli fərqdir.

***8. Kollektivə güvənmək prinsipi.*** Kiçikyaşlı məktəbli kollektivi daxilində qarşılıqlı əlaqə və prinsiplər pedaqoji fəaliyyətin başlıca məsələlərindəndir. Usta müəllimin rəhbərlik və nəzarət edəcəyi sinif otağındakı, dərslərdəki, təlim xarakterli sinifdənxaric məşğələlərdəki psixoloji atmosferin saf olması son dərəcə məqsədəuyğundur, şagirdlərin ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğı ilə yanaşmanı təmin edir. Bu mühüm amil sosial davranışa yiyələnməkdə şagirdə öz köməyini göstərir.

***9. Nikbinlik prinsipi.*** Bu prinsip şagirdə inam bəsləməyi, onun qüvvələrinə arxalanmağı, onu həvəsləndirməyi nəzərdə tutur. Müstəqilliyi, çalışqanlığı, təşəbbüskarlığı, təşkilatçılıq bacarığı, təlimə səyli şagirdlərlə yanaşı, təlimdə yetirməyən, təbiətə münasibətdə laqeyd məktəblilər də var. Müəllim nikbin olmalıdır ki, həmin şagirdi də nümunəvi məktəblilərin cərgəsinə qoşmaq mümkün olsun.

Müəllim bu və ya digər məsələyə nikbinliklə yanaşaraq düşünməlidir ki, o, laqeyd, təbiətə biganə məktəbliyə də təbiətə həssas və qayğıkeş münasibət aşılaya bilər.

***10. Hörmət və tələbkarlıq prinsipi*** nəzərdə tutur ki, şagird şəxsiyyətini alçaltmaq, onunla rişxənd danışmaq, onun suallarını cavabsız qoymaq, onu lağa qoymaq olmaz. Məktəblinin səhvləri varsa, onda nöqsanlar müşahidə olunursa, şəxsiyyətinə hörmət etməklə ona tələblər verilməlidir.

Sinif müəllimləri ilə maarifləndirici işlər zamanı onlara deyilirdi: şagird pedaqoji prosesin sadəcə obyekti deyil, həm də subyektidir. Bu, o deməkdir ki, məktəbli təlim prosesinin, tərbiyə prosesinin bərabərhüquqlu üzvüdür. Onun şəxsiyyətinə hörmətlə yanaşılmalıdır.

***11. Tələblərdə vahidlik prinsipi***. Azərbaycan dili, həyat bilgisi, musiqi, təsviri incəsənət və s. fənlər üzrə dərslərdə və təlim xarakterli sinifdənxaric məşğələlər zamanı şagirdlərlə Azərbaycanın flora və faunası, təbiəti ilə bağlı aparılan işlər zamanı müəllim öz tələblərində ciddi, tələbkar olmalı, eyni zamanda onun tələbləri ailədə və pedaqoji kollektivin digər üzvləri tərəfindən nəzərə alınmalıdır. I-IV siniflərdə ibtidai sinif müəllimi ilə yanaşı başqa müəllimlər də dərs deyə bilər. Məsələn, tutaq ki, bu siniflərdə musiqini başqa müəllim tədris edir. O, dərs deməklə yanaşı musiqi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələ təşkil edirsə, sinif müəllimi ilə əməkdaşlıq şəraitində fəaliyyət göstərməlidir. Yəni onun tələblərini nəzərdən qaçırmamalı, şagirdlərə münasibətdə onların tələblərində vahidlik olmalıdır.

Bitki və heyvanat aləminə, təbiətə qayğıkeş münasibət formalaşdırılarkən şagirdlərin ictimai fəallığına nail olunması çox faydalıdır. Onların ictimai fəallığı üzrə iş ailədə, eyni zamanda məktəbdə aparıla bilir. Görülən məqsədyönlü işlər onlara yaşıllıqlara qayğı göstərmək bacarığı formalaşdırır, onları gül-çiçəyə, ağaclara, bitkilərə, heyvanlara, qulluq göstərməyə alışdırır.

***Tərbiyə metodlarının tətbiqi.*** Kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə və onun əsrarəngiz gözəlliklərinə rəğbət, məhəbbət, sevgi və qayğıkeş münasibətə tələbatın formalaşdırılması işinin səmərəliliyinə nail olmaq üçün ibtidai sinif müəllimi tərbiyə metodlarının imkanlarından faydalana bilər.

Böyüməkdə olan nəslin təlimi və tərbiyəsi metodları bacarıqların, dəyərlərin, əxlaqi və sosial normaların formalaşmasını nəzərdə tutur. Başlıca vəzifə ətraf aləmə və gələcək müstəqil həyata uyğunlaşmada şagirdə yardım göstərməkdən ibarətdir.

Təhsil-tərbiyə işləri aparılarkən ibtidai sinif müəllimi konkret faktın və ya nəticənin düzgünlüyünə aydınlıq gətirir və dediklərinə şagirdləri inandırır. Burada kiçikyaşlı məktəblilərin təcrübəsinə, onların mövzuya şəxsi münasibətinə və müstəqil şəkildə cavab tapmaq bacarığına arxayın olmaq lazımdır.

İnsan övladı dünyaya gələn andan tərbiyənin predmetinə çevrilir. Yaşından, sosial mövqeyindən asılı olaraq dəyişir. Beləliklə, ta uşaqlıqdan müəyyən yaş həddinə çatana qədər insan pedaqoji təsirlər altında olur, sosial bacarıqlar təşəkkül tapır, davranış tərzi, davranışla bağlı adətlər inkişaf edir və təkmilləşir. Tərbiyə metodları çərçivəsində müəllim və şagirdlərin qarşılıqlı fəaliyyəti həyata keçir. Hər bir pedaqoji peşə sahibi, o cümlədən ibtidai sinif müəllimi öz üslubunu seçir, müxtəlif metodlardan faydalanır. Metodları "yaxşı, yaxud pis metod" kimi səciyyələndirmək məqsədəuyğun deyildir. Tərbiyənin hər bir metodun özünəməxsusluğu vardır.

Yuxarıda tərbiyə metodlarının adları artıq çəkilmişdir. Tətbiqi nəzərdə tutulan metodların mahiyyətinə və məzmununa aydınlıq gətirək:

***1. İnandırma.*** Ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğı ilə yanaşmağın vacibliyi ilə bağlı kiçikyaşlı məktəblilərlə iş zamanı onların ağlına, şüuruna təsir diqqət mərkəzində olmalıdır. Başqa sözlə, inamın tərbiyəsi öncül yer tutmalıdır. Şagirdlər inanmalı, əmin olmalıdırlar ki, təbiət, onun nemətləri şəxsiyyətin mövcudluğunun, sağlam həyat tərzinin önəmli vasitələrindəndir. Bu mənada təbiəti sevmək, onu qorumaq hamının borcudur.

İnandırma metodu, hər hansı bir anlayışın (bitki və heyvanat aləminin və s.), mənəvi mövqeyin və ya baş verənlərin qiymətləndirilməsinin məntiqi sübutunu nəzərdə tutur. Bundan başqa, şagirdlərin şüuruna anlayışlar və mühakimələr deyil, onların sübutları öz təsirini göstərir. Kiçikyaşlı məktəblilər onlara çatdırılan məlumatları qiymətləndirərək öz fikirlərini, mövqelərini təsdiqləyir, yaxud onları düzəldirlər.

Kiçikyaşlı məktəblilər təqdim olunan məlumatlara reaksiya verir, onları qiymətləndirir, öz baxışları, mövqeləri ilə təsdiq edirlər.

Məşğələdə Vaqif Səmədoğlunun eyni adlı pyesinin motivləri əsasında Ramiz Əzizbəyli və Orxan Sadıqov ssenarisi, Ramiz Əzizbəylinin quruluşçu rejissorluğu ilə çəkilmiş "Bəxt üzüyü" bədii filmindən bir fraqment nümayiş etdirilməsi məqsədəuyğundur:

Filmdən kadr:

Tanrıverdi kişi üzünü Rasimə tutaraq deyir:

- Ay Rasim. Bu ağaclar yandı günün altında. Gəl bunlara su ver.

Rasim: - Tanrıverdi dayı. Sərf eləmir.

Tanrıverdi kişi: - Necə yəni sərf eləmir?

Rasim: - Mən bunu sulayım, böyüsün, meyvəsindən onun-bunun uşağı yesin.

Tanrıverdi kişi: - Bu, podmoskovyedən gəlib, şam ağacıdır. Bunların meyvəsi olmur.

Rasim: - Onda heç sərf eləmir.

Tanrıverdi kişi: - Kölgəsi olacaq ki.

Rasim: - Böyüyəndən sonra bunun kölgəsində kim oturacaq?

Tanrıverdi kişi: - Hamı.

Rasim: - Hə, kollektiv surətdə.

Tanrıverdi kişi: - Hə.

Rasim: - Kollektivin etibarını gördük də...

Bu dialoqa şagirdlərin münasibəti öyrənilir. Təbii ki, kiçikyaşlı məktəblilər Rasimin hərəkətini təqdir etmirlər.

Müəllim ümumiləşdirmə aparır: "Bəxt üzüyü" filmi Azərbaycanın film fondunda özünəməxsus rol oynayır. Bu filmdə görkəmli aktyorlarımız, xalq artistləri Cahangir Novruzov, Afaq Bəşir qızı, Arif Quliyev, Valeh Kərimov, Muxtar Maniyev, Ramiz Əzizbəyli, həmçinin Gülşad Baxşiyeva, Ayşad Məmmədov, Firəngiz Rəhimbəyli və b. çəkilmişlər film 1991-ci ildə ekranlara çıxarılmışdır.

Film barədə ümumi məlumat verildikdən sonra, müəllim deyir:

- Uşaqlar, ola bilsin ki, bəziləriniz bu filmə baxmayıb. Mənim məqsədim bütövlükdə filmin məzmununu sizə danışmaq deyil. Sadəcə diqqətinizə çatdırılan kadra münasibət bildirmək istəyirəm. Yayın qızmar vaxtlarında üç ailə Bakı bağlarının birində kirayə tutduqları bağ evində qalır. Mehriban yaşayırlar. Bəxt üzüyünün itməsi səbəbindən aralarında anlaşılmazlıq yaranır. Bir-birindən inciyirlər. Tanrıverdi kişi müharibə veteranıdır. Zəhmətkeş adamdır. Əsa ilə yeriyir. O, ağacı özü də sulaya bilər. Lakin ayaqları sözünə baxmır ki, vedrəni quyudan su ilə doldurub ağacları sulasın. Hətta bir dəfə buna təşəbbüs göstərib, yıxılıb, əzilib, vedrə əlindən düşüb, su yerə dağılıb. Odur ki, Rasimdən xahiş edir ki, ağaclara su versin.

Rasim alverlə məşğul olan, özünü işə verməyən bir adamdır. Onu yalnız pul qazanmaq maraqlandırır. Bəlkə də o, Tanrıverdi kişinin sözünə qulaq asıb ağaclara su verərdi. Lakin bağ qonşularına acığı tutduğundan bu işdən boyun qaçırır. Təbii ki, onun hərəkəti, sizin də dediyiniz kimi yol verilməzdir. Təbiətə, ağaclara, heyvanlara qayğı göstərmək, onları qorumaq, onların yaşaması üçün kömək əlimizi uzatmaq bizim borcumuzdur.

Deyilənlərin düzgünlüyünə əmin olan məktəblilərdə cəmiyyətə, sosial münasibətlərə, ümumilikdə dünyaya özünə məxsus meydana gəlir. Müəllimdən gələn xarici təsirlər daxili prosesə çevrilir ki, bu da dünyagörüşünün formalaşmasını təmin edir.

İnandırma metodundan faydalanan müəllimin müzakirə olunan məsələ ilə bağlı şagirdlərin fakt və hadisələr barədə aydın təsəvvürə yiyələnmələrinə nail olur.

2. ***Alışdırma.*** Tərbiyə metodları arasında alışdırma metodunu öz yeri və əhəmiyyəti vardır. Uşağı, o cümlədən yeniyetməni, kiçikyaşlı məktəbliləri bu və ya digər mənəvi keyfiyyəti aşılamaqda problem yarandığı, inandırma yolu ilə tərbiyə buna nail olmaq qeyri-mümkün olduqda alışdırma metodu köməyə gəlir. Bəzi müəyyən yaş həddinə çatmış şəxslərdə olduğu kimi bir sıra məktəblilərdə də təbiətə qayğısız münasibət halları, ev heyvanlarını incitmə, ağacların budaqlarını sındırma, gül-çiçəyi tərketmə və s. bu kimi hallarla rastlaşdıqda alışdırma metodunun tətbiqi zərurətə çevrilir.

Budur, evdə uşaqlardan biri - Elxan ona tapşırılan işi vaxtlı-vaxtında yerinə yetirmir. Nəticədə dibçəkdəki gözəl güllərdən biri yanmışdır. Elxana güllərə baxmaq, qulluq göstərmək tapşırılmış, ona etibar edilmişdır. O isə göstərilən etibarı doğrultmamışdır. Sən demə, Elxan yadına nə zaman düşürsə o zaman gülləri sulayıb. Bu işi müntəzəm surətdə yerinə yetirməyib. Həmin hərəkətinə görə valideyn onu danlayır. Səhvini başa düşəcəyinə əmin olur. Lakin günlərin birində məlum olur

ki, güllər yenə də vaxtlı-vaxtında sulanmır. Bunu görən ana məktəbə getmək istəyən Elxanı geri qaytararaq:

- Əvvəlcə gülləri sula, sonra məktəbə get, - deyir. - Hələ vaxtın var. Qorxma, dərsə gecikməzsən.

Uşaq tərslik edir:

- Yox, ana, yolda bəzən tıxac olur. Dərsə gecikə bilərəm.

Ana deyir:

- İndi televizorda elan elədilər, Şərifzadə küçəsində tıxac yoxdur.

Elxan çantasını yerə qoyub gülləri sulayır, yalnız bundan sonra məktəbə yollanır.

Bu kimi hallar eyni zamanda məktəbdə də baş verə bilər.

***3. Nümunə metodu.*** Söhbət valideynin, müəllimin şəxsi nümunəsindən gedir. Bu tərbiyə metodunun də önəmli səciyyəvi cəhətləri vardır. Ata və yaxud ana, məktəbdə isə tərbiyə işləri aparan müəllim özü nümunə göstərməlidir. O özü davranışına fikir vermirsə, şagirdlərlə kobud rəftar edirsə, onların təşəbbüskarlıqlarını boğursa, müstəqilliklərini, fəallıqlarını nəzərə almırsa, təbii ki, pedaqoji əməkdaşlıqda, müəllim-şagird münasibətlərinin səmərəli qurulmasında çatlar yaranacaqdır. Müəllim özü bitki və heyvanat aləminə, təbiətə qayğısız münasibətdədirsə o, təbiətə qayğı ilə yanaşmağın vacibliyinə yetirmələrini necə inandıra biləcəkdir?!

Odur ki, çətin, lakin şərəfli peşə sahibi olan müəllim şagirdlərə yaxşı nümunə göstərməlidir. Müəllimin peşə və şəxsi keyfiyyətlərinin kamil olduğunu görən şagirdlər də özlərini müəllimlərinə oxşatmağa çalışır, peşə seçimində müəllimlik peşəsinə üstünlük verirlər.

***4. Rəğbətləndirmə metodu.*** Tərbiyə olunanın, təhsil alanın yaxşı hərəkətləri, gördüyü işin müsbət tərəfi, təlim müvəffəqiyyəti qiymətləndirilməlidir. O görməlidir, başa düşməlidir ki, çəkdiyi zəhmət hədər getməmişdir. Yəni ağac, gül-çiçək əkmiş, onun qayğısını çəkmişdir. Bu, diqqətdən kənarda qalmamışdır.

Rəğbətləndirmə kiçikyaşlı məktəblilərin nümunəvi fəaliyyətinin, tapşırığı qaydasında icra etməsinin müsbət qiymətləndirilməsinin ifadəsidir. Bu metodun tətbiqi şagirdlərin müsbət bacarıq və vərdişlərini inkişaf etdirir, məktəblilərdə müsbət emosiyalar doğurur, özünə inamı artırır. Rəğbətləndirmə düzgün və ədalətli olmalı, həm də kollektivin fikrinə uyğun gəlməlidir.

Sinif müəllimi rəğbətləndirmənin aşağıdakı növlərindən faydalana bilər: tərif, bəyənmə, şəklinin "Şərəf lövhəsi"ndə vurulması, razılıq ifadə edən baxış, məktəb radio qovşağında, divar qəzetində haqqında məlumatın verilməsi, uşağın əlini sıxmaq, mükafat, təltif, minnətdarlıq.

***5. Cəzalandırma metodu***. Ümumiyyətlə, tərbiyə, təlim işləri elə qurulmalıdır ki, cəzaya ehtiyac qalmasın. Lakin bir sıra hallarda cəzasız da ötüşmür. Təbiətə qayğısız münasibət göstərən şagirdlər, gərəkdir ki, cəzalandırılsınlar. Bu cəza nədən ibarət ola bilər? Onu danlamaq olar, adı, əməli divar qəzetində, məktəb radio qovşağında səsləndirilə bilər. Lakin cəzanın üsulu qıcıqlandırıcı tərzdə olması məsləhət bilinmir.

Cəza ədalətli olmalı, diqqətlə düşünülmüş olmalı və heç bir halda tələbənin ləyaqətini alçaltmamalıdır. Bu güclü bir üsuldur. Müəllimin cəzalandırmadakı səhvini düzəltmək hər bir işdən qat-qat çətindir, ona görə də cəzanın ədalətliyinə və onun şagirdin davranışına müsbət təsirinə tam əminlik yaranana qədər cəzalandırmağa tələsmək olmaz.

Cəzanın həlli üçün xüsusi resept yoxdur, ona görə ki, bu və ya digər fəaliyyət, yaxud hərəkət həmişə fərdi olur. Ona görə də cəzanın da fərqli olması mümkündür.

Rəğbətləndirmə və cəza təhsilalanların davranışlarını düzgün qiymətləndirmək bacarığının inkişafına imkan verir.

İbtidai sinif müəllimi kiçikyaşlı məktəblilərlə iş prosesində, onlara təbiətə qayğı ilə yanaşma adəti aşılayarkən tərbiyənin priyomlarından (tərzlərindən) da faydalanmalıdır.

Professor A.N.Abbasovun düzgün qənaətinə görə, tərbiyə priyomları dedikdə, tərbiyə metodunun komponentləri, onun tərkib hissəsi anlaşılır. Hər hansı metodun tərkibində bir neçə priyom ola bilər.

***İbtidai sinif müəlliminin peşə və şəxsi keyfiyyətləri***. Kiçikyaşlı məktəblilərlə Azərbaycanın flora və faunası, təbiəti ilə bağlı iş aparan müəllimin peşə və şəxsi keyfiyyətlərinin kamilliyi görülən tədbirlərin uğurlu nəticələnməsində mühüm rol oynayır. Peşəkarlıq və özünü pedaqoji işə həsr etmək - iki ən dəyərli keyfiyyətdir, səriştədir. Bu əsasda ideal müəllimin obrazı canlanır. Öz müəllimlik peşəsinin vurğunu olmaq, – sinif müəllimi ixtisasını (həyat bilgisi, Azərbaycan dili, musiqi, təsviri incəsənət fənlərinin səmərəli tədrisi üzrə səriştəlilik) yaxşı bilmək əlverişli təhsil mühiti yaratmağa və məktəblilərlə ahəngdar qarşılıqlı münasibətləri qurmağa imkan verir.

Sinif müəlliminin peşə keyfiyyətləri anlayışı peşə hazırlığı və iş təcrübəsi zamanı qazanılan bir çox vacib komponentləri özündə birləşdirir. Onlar pedaqoji fəaliyyətin səmərəliliyinə və uğuruna təsir göstərir və peşəkar mükəmməlliyin əsasında dayanır.

Müəllimdən, o cümlədən ibtidai sinif müəllimindən bir sıra pedaqoji qabiliyyətlərə yiyələnməsini tələb edir. Bu qabiliyyətlər onun təhsilalanlarla təlim-tərbiyə işləri aparmasında maraq, meyl və istəyində, yetirmələrinə sevgidə, onlarla ünsiyyətdən məmnunluq hissi keçirməsində özünü göstərir. Digər pedaqoji fəaliyyətləri ilə yanaşı kiçikyaşlı məktəblilərdə ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğı ilə yanaşma tərbiyəsində də aşağıdakı pedaqoji qabiliyyətlərə yiyələnməlidir: 1. Təşkilatçılıq qabiliyyətləri. 2. Kommunikativ (ünsiyyət) qabiliyyətləri. 3. Tədqiqatçılıq qabiliyyətləri. 4. Təlim qabiliyyətləri. 5. Perseptiv qabiliyyətlər. 6. Suqqestiv qabiliyyətlər və s.

1. Təşkilatçılıq qabiliyyətləri. Bu qabiliyyətə yiyələnmə sayəsində müəllim Azərbaycanın flora və faunasına, təbiətinə

qayğıkeş münasibətin formalaşdırılması üzrə işin səmərəli təşkilinin öhdəsindən bacarıqla gəlir. Eyni zamanda müəllim bu və ya digər məktəblinin, eləcə də şagirdi kollektivinin təbiətə qayğı ilə yanaşmaq və onu qorumaq istiqamətindəki fəaliyyətini yönəldir. Pedaqoji fəaliyyətin uğurlu olması bu qabiliyyətə yiyələnməkdən xeyli dərəcədə asılıdır.

2. Kommunikativ (ünsiyyət) qabiliyyətləri. Müəllim-şagird münasibətlərini, pedaqoji əməkdaşlığı təmin etmək sahəsində nümunə olur.

3. Tədqiqatçılıq qabiliyyətləri. Təbiəti sevmək, onu qorumaq istiqamətində şagirdlərlə təhsil-tərbiyə işlərini həyata keçirərkən yaranmış pedaqoji vəziyyətləri və baş verən pedaqoji pro-sesləri anlamaq və dəyərləndirmək bacarığının təşəkkülünü nəzərdə tutur.

4. Didaktik qabiliyyətlər. Təlim prosesini, şagirdləri, sinfi idarəetmə bacarığına malik olmağı tələb edir.

5. Perseptiv qabiliyyətlər. Kiçikyaşlı məktəblilərin daxili aləminə nüfuzetmə bacarığını nəzərdə tutur. Müəllim məktəblinin psixi halını anlamaqla özündə bəzi bacarıqları ehtiva edir. Onları nəzərə çatdıraq: şagirdləri, onların vəziyyətini başa düşmək, kömək əlini uzatmaq, pedaqoji müşahidəçilik, pedaqoji intuisiya və s.

6. Suqqestiv qabiliyyətlər. Təhsilalanlara emosional-iradi təsir etməklə bağlı bacarıqdır.

Hər pedaqoji peşə sahibi usta müəllim, səriştəli müəllim ola bilmir. Səriştəli müəllim bir sıra zəruri pedaqoji qabiliyyətləri özündə birləşdirməlidir. Kiçikyaşlı məktəblilərlə təbiətə qayğıkeş münasibətin formalaşdırılması üzrə işin səmərəli təşkilində haqqında danışılan qabiliyyətlə önəmli rol oynayır. İlk növbədə müəllim yaxşı mütəxəssis kimi müəyyən keyfiyyətlərə yiyələnməlidir. Onları diqqət mərkəzinə gətirək: 1. Pedaqogikanın və psixologiyanın ümumi əsaslarından xəbərdardır. 2. Öz peşəsinə dərin məhəbbəti var. 3. Tolerantdır. 4. Tələbkar və ciddidir. 5. Pedaqoji ustalığa sahib olub. 6. Şagirdləri və on-

larla təlim-tərbiyə işlərini aparmağı sevir. 7. Təhsil, tərbiyə və təlim texnologiyalarını mənimsəyib və ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə münasibətdə şagirdlərə məhəbbət, rəğbət hissləri aşılamaqda onlardan faydalanmağı bacarır. 8. Uşaqlarla işdə hörmət və tələbkarlığa əsaslanır.

İbtidai sinif müəllimi işçi kimi aşağıdakı keyfiyyətlərə yiyələnməlidir: 1. Fəaliyyətin məqsədini düzgün müəyyənləşdirir. 2. Öz ixtisasını yaxşı bilir. 3. Vaxtdan səmərəli istifadə edir. 4. Məsuliyyətlidir. 5. Vətənpərvərdir. 6. İşləməyə həvəslidir. 7. Şagirdlərlə işlərdən yorulmur. 8. Qətiyyətlidir. 9. Ədalətlidir. 10. Öz üzərində işləyir, özünütəhsillə məşğuldur. 11. Dərslərdə yeni pedaqoji texnologiyalardan faydalanır.

Müəllimin müəyyən, zəruri peşə keyfiyyətlərinə sahiblənməsi vacibdir. Onun peşə keyfiyyətləri pedaqoji ustalıq səviyyəsinin əhəmiyyətli göstəricisi hesab edilir. Müəllim, hər şeydən əvvəl peşə fəaliyyətini həyata keçirmək üçün lazım olan bilik və bacarıqlara yiyələnməlidir. Müəllimin peşə keyfiyyətləri onun ixtisası ilə bağlı qəbul edilmiş ümumi tələblərə və standartlara cavab verməlidir.

Müəllim bir şəxsiyyət, bir insan kimi də müəyyən keyfiyyətlərə malikdir. Diqqət yetirək: 1. Nümunəvi davranış və rəftara malikdir. 2. Sağlam həyat tərzi yaşayır. 3. Fəal həyat mövqeyinə malikdir. 4. Milli iftixar və qürur hissinə sahibdir. 5. Əxlaqi cəhətdən safdır. 6. Ədalətlidir. 7. Humanistdir. 8. Mərifətli və nəzakətlidir.

Müəllimin, o cümlədən ibtidai sinif müəlliminin şəxsi keyfiyyətləri onun peşə keyfiyyətləri ilə sıx surətdə bağlıdır. Belə ki, bu, peşə hazırlığı prosesində qazanılmış və xüsusi bilik, bacarıq, düşüncə tərzi və fəaliyyət metodlarına yiyələnməsi ilə bağlıdır.

# VII FƏSİL. ŞAGİRDLƏRDƏ ÖLKƏMİZİN FLORA VƏ FAUNASINA, TƏBİƏTİNƏ QAYĞIKEŞ MÜNASİBƏTİN TƏRBİYƏ OLUNMASI İŞİNƏ PEDAQOJİ RƏHBƏRLİK MƏSƏLƏLƏRİ

Kiçikyaşlı məktəblilərdə ölkəmizin flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılması üzrə sinif müəllimi tərəfindən aparılan işlər necə gəldi deyil, pedaqoji baxımdan idarə olunur. Bu prosesə rəhbərlik həyata keçirilir.

Pedaqoji rəhbərliyin, idarəetmənin səmərəliliyi şagirdlərin inkişaf qanunauyğunluqlarının nə dərəcədə öyrənilməsindən, vəziyyətin hansı səviyyədə düzgün müəyyən etməsindən, pedaqoji təsirin adekvat üsullarının lazımınca seçməsindən xeyli dərəcədə asılıdır.

Dərslərin, təlim xarakterli sinifdənxaric məşğələlərin düzgün idarə olunması və ona pedaqoji rəhbərlik məsələləri ayrı-ayrı şagirdlərin xüsusiyyətləri və özünüidarəetmə imkanları daha dolğun nəzərə alındığı təqdirdə səmərəli olur. Məktəbli idarə-etməsi bir-birinə bağlı iki proses kimi reallaşır:

1) müəllimin şagird kollektivi və ayrı-ayrı şagirdlər barədə səhih məlumata malik olması;

2) şagird kollektivinin öz-özünü idarəetmə səylərini yaxşılaşdırmaq və məktəblilərin hər birinin şəxsiyyətinə təsirini optimallaşdırmaq məqsədi ilə onun vəziyyətinə adekvat təsirlərin təşkili.

Pedaqoji rəhbərlik üsullarının optimallaşdırılmasının ən mühüm şərti şagirdlərə tərbiyəvi təsirlərin mövcudluğuna imkan verən vahid sistemə inteqrasiya prosesidir. Həmin inteqrasiyaya aşağıda göstərilənlərin köməyi ilə nail olunur:

1) kiçikyaşlı məktəblilərə göstərilən pedaqoji təsirlər kompleksindən faydalanma;

2) gündəlik həyatda sinfin şagirdlərinin bir-biri ilə səmimi rəftarı, bir-birini başa düşməsi, bir-birinə qayğısı;

3) kollektivin həyatında bu və ya digər məktəbliyə müsbət təsir göstərən vəziyyətlərin yaradılması;

4) şagirdlərin özünüidarəetmə funksiyalarının genişləndirilməsi;

5) kollektivlə iş prosesində iştirak edən hər şəxsin səylərinin birləşdirilməsi.

Kiçikyaşlı məktəblilərdə ölkəmizin flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılması üzrə işə pedaqoji rəhbərlik təcrübəsində aşağıdakı vacib qaydalar gözlənilməlidir:

1. Pedaqoji rəhbərliyi kiçikyaşlı məktəblilərin müstəqillik, təşəbbüskarlıq və özfəaliyyət göstərmək istəyi ilə uzlaşdırmaq məqsədəuyğundur. Şagirdlərin fəaliyyətini məhdudlaşdırmaq üçün deyil, yönləndirmək, əmr vermək deyil, onlarla əməkdaşlığı həyata keçirmək məsləhətdir.

2. Kollektiv dinamik bir sistem rolunu oynayır. Müəllim kollektivin inkişafının ilk mərhələsində onun yeganə təşkilatçısı kimi idarəetmə taktikasını getdikcə dəyişir.

3. Müəllim pedaqoji kollektivə arxalandığı halda öz işində yüksək nəticələr qazana bilir. O, şagirdlərin ailələri ilə əlaqə saxlayır.

4. Pedaqoji rəhbərlik şagirdlərdə mənəvi keyfiyyətlərin inkişafını gücləndirir və sürətləndirir.

5. Şəxslərarası münasibətlərin idarə edilməsi şagirdlərin qarşılıqlı fəaliyyətinin təşkilini tələbata çevirir ki, burada kollektiv üzvləri arasında şəxsi, tərəfdaşlıq və motivasiya münasibətləri dostluq birliyi, ünsiyyət və əməkdaşlıq prosesində birləşir. Buna nail olmaq asan deyil - kollektiv üzvlərinin bir-birinə seçici münasibəti həmişə mövcud olacaqdır. Müəllimin vəzifəsi başqalarına münasibətdə, tolerant, səbirli olmağı məktəblilərə öyrətməkdir.

6. Şagirdlərin kollektiv münasibətlər sistemində xoşagəlməz mövqe tutmalarının səbəblərindən biri onların yerinə yetirdiyi rolların real imkanlara uyğun olmamasıdır. Əgər

daimi və ya müvəqqəti tapşırıqlar onların maraqlarına və ya imkanlarına kömək etmirsə, o zaman onlar rəsmi şəkildə həyata keçirilir və ya ümumiyyətlə həyata keçirilir.

Kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılması üzrə işə pedaqoji rəhbərliyi təkcə sinif müəllimi həyata keçirmir. Bu sahədə digər məsələlərdə olduğu kimi məktəb pedaqoji kollektivinin ayrı-ayrı üzvləri də maraqlıdırlar. Çalışırlar ki, imkan olduqda məktəbyani sahədə ağac, gül əksinlər, torpağı şumlasınlar, torpağa peyin versinlər, ağacları dərmanlasınlar, sulasınlar. Eyni zamanda bu qayğını başqalarından da tələb etsinlər. Bu imkanlar, adətən rayon və kənd məktəblərində yaranır ki, məktəbyani sahə olduğundan şagirdlər bu işə cəlb edilirlər. Bakı məktəblərinin həyətlərində də gül-çiçək, ağaclar olur. Onlara qulluq göstərmək də şagirdlərin vəzifəsidir.

Kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılması üzrə işə pedaqoji rəhbərlikdə məktəb direktorunun və onun müavinlərinin rolu da böyükdür. Direktorun tədris işləri, sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə, ibtidai siniflər üzrə müavinləri olur. Özü və yaxud müavinləri dərslərdə, təlim xarakterli sinifdənxaric məşğələlərdə iştirak edir, təlim prosesinin təşkilini, tərbiyə işlərinin vəziyyətini öyrənir, lazım gəldikdə zəruri məsləhətlər verirlər.

Ümumtəhsil müəssisəsinin ali orqanı var: pedaqoji şura. Pedaqoji rəhbərliyin həyata keçirilməsində pedaqoji şura böyük rol oynayır.

Respublika Təhsil Nazirliyinin 19 noyabr 2010-cu il tarixli, 1486 nömrəli əmri ilə təsdiq olunmuş "Ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası haqqında Əsasnamə"də [50] onun vəzifələri müəyyənləşdirilmişdir. Həmin vəzifələrdən bəzilərini diqqət mərkəzinə gətirək:

"3.1.2. Aşağıdakı məsələlər ətrafında müzakirələr keçirib müvafiq qərarlar qəbul etmək:

3.1.2.3. Fənlərin tədrisi vəziyyətinin öyrənilməsinə dair monitorinqlərin nəticələri.

3.1.2.6. Dərsdənkənar məşğələlərin təşkili, dərnək, klub, studiya, "Kiçik akademiya" və digər bu kimi şagird birliklərinin fəaliyyəti.

3.1.3. Pedaqoji Şura iclaslarında bunlarla yanaşı, zəruri hesab edilən digər məsələlər də müzakirə oluna bilər" [50].

"Əsasnamə"də pedaqoji şuranın qarşısında duran hüquqlara da aydınlıq gətirilmişdir. Fikir verək: "4.1.4. İbtidai təhsil səviyyəsində mövcud tədris proqramlarını mənimsəməyən şagirdləri psixoloji-tibbi-pedaqoji müayinəyə göndərmək" [50].

"Əsasnamə"nin 3.1.3. bəndində, qeyd olunduğu kimi, Pedaqoji Şura iclaslarında bunlarla yanaşı, zəruri hesab edilən digər məsələlər də müzakirə oluna bilər". Deməli, pedaqoji rəhbərliyi həyata keçirən zaman Pedaqoji Şuranın iclasında şagirdlərin, o cümlədən kiçikyaşlı məktəblilərdə ölkəmizin florasına və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılması üzrə aparılan işlərin vəziyyəti də müzakirə oluna bilər. Dərslərdə və təlim xarakterli sinifdənxaric məşğələlərdə bu işin təşkili vəziyyətinə münasibət bildirilər. Yaxşı cəhətlər təqdir edilər, bəzi məsələlərlə bağlı təkliflər irəli sürmək mümkündür.

Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 2014-cü il 6 noyabr tarixli, 1/2 nömrəli qərarı ilə "Müəllimlərin etik davranış qaydaları" [34] təsdiq olunmuşdur. Həmin "Qaydalar"da etik davranış prinsipləri, həmçinin onlara uyğun tələblər; müəllim şəxsiyyəti; təhsilalanlarla münasibət və s. bu kimi məsələlər öz əksini tapmışdır. Eyni zamanda "Müəllimin andı" verilmişdir.

Müəllim şəxsiyyətdən söz açılarkən məsləhət bilinir ki, müəllim: "3.2. təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırır, onları vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik ruhunda tərbiyə edir, müstəqil həyata və əmək fəaliyyətinə hazırlayır. 3.8. pedaqoji etika və əxlaq normalarına riayət edir,

müəllim nüfuzunu yüksək tutur, ziyalılıq nümunəsi göstərir. 3.9. şəxsi nümunəsi ilə təhsilalanlarda ətraf mühitə hörmət və qayğı hissi aşılayır. 3.10. təhsilalanların şərəf və ləyaqətinə hörmətlə yanaşır, əsassız mühakimələrə yol vermir, obyektivlik və qərəzsizlik nümayiş etdirir" [34].

"Qaydalar"da təhsilalanlarla və təhsil müəssisəsi kollektivilə münasibətlərdən danışılır. Təhsilalanlarla münasibətlərdən bəzi məqamların üzərində dayanaq: "4.1.1. təhsilalanlarla münasibətdə qarşılıqlı hörmətə əsaslanan ünsiyyət tərzi seçməlidir. 4.1.2. özünə və təhsilalanlara qarşı tələbkar olmalı, bu tələbkarlıq əsaslı və müsbət xarakter daşımalıdır. 4.1.3. təmkinli davranmalı və hər bir vəziyyətdə özünü ələ almağı bacarmalıdır. 4.1.9. təhsilalanlara qarşı fiziki zor işlətməməli, onların şərəf və ləyaqətini alçaldan hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir" [34].

Məlum olduğu kimi, tibb universitetlərinin, eləcə də tibb kolleclərinin tələbələri təhsillərini başa vurub əmək fəaliyyətinə başlamaq ərəfəsində olarkən onlar "Hipokrat andı" içirlər. Çox yaxşı haldır ki, "Müəllimlərin etik davranış qaydaları"nda "Müəllimin andı" öz ifadəsini tapmışdır. Fikir verək:

***5. "Müəllim andı"***

5.2. Müəllim daimi işə qəbul olunarkən belə bir and içir: "Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət edərək Azərbaycan təhsilinin ənənələrinə sadiq qalacağıma, keyfiyyətli təhsil xidməti göstərəcəyimə, peşəkar fəaliyyət zamanı qeyri-etik davranışın hər hansı bir formasına yol verməyəcəyimə, həmkarlarım, təhsilalanlar, valideynlər və digər şəxslərlə münasibətləri hörmət, şərəf və ləyaqət əsasında quracağıma, müəllim adını və şərəfini uca tutacağıma and içirəm" [34].

Çox diqqətəlayiq məsələdir. Müəllimlər də and içib pedaqoji fəaliyyətə başlamalıdırlar.

# VIII FƏSİL. COP 29 – DÜNYADA VƏ AZƏRBAYCANDA İQLİM DƏYİŞİKLİKLƏRİ İLƏ BAĞLI PROBLEMLƏRİN MÜZAKİRƏSİNİ NƏZƏRDƏ TUTAN VƏ GÖZLƏNİLƏN FƏSADLARIN ARADAN QALDIRILMASINA KÖMƏK GÖSTƏRƏCƏK ƏHƏMİYYƏTLİ TƏDBİR KİMİ

## 8.1. COP 29-la bağlı ibtidai sinif müəllimlərinin bilməli olduqları məsələlər

2024-cü il noyabrın 12-22-ci günlərində Bakıda təntənəli şəkildə, böyük ruh yüksəkliyi və yüksək səviyyədə İqlim Dəyişikliyi Konfransı keçirildi. Məqsəd planetdə istiliyin kəskin artması və artmaqda davam etməsi, ekoloji böhranın son dərəcə təhlükəli olma səbəbindən dövlətlərin bir araya gələrək, iqlim maliyyəsi məsələsini həll etməklə ümumi qərar qəbul etməsi və Yer üzünü fəlakətdən qurtarmaqdır.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş Sammit iştirakçılarını salamladılar.

İlham Əliyevin çıxışında əsasən aşağıdakı məsələlər diqqət mərkəzinə gətirildi:

1. Respublikamızın Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu bir ölkə olması.

2. Azərbaycanın müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini salmaq imkanına malik olması.

3. Respublikamızın meqalayihələrinin Avrasiyanın enerji və daşımalar yollarını dəyişdiyi, məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının təşəkkülü ilə nəticələndiyi.

4. Azərbaycanın Yaşıl gündəliyi ilə bağlı aydın təsəvvür yaradıldı.

5. Ölkəmizdə bərpaolunan enerjidə texniki potensialımızın quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil etdiyi.

6. 2023-cü ildə Birləşmiş Ərəb Əmirliyinin Masdar şirkətinin regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyası açması.

7. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkətinin respublikamızda 240 meqavatlıq külək enerjisi stansiyasını tikməsi.

8. COP29 çərçivəsində Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının Cəbrayıl rayonunda inşası ilə əlaqədar saziş imzalayacağı.

9. Həmin layihə əsasında dünyanın ən iri neft və qaz terminallarından olan Səngəçal terminalında dekarbonlaşmanın təmin ediləcəyi.

10. Ölkəmizin 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırdığı.

11. 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalandığı.

12. Ölkəmizdə ixrac bazarlarına diqqətin yetirilməsi.

13. Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan əhəmiyyətli enerji təhlükəsizliyi layihəsinin reallaşdırılması sahəsində görülən işlər.

14. Yaşıl gündəliyimizin respublikamızın ayrı-ayrı bölgələrini əhatə etməsi.

15. Naxçıvan, Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji zonaları elan olunduğu.

Cənab İlham Əliyev öz çıxışında göstərdi ki, bütün dünyada sənaye üsulu ilə ilk neft quyusu 1846-cı ildə Bakıda qazılmışdır. Dənizdə ilk neft quyusu da Xəzər dənizində XX

əsrin ortalarında qazılmışdı. XX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü [26].

Cənab İlham Əliyev mərasimdə Azərbaycanı yersiz suçlayan bəzi Qərb ölkələrinə kəskin cavab vermişdir. Diqqət yetirək: "Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi də bizi neft dövləti adlandırırlarsa, bu ədalətsizlikdir. Azərbaycan qlobal neft hasilatında 0,7 %, qlobal qaz hasilatında isə 0,9 % paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır. Yaxşı olardı ki, ən azı onlar özlərində və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarıdakı payı cəmi 0,1 faizdir" [26].

Cənab Prezidentin çıxışında eyni zamanda aşağıdakı fikirlər səsləndi: "Digər ittiham məsələsinə gəldikdə, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Bu, bizim ideyamız deyildi. Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Yardım xahiş etdilər. Razılaşdıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alıb" [26].

Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nə-

zarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib" [26].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışında diqqət yetirdiyi məsələlərlə bağlı kiçikyaşlı məktəblilərə, onların yaş və anlaq səviyyələri nəzərə alınmaqla, məlumat verilir. Həmin məsələləri hansı səviyyədə öyrəndiklərini bilmək üçün eyni zamanda onlara suallarla müraciət olunur.

***Suallar*:** 1. Dünyada sənaye üsulu ilə ilk neft quyusu hansı ölkədə, hansı şəhərdə qazılmışdır? (Azərbaycanda, Bakıda) 2. Dünyada sənaye üsulu ilə ilk neft quyusu neçənci ildə qazılmışdır? (1846-cı il) 3. Azərbaycan müxtəlif beynəlxalq iştirakçılar arasında hansı körpüləri salmaq imkanına malikdir? 4. Ölkəmizin 2030-cu ilə qədər neçə giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırılıb? 6. Hansı ərazilərimiz yaşıl enerji zonaları elan olunub?. 7. COP29 çərçivəsində Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının hansı rayonda inşası ilə əlaqədar saziş imzalanacaq? (Cəbrayıl rayonunda). 8. Hazırda Azərbaycan qlobal neft hasilatında neçə faiz, qlobal qaz hasilatında neçə faiz paya malikdir (qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir). 9. Azərbaycanın qlobal qaz atılmalarındakı payı neçə faizdir? (qaz atılmalarındakı payımız cəmi 0,1 faizdir). 10. İqlim Dəyişikliyi Konfransında neçə ölkədən neçə min iştirakçı olmuşdur? (196 ölkədən gəlmiş 72 min iştirakçı).

Sonra BMT-nin Baş katibi Antonio Quterreş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciətlə öz çıxışında dedi: "Sizin səyiniz nəticəsində uğurlu bir COP-a imza artacağıq. Hər kəsə bu COP-da ehtiyacımız var. Biz qlobal temperaturların 2,5 selsiyə çatdırılmasına yaxınlaşırıq. Bu, 2024-cü ilin əlavəsi və ən yüksək temperatur olaraq ən isti il olacaqdır. İqlim baxımından görürük ki, növbəti qasırğa çatmamış ailələr artıq evlərindən qaçırlar, biomüxtəliflik dağılır.

Hər yerdə Günəş və külək enerjisi istehsalı ən ucuz variantdır. Ona görə bu resursların, karbohidrogen resurslarının olmaması problem olmayacaqdır” [26].

BMT-nin Baş katibi Antonio Quterreş çıxış ilə də bağlı şagirdlərə suallar verildi:

***Suallar:*** 1. BMT-nin Baş katibinin sözlərinə görə, biz qlobal temperaturların hansı rəqəmə çatdırılmasına yaxınlaşırıq? (qlobal temperaturların 2,5-ə çatdırılmasına yaxınlaşırıq). 2. BMT-nin Baş katibinin sözlərinə görə, hansı enerjisi istehsalı ən ucuz variant ola bilər? (Günəş və külək enerjisi istehsalı ən ucuz variantdır). 3. BMT-nin Baş katibinin sözlərinə görə, insanlar nələrdən əziyyət çəkirlər? (Daşqınlardan, infrastrukturu dağıdılan təbii fəlakətlərdən, quraqlıqdan əziyyət çəkirlər).

Malayziyanın paytaxtı Kuala Lumpurun meri Maimuna Mohd Şərif öz çıxışında aşağıdakı məsələlərə toxunmuşdur: “İqlim dəyişmələrinin təhlükələri çox realdır. Bizim şəhərimizdə də uzunmüddətli istilik dalğalarından tutmuş ən böyük qasırğalara qədər müxtəlif təbii fəlakətlərin şahidi oluruq. Şəhərlərdə yaşıllıq sahələrinin yaradılmasına investisiya ayırmalı, karbon emissiyalarının azaldılmasına töhfə verməliyik. 2040-cı ilə qədər 1,3 milyard plastik torba artıq mühitdə olacaq. Bizim qanımızda, hətta uşaqların, hamilə qadınların qanında mikroplastik elementlər qeydə alınır” [26].

Mərasimin keçirildiyi müddətdə çıxış edən dövlət və hökumət başçılarının məruzələrində böhranlı vəziyyətdən çıxmaqla bağlı son dərəcə önəmli fikirlər səslənmişdir. Həmin qənaətləri ibtidai sinif müəllimlərlə bölüşməyi məqsədəuyğun hesab etdik. Onlar kiçikyaşlı məktəblilərdə ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğıkeş münasibəti formalaşdırarkən həmin fikirlərdən faydalana biləcəklər.

* Hazırki vaxtda iqlim dəyişmələri ilə mübarizə tədbirləri ekoloji məsələ olmaqdan daha vacib xarakter alıb.

* Azərbaycan Respublikası ekologiya problemlərinin, insanlığın gələcək taleyinin həllinə kömək barədə düşünür və bu istiqamətdə fəaliyyət göstərir.

* Azərbaycan Respublikası iqlim problemlərinə tutarlı maliyyə vəsaiti sərf edir.

* Azərbaycan Respublikası inkişaf etməkdə olan ölkələrə, kiçik ada dövlətlərinə dəstək nümayiş etdirir.

* İqlim dəyişiklikləri ilə mübarizə təkcə ayrı-ayrı ölkələrin deyil, eyni zamanda hər bir şəxsin ən zəruri vəzifəsi olmalıdır.

* COP29-da qlobal iqlim siyasəti və fosil yanacağından imtina ilə bağlı məsələ nəzərən keçirilib. Bildirilib ki, ABŞ, Böyük Britaniya, Norveç, Avstraliya və Kanada 2050-ci ilə kimi bütün neft və qaz layihələrini 51%-ni həyata keçirməyi nəzərdə tutub. Həmin ölkələr iqlim öhdəliklərini yerinə yetirmək istəmirlər.

Mərasimdə vurğulanıb ki, ABŞ dünyada çox böyük fosil yanacaq istehsalçısıdır. Həmin sahəni 2030-cuilədək 200% artırmaq istəyir. Əslində isə, hazırda, günün bu günü fosil yanacaq dövrünü sona çatdırmaq tələbi irəli sürülür.

* İqlim dəyişiklikləri ilə mübarizənin uğurla aparılmasından ötrü hər il 1,3 trilyon ABŞ dolları məbləğində xərc tələb olunur.

* Kiçik ada dövlətlərinin yoxolma təhlükəsi anbaan yaxınlaşır. Mümkün tədbirlər görülməsə dəniz səviyyəsinin artması ilə bağlı həmin dövlətlərdə yaşayan milyonlarla insanın həyatı tükdən asılı olacaqdır. Bu bəlanı aradan qaldırmaqla bağlı rəy mübadiləsi aparılmıdır.

* Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da su qıtlığı gözlənilir. Belə ki, 2050-ci ilədək su ilə bağlı israfçılığa yol versək, respublikamızda su ehtiyatı 40% azalacaqdır. İçməli su probleme çevrilə bilər.

Suyun azalması həyatın azalması, başqa sözlə, tükənməsi, ömrün qısalması deməkdir. Bu, bir həqiqətdir ki, canlıların

normal yaşaması, sağlam həyat tərzi keçirmələri üçün saf, təmiz hava, su, qida lazımdır.

* Xəzər dənizi 5 ölkənin əhatə dairəsindədir. Bu dənizə müxtəlif çayların suyu axır. Bu çaylardan ən çox Volqa çayı Xəzəri çirkləndirir. Bu çayın ətrafında, yan-yörəsində 20-25 milyon əhali yaşayır. Volqanın çirklənməsi onlar üçün də təhlükələr yaradır. Sənaye komplekslərinin tullantıların gəlib dənizə tökülür. Bu eyni zamanda Xəzərdəki canlıların, qiymətli və nadir balıqların məhvi deməkdir.

Bundan başqa, son illər Xəzər dənizində buxarlanmaların sayı artıb, Xəzərin suyu da get-gedə azalır.

* İqlim Dəyişikliyi Konfransında kiçik ada dövlətlərinin problemlərinə toxunulub. Dənizlərin suyunun çoxalması bu adaları təhlükə qarşısında qoyur.

* Avstraliyada yanğınlar, İspaniyada daşqınlar tüğyan edir. Son dövrlərdə başqa ölkələrdə də meşə yanğınları, daşqınlar, sunamilər artmışdır.

* Buzlaqlar əriməkdədir. Bunun qarşısı alınmalıdır.

* İstiliyin 2,0 dərəcəyə, mümkünsə 1,5 dərəcəyə çatdırılması son dərəcə vacibdir. Bu, XVIII əsrə uyğunlaşdırılmalıdır.

* Dövlətlərin heç biri İqlim Dəyişikliyi probleminin mümkün həllindən kənarda qala bilməz. İqlim dəyişiklikləri sərhəd tanımır.

* Okeanlar çirklənməyə məruz qalıb. Norveç ən çox neft istehsal edən ölkədir, okeanı çirkləndirir. Delfinlər, köpək balıqları kütləvi qırılmağa məruz qalıb. Hətta onların nəslinin kəsilməsi ehtimalı vardır.

* Nigeriyanın özünə gəlməsi, ekoloji böhrandan bir təhər qurtulması üçün 6 milyard dollara ehtiyacı vardır.

* İqlim dəyişmələrinin mənfi təsiri ilə daha çox inkişaf etməkdə olan kiçik ada dövlətləri qarşılaşıb. Həmin dövlətlər bundan son dərəcə əziyyət çəkirlər. Cənab İlham Əliyev kiçik ada dövlətlərinin Sammitində inkişaf etmiş ölkələrə, eyni zamanda vaxtilə müstəmləkədə olmuş ölkələrə müraciətlə deyib

ki, kiçik ada dövlətlərinə kömək əllərini uzatsınlar. Həmin kömək, təbii ki, maddi və texnikli dəstəkdən ibarətdir. Azərbaycan Qoşulmama hərəkatına 4 il sədrlik edib. Həmin müddətdə 80-dən çox ölkəyə, xüsusən 20 kiçik ada dövlətinə həm maliyyə, həm də humanitar kömək edib.

* Xəzər dənizi getdikcə dayazlaşır. Cənab İlham Əliyev bu dayazlaşmanı çaylarımızdakı suyun azalmasında, həmçinin dağlarımıza qarın az düşməsində görür.

* Bir çox kiçik ada dövləti ölkəmizdəki ali məktəblərində təhsil almaq üçün tələbə təqaüdü proqramlarından faydalanıb.

* Millətlər Təşkilatının kiçik ada dövlətlərindəki birgə layihələrinə kömək məqsədilə ölkəmiz 10 milyon ABŞ dolları həcmində yardım göstərmişdir.

Yuxarıdakı məsələlərlə bağlı ibtidai sinif müəllimi aşağıdakı sualları şagirdlərinə verə bilər.

***Suallar:*** 1. İqlim dəyişiklikləri ilə mübarizə təkcə ayrı-ayrı ölkələrin işidirmi? (Xeyr, bu həm də hər bir şəxsin ən zəruri vəzifəsidir). 2. Hansı ölkələr 2050-ci ilə kimi bütün neft və qaz layihələrinin 51%-ni həyata keçirməyi nəzərdə tutub? ABŞ, Böyük Britaniya, Norveç, Avstraliya və Kanada). 3. Dünyada çox böyük fosil yanacaq istehsalçısı hansı dövlətdir? (ABŞ). 4. ABŞ həmin sahəni 2030-cu ilədək neçə % artırmaq istəyir? (200 % artırmaq istəyir). 5. İqlim dəyişiklikləri ilə mübarizənin uğurla aparılmasından ötrü hər il nə qədər məbləğində xərc tələb olunur? (hər il 1,3 trilyon ABŞ dolları məbləğində). 6. 2050-ci ilədək su ilə bağlı israfçılığa yol versək, respublikamızda su ehtiyatı neçə % azala bilər? (40% azalma ehtimalı var). 7. Volqa çayının ətrafında təxminən neçə milyon əhali yaşayır? (20-25 milyon). 8.Azərbaycan Respublikası Millətlər Təşkilatının kiçik ada dövlətlərindəki birgə layihələrinə kömək məqsədilə neçə milyon ABŞ dolları həcmində yardım göstərib? (10 milyon dollar).

* COP28-də növbəti mərasimə - COP29-a Azərbaycanın sahiblik edəcəyinə razılıq və səs vermiş Qərb dövlətləri öz söz-

lərdə qaçdılar, bu tədbirə nəinki gəlmədilər, hətta onu baykot etməyə başladılar, tədbirdən əvvəl və tədbir baştutandan yekunlaşana qədər qara yazmalara uydular. Qərbi qıcıqlandıran, onları sakitləşməyə qoymayan nə idi? Azərbaycanın müstəqil siyasət yeritməsi. Güclü orduya malik olması.

Fəqət iqlim dəyişikliyi problemlərinə həsr edilmiş bu tədbir son dərəcədə yüksək səviyyədə keçirildi və başa çatdı.

İbtidai sinif müəllimləri COP29-da nəzərdən keçirilən məsələlərdən xəbərdar olmalıdırlar. Bu müəllimlərlə maarifləndirici işlər aparılarkən onlara ekologiya, ekoloji şüur, ekoloji təfəkkür, ekoloji təxəyyül, ekoloji davranış, ekoloji dünyagörüşü, ekoloji böhran və ekoloji təhlükələr haqqında məlumatlar verilməlidir. Ekoloji problemlər, ekoloji təhlükələr dünyanı, ölkələri sınağa çəkir, insanların rahatlığını əlindən alır.

İbtidai sinif müəllimləri öyrənirlər ki, insanlara təsirləri baxımından ekoloji təhlükələri 3 qrupa ayırırlar:

1. Şəxsiyyəti bilavasitə təhlükə ilə hədələyən amillər (hava şəraiti, təbiət hadisələri (zəlzələlər, tornadolar, vulkan püskürmələri, kosmik radiasiya, qasırğalar, sürüşmələr).

2. Bilvasitə fəaliyyət amilləri. Təbii obyektlərdən faydalanmaqla insan fəaliyyətinin mənfi hallar (radioaktiv, kimyəvi enerjiyə məruz qalma, təbii mühitin insanlardan ötrü son dərəcə ziyanlı müxtəlif maddələrlə, urbanizasiya və s. çirklənməsi).

3. İnsanların həyatı üçün təhlükəsiz şəraitin yaradılması. Lakin həmin məqsəd baxımından təbii ehtiyatlar azdır, bu isə insanlara bəxş edilən yaşayış vasitələrinin keyfiyyətsiz olması ilə nəticələnir.

İbtidai sinif müəllimi ətraf mühitin ekoloji vəziyyəti barədə məlumat verərkən aşağıdakı məsələlərə diqqəti yönəldir: Texnosfer inkişaf etdikcə biosferdə maddələrin dövranı pozulur, ətraf mühit getdikcə daha da çirklənir, təbii ehtiyatlar istifadə üçün yararlı olmur, tükənir. Təbii mühitin təmizləmə imkanı çirklənməni aradan qaldırmaq üçün kifayət deyilsə, bu, vətəndaşların səhhətinə, bərpa olunan təbii ehtiyatlara çox pis

təsir edir. Həm də bərpa olunmayan ehtiyatlar necə gəldi israf olunur və tükənir.

Daha sonra müəllim təbiətin məhv olmasının təbii-ekoloji problemləri və eyni zamanda ekoloji vəziyyətlərin tibbi və sosial miqyası üzərində dayanır. O, ekoloji vəziyyətlərin tibbi və sosial miqyasından danışarkən diqqəti aşağıdakı məsələlər yönəldir: biosferdəki mənfi dəyişikliklər insanın səhhətinə təsirsiz ötüşmür. Bu zaman təbii ekologiyanın bir sıra hallarına diqqət yönəldilir. Fikir verək:

1. Əlverişli vəziyyət: insanın həyatında davamlı artım özünü göstərir, nəticədə xəstəliklərin tezliyi azalır.

2. Ekoloji problem zonası: təbiət vəziyyətinin böhrandan kritik vəziyyətə keçidi ilə bağlı ərazi. Əhalinin sağlamlığının müəyyən göstəricilərinin normadan xeyli yüksək olması.

3. Ekoloji fəlakət zonası: insanların sağlamlıq göstəriciləri (körpə ölümü, digər yaşlı adamlar arasında xəstələnmə halları, psixi pozğunluqlar və s.).

Yuxarıda qeyd olunan göstəricilər əsas götürülərək müxtəlif ərazilərin ekoloji vəziyyətə qiymət verilir.

Sinif müəllimlərinin maarifləndirilməsi zamanı onlar ekoloji şüur, ekoloji təfəkkür, ekoloji təxəyyül, ekoloji dünyagörüşü kimi məsələlərlə tanış olmalıdırlar. Məsələn, onlara məlum olmalıdır ki, ekoloji şüur dedikdə, ölkəmizin flora və faunasını, təbiətini qorumağın vacibliyini anlamaq, ona diqqətsiz münasibətin nəticələrini başa düşməkdir. Ekoloji şüur eyni zamanda hər bir şəxsin istər bu və ya digər heyvan və bitki növlərinin, istərsə də Yer üzündəki həyatın mühafizəsinə məsuliyyətli olduğunu başa düşməkdir.

Elmi dünyagörüşünün əsasında şəxsiyyətlə təbiət arasında olan əlaqəyə aid suallara cavablar durur. Bu zaman təbiət anlayışı iki mənada işlənir: məhdud mənada o, yalnız insan fəaliyyəti ilə bağlı olan ciddi şəkildə dəyişməmiş şeyi özündə birləşdirir. Şəxsiyyət təbiətə qarşıdır.

Geniş mənada təbiət istər insanı, istərsə də dünyada onun zəhməti ilə təşəkkül tapmış hər şeyi özündə ehtiva edən Kosmos və Kainatla sinonimdir.

Bu məqamda şəxsiyyət heç də təbiətdən yuxarıda deyil, təbiətin daxilindədir, üzvi şəkildə onunla əlaqədardır, təbiətə xaricdən yox, daxildən öz təsirini göstərir. Onun zəifliyinin də, gücünün də mənbəyi bax, burdadır.

Maariflənmə zamanı sinif müəlliminə həm də məlum olur ki, ekologiya orqanizmlərin və onların öz aralarında, eyni zamanda ətraf mühitlə meydana gətirdikləri icmaların əlaqələri haqqında elmdir. Ekologiya Yer kürəsinin biosferindəki canlı və cansız təbiətin sinergik qarşılıqlı təsirinin təbii sistemi və ya enerji-informasiya matrisidir. O, insanlarla birlikdə böyüyən və təkmilləşən canlı orqanizm hesab edilir.

Ekoloji davranış dedikdə, təbii mühitə təsir və təbii ehtiyatlardan faydalanmaqla bilavasitə, yaxud və bilvasitə bağlı olan ayrı-ayrı şəxslərin xüsusi hərəkət və davranışlarının toplusu başa düşülür.

Ekoloji təxəyyül şəxsiyyətin nisbətən ümumi düşünmə qabiliyyətimizin nəticəsidir ki, o, insanlara bu və ya digər obyekti təşkil edən münasibətləri təfəkkür və fəaliyyət imkanları fonunda anlamaq imkanı verir.

Ekoloji təfəkkür kimi ekoloji təxəyyül də təbii ehtiyatlara (məsələn, su sərfiyyatının, enerji istehlakının, təbii xammalın azaldılması və s.), həmçinin tullantıların həcminin azaldılmasına (bioloji parçalana bilən materiallardan faydalanma, tullantıların təkrarən emalı və s.) diqqətli münasibət tələb edir.

## SON SÖZ

Məktəblilərdə Azərbaycan Respublikasının florasına və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılmasında ibtidai sinif müəllimin rolu böyükdür. O həm təlim prosesində, həm də təlim xarakterli sinifdənxaric məşğələlərdə bu işlə səmərəli şəkildə məşğul olmalıdır. Bunun üçün, hər şeydən əvvəl Azərbaycan dili, təsviri incəsənət, musiqi, həyat bilgisi fənlərinin imkanlarından istifadə edə bilər. Mətnlərin, şeir və hekayələrin, nağılların, rəvayət və əsatirlərin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici vəzifələrini nəzərə almalıdır.

I-IV siniflərin ***Azərbaycan dili*** dərslərində R.Əfəndiyevin "Alma ağacının əhvalı" nağılı; Akif Abbasovun "Ən güclü kimdir?", Şəfiqə Ağayevanın "Qərənfil" hekayələri; "Təmənnalı yaxşılıq" adlı əfsanə; I-IV siniflərin ***təsviri incəsənət*** dərslərində "Təbiətin gözəlliyi", "Təbiətin nemətləri", "Təbiətin rəngləri", "Təbiət və rəssam", "Rənglərin müxtəlifliyi", "Payızın sehrli rəngləri", "Heyvanların naxışlı geyimləri", "Təbiət və rəssam", "Payızın sehrli rəngləri", "Təbiəti qoruyaq", "Qış nağılı", "Yurdumuza bahar gəlir", "Təbiətin gözəlliyi tikmələrdə", "Sualtı dünyanın sakinləri", "Təsəvvürə əsasən quşları çəkirik", "Güllərin möcüzəsi", "İnsan təbiətdən öyrənir", "Doğma diyarın rəngbərəng təbiəti", "Torpağımızın nemətləri", I-IV siniflərin musiqi dərsləri də "Salam, Payız"; Yeddi çiçək, yeddi gül "Dünya gözəldir" mahnıları; I-IV siniflərin ***həyat bilgisi*** dərslərində "Sağlamlıq", "İnsanlar və əşyalar", "Ətraf mühit", "Ehtiyatlı davranaq", "Canlılar", "Heyvanları tanıyaq", "Canlıların çoxalması və böyüməsi", "Bitkiləri tanıyaq", "Bitkilərin böyüməsi üçün nə etmək lazımdır", "Canlıların qidalanması", "Canlılar və həyat", "Torpaq", "Bitkilərin yayılması", "Bitkilərin qruplaşdırılması, "Heyvanların qruplaşdırılması", "Bitkilərin həyatımızda rolu", "Heyvanların həyatımızda rolu", "Sağlamlığımızın qayğısına qalaq", "Mühit amillərinin canlılara təsiri" və s. bu kimi mövzular

ölkəmizin təbiəti, bitki və heyvanat aləmi barədə müfəssəl material verir.

Bundan əlavə, ibtidai sinif müəllimləri adları çəkilən fənlər üzrə dərslərdə əlavə materiallardan faydalanmalıdırlar. Vəsaitdə bu imkanlar araşdırılmışdır.

Müasir dövrdə kiçikyaşlı məktəblilərin ekoloji mədəniyyətə sahiblənməsinə, onlarda ölkəmizin təbiətinə, florasına və faunasına qayğı ilə yanaşmanın bərqərar olmasına müsbət təsir edən maraqlı tədbirlər həyata keçirilir. Görülən işlər arasında “Ekologiyamızı qoruyaq”, “Ekoloji problemlər”, “Təbiətə münasibətdə qayğıkeş olaq”, “Təbiəti qorumaq bizim borcumuzdur”, “Nəqliyyat tullantıları ilə atmosferin çirklənməsi”, “Azərbaycanın flora və faunası bizim milli qürur və milli iftixar mənbəyimizdir”, “Kür və Araz çaylarının ekoloji problemləri”, “Atmosfer havasının qorunması”, “Azərbaycan Respublikası çaylarının ekoloji problemləri”, “Atmosferin çirklənməsinə yol vermək olmaz”, “Bizim hər birimiz ekoloji mədəniyyətə yiyələnməliyik”, “Havanın təbii çirklənmə mənbələri”, “Xəzər dənizinin ekoloji vəziyyəti” və s. bu kimi tədbirlər kiçikyaşlı məktəblilərin Azərbaycanın təbiətinə qayğı ilə yanaşmalarına imkan verir.

Şagirdlərin adları çəkilən tədbirlərdə iştirakı səmərəli nəticələnir. Tədbirlərə qoşulmaqla onlar ekoloji problemlərdən xəbərdar olurlar. Təbiətin taleyi ilə maraqlanmamağın necə acı nəticələr verəcəyini anlayır, torpağın, suyun, havanın çirklənməsi ilə mübarizə aparmağın vacibliyini, insan həyatında və sağlamlığında suyun əhəmiyyətinin əvəzsiz olduğunu başa düşürlər. Onlara yazılı ədəbiyyatla yanaşı folklor nümunələrinə müraciət etmək məsləhət görülür. Məlum olduğu kimi, “Kitabi-Dədə Qorqud” dastanında Qazan xan “Su haqqı” kəlməsini işlədir. Başqa sözlə, o, suya and içir.

Bu, təsadüfi sayılmır. Qədim Türk tayfaları, qədim azərbaycanlılar suyu müqəddəs bilmişlər. Bu məlumatı alan şagird-

lər suyu qənaətlə işlədir, onun bihudə yerə axıb getməsinə yol vermirlər.

I-IV siniflərdə keçilən fənlərin imkanları vardır ki, məktəblilərdə Azərbaycanın flora və faunasının zənginləşdirilməsi və mühafizəsinə qayğı ilə yanaşmağa tələbat formalaşdırılsın, siniflərdə sistemli və müntəzəm ekoloji maarifləndirmə işləri aparılsın, ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğılı münasibət yaradılsın. Söylədiyimiz kimi, bu sahədə Azərbaycan dili, həyat bilgisi, musiqi, texnologiya, təsviri incəsənət fənləri mühüm rol oynayır.

Sözü açılan məsələlərlə bağlı dərslərlə yanaşı təlim xarakterli sinifdənxaric məşğələlər də mühüm təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici rol oynayır.

Sinif müəllimləri yaranmış imkanlardan faydalanmalıdırlar. Təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycanımızın təbiətinə, flora və faunasına aid materialları diqqət mərkəzinə gətirməli, şagirdlərin onlardan tərbiyəvi nəticələr çıxarmalarına nail olmalıdırlar.

İbtidai təhsil illəri kiçikyaşlı məktəblilərin ölkəmizin flora və faunasına, təbiətinə dair ilkin təsəvvürlər yaradır, respublikamızın bitki və heyvanat aləmini qorumağı, zənginləşdirməyi, onlara qulluq göstərməyi tələbata çevirir.

İbtidai sinif müəllimləri dərsləri, təlim xarakterli sinifdənxaric məşğələləri optimallaşdırmaq üçün səmərəli metodlardan faydalanmalıdırlar.

Təlim xarakterli sinifdənxaric məşğələlərdə bu kimi məlumatların verilməsi məktəblilərin həm respublikamızdakı ekoloji problemlərlə bərabər, beynəlxalq aləmdəki ekoloji böhran və fəlakətlərdən də xəbər tutmalarına imkan verir. Şagirdlər Yer üzündəki ekoloji aləmi öz "Yaşıl evləri" bilir, onun taleyinə görə də narahat olurlar.

Azərbaycanın florası və faunası ilə yaxından tanış olmaq, onların mühafizəsinin vacibliyini anlamaq və bu istiqamətdə səmərəli fəaliyyət göstərmək üçün sinif müəllimləri tərbiyənin

prinsiplərini öz fəaliyyətlərində, şagirdlərlə işdə rəhbər tutmalıdırlar. Aşağıdakı prinsiplərdən istifadə məsləhət bilinir:

- təhsil-tərbiyə işlərinin həyatla, dinc quruculuq ilə əlaqələndirilməsi prinsipi;
- məqsədaydınlığı prinsipi;
- bitki və heyvanat aləminə rəğbət, məhəbbət və qayğılı münasibətin təşəkkül etdirilməsi məqsədilə sistemlilik, fasiləsizlik prinsipi;
- şagirdlərin yaş, fərdi və cinsi xüsusiyyətlərinə diqqətin yetirilməsi prinsipi;
- nikbinlik prinsipi;
- hörmət və tələbkarlıq prinsipi;
- tələblərdə vahidlik prinsipi.

Kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə və onun əsrarəngiz gözəlliklərinə rəğbət, məhəbbət, sevgi və qayğıkeş münasibətə tələbatın formalaşdırılması işinin səmərəliliyinə nail olmaq üçün ibtidai sinif müəllimi tərbiyə metodlarının imkanlarından faydalana bilər.

Şagirdlərin təlimi və tərbiyəsi ilə bağlı metodlar bacarıqların, dəyərlərin, əxlaqi və sosial normaların formalaşmasını nəzərdə tutur. Başlıca vəzifə ətraf aləmə və gələcək müstəqil həyata uyğunlaşmada şagirdə yardım göstərməkdən ibarətdir.

Təhsil-tərbiyə işləri aparılarkən ibtidai sinif müəllimi konkret faktın və ya nəticənin düzgünlüyünə aydınlıq gətirir və dediklərinə şagirdləri inandırır. Burada kiçikyaşlı məktəblilərin təcrübəsinə, onların mövzuya şəxsi münasibətinə və müstəqil şəkildə cavab tapmaq bacarığına arxayın olmaq lazımdır.

I-IV sinif şagirdlərində ölkəmizin flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılması üzrə sinif müəllimi tərəfindən aparılan işlər necə gəldi deyil, pedaqoji baxımdan idarə olunur. Bu prosesə pedaqoji rəhbərlik həyata keçirilir.

Pedaqoji rəhbərliyin, idarəetmənin səmərəliliyi şagirdlərin inkişaf qanunauyğunluqlarının nə dərəcədə öyrənilməsindən,

vəziyyətin hansı səviyyədə düzgün müəyyən etməsindən, pedaqoji təsirin adekvat üsullarının lazımınca seçməsindən xeyli dərəcədə asılıdır.

İbtidai sinif müəllimlərinin COR29-la bağlı məsələlərə bələdçiliyi son dərəcə vacibdir. Onlar Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışları və 29-cu sessiyanın (COP29) Liderlər Sammitinin açılış mərasimində BMT-nin Baş katibi Antonio Quterreşin çıxışı ilə yaxından tanış olmalı, eyni zamanda həmin çıxışların başlıca müddəalarına dair kiçikyaşlı məktəblilərdə onların yaş və anlaq səviyyələrinə uyğun təsəvvür yaratmalıdırlar.

# ƏDƏBİYYAT


1. Abbasov, A.N. Xallı kəpənək (hekayələr). – Bakı: Mütərcim, 2009. –56 s. s.15-17, s. 17-19.
2. Abdulla, Ş. Bahar. https://portal.azertag.az/az/node/5491
3. Ağayeva, Ş. Qərənfil (hekayə) https://portal.azertag.az/az/node/30163
4. Ağayeva, Z. Yeddi çiçək, yeddi gül. https://www.youtube.com/watch?v=ahHM-6axmM8
5. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, II cild. – Bakı: Şərq-Qərb, – 2006. – s. 202.
6. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan müəllimi, – 2013, 25 oktyabr .
7. Azərbaycan zəngin flora və faunaya malikdir https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_faunas%C4%B1
8. Bayramov, Ə.S. Psixologiya. Ali məktəblər üçün dərslik / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. – Bakı: Çinar-Çap, – 2002. – 376 s.
9. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransı (2024) https://az.wikipedia.org/wiki/Birl%C9%99%C5%9Fmi%C5%9F_Mill%C9%99tl%C9%99r_T%C9%99%C5%9Fkilat%C4%B1n%C4%B1n_%C4%B0qlim_D%C9%99yi%C5%9Fikliyi_Konfrans%C4%B1_(2024)
10. Cabbarlı, N. Həyat bilgisi: IV sinif üçün dərslik. / N.Cabbarlı, K.Mahmudova – Bakı: Şərq-Qərb MMC, – 2023, – 122 s.
11. Cəfərzadə, K., Cəlilova, Y. Təsviri incəsənət: III siniflər üçün dərslik: – Bakı: Bakınəşr, – 2022. – 66 s.
12. Cəlilova, Y., Cəfərzadə, K. Təsviri incəsənət: IV siniflər üçün dərslik IV sinif: – Bakı: Şərq-Qərb, – 2019. – 73 s.
13. Cəfərzadə, K. Təsviri incəsənət: Ümumtəhsil məktəblərinin I sinifləri üçün dərslik / K.Cəfərzadə,– Bakı: Bakınəşr, – 2021. – 81 s.

14. Cəlilova, Y., Kəmalə, K. Təsviri incəsənət: II siniflər üçün dərslik: – Bakı: Bakınəşr, – 2021. – 57 s.
15. Erməni işğalının vurduğu ekoloji ziyan https://novator.az/2017/02/27/erm-ni-isgalinin-vurdugu-ekoloji-ziyan/
16. Əhməd Cəmil Vətən. https://e-derslik.edu.az/books/317/units/unit-1/page68.xhtml
17. Əfəndiyev, R. Seçilmiş əsərləri. / R.Əfəndiyev, – Bakı: Şərq-Qərb, – 2006. – 120 s. s. 29
18. Ələkbərov Ş., F., İmanov F., Mehdiyeva E., İslamzadə G., Yunusov Y., Kazımzadə E. Həyat bilgisi: I sinif üçün dərslik. – Bakı: CN Poliqraf MMC, – 2023, – 82 s.
19. Ələkbərov F. Həyat bilgisi: II sinif üçün dərslik. / F.Ələkbərov, E.İmanov, Y.İslamzadə, E.Kazımzadə, G.Mehdiyeva, E.Yunusov, İ.Tağıyeva – Bakı: Çaşıoğlu, – 2024, – 96 s.
20. Əzizova F., Mahmudova K., Cabbarlı N. Həyat bilgisi: III sinif üçün dərslik. – Bakı: Radius MMC, – 2022, – 105 s.
21. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / Ə.Ə. Əlizadə. – Bakı: Ozan, – 1998. – 367 s.
22. İsmayılov R. Azərbaycan dili. IV sinif üçün dərslik. / R.İsmayılov, Ü.Nurullayeva, Ş.Zahidova, İ.Bayramova, A.Xanalıyeva, K.Məhyəddinova – Bakı: Şərq-Qərb ASC, – 2023, – 112 s.
23. Hüseyn, A. “Təbiət düşünür”. https://portal.azertag.az/az/node/13780
24. Günəş olaram mən də https://www.youtube.com/watch?v=mwwxnkqJqok
25. İbrahimova, G. Dünya gözəldir. https://www.youtube.com/watch?v=O8cV18iVHQo
26. İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışı https://president.az/az/articles/view/ 67281

27. Səfərli, İ. Azərbaycanım. https://menazerbaycanliyam.wordpress.com/az%C9%99rbaycan-v%C9%99t%C9%99n-torpaq-seirl%C9%99r/
28. Səfərli, İ. Seçilmiş əsərləri. / İ.Səfərli,– Bakı: Lider, – 2005. – 224 s.
29. Kəndimiz (mahnı) https://www.youtube.com/watch?v=orqyRtue_VM
30. COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammiti keçirilib. // Respublika, – 2024, 14 noyabr, № 250, – s. 3.
31. “Qara ilan” Azərbaycan xalq nağılı https://portal.azertag.az/az/node/30561
32. Quşlar (mahnı) https://www.youtube.com/watch?v=0e0fR8PRRSU
33. Mirzəyev, M. “Təbiət nəğməsi” (https://www.youtube.com/watch?v=hEAzJf8B4qA) mahnılarında faydalanmaq tövsiyə olunur.
34. Müəllimlərin etik davranış qaydaları chrome-extension:-//efaidnbmnnnibpcajpcglclefindmkaj/https://edu.gov.az/upload/file/emre-elave/2014/muellimlerin-etik-davranis-qaydalari.pdf
35. Nurullayeva Ü. Azərbaycan dili. II sinif üçün dərslik. / Ü.Nurullayeva, İ.Bayramova, A.Xanalıyeva, K.Məhyəddinova – Bakı: Təhsil NP MMC, – 2021, – 106 s.
36. Nurullayeva, Ü. Azərbaycan dili. III sinif üçün dərslik / Ü.Nurullayeva, İ.Bayramova, A.Xanalıyeva, K.Məhyəddinova – Bakı: Radius MMC, – 2023, – 106 s.
37. Nuşabə youtube Nuri. Salam, payız. https://www..com/watch?v=X2KzO3oqnSI):
38. Rəcəbova N. Ümumtəhsil məktəblərinin I sinifləri üzrə Musiqi fənni üzrə dərslik. / N.Rəcəbova, Ş.Quliyeva, Z.Əliyeva – Bakı: Şərq-Qərb ASC, – 2024. – 82 s

39. Rəcəbova N. Ümumtəhsil məktəblərinin II sinifləri üzrə Musiqi fənni üzrə dərslik. / N.Rəcəbova, Ş.Quliyeva, Z.Əliyeva – Bakı: Şərq-Qərb ASC, – 2021. – 66 s.
40. Rəcəbova, N. Ümumtəhsil məktəblərinin III sinifləri üzrə Musiqi fənni üzrə dərslik. / N.Rəcəbova, Ş.Quliyeva, Z.Əliyeva – Bakı: Şərq-Qərb ASC, – 2022. – 66 s.
41. Rəcəbova N., Quliyeva Ş., Əliyeva Z. Ümumtəhsil məktəblərinin IV sinifləri üzrə Musiqi fənni üzrə dərslik. – Bakı: Şərq-Qərb ASC, – 2022. – 82 s.
42. Rəşid Bəy Əfəndiyev Alma ağacının əhvalı (nağıl) https://portal.azertag.az/az/node/30317
43. Aygün Teymurova aid olan "Təbiəti qoruyaq" https://www.youtube.com/watch?v=uwmyYgbH1n4;
44. Səməd Vurğun. Təbiət ilhama çağırır məni https://www.kulis.az/news/25480
45. Şahbazov T. Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi ziyan, onun ödənilməsinin hüquqi aspektləri https://mod.gov.az/az/pre/24525.htm
46. Teymur Elçin. Yarpaqlar. https://www.youtube.com/watch?v=QIQFVG1Deh8)
47. Təhsil Qanunu. / – Bakı: Qanun, – 2009, – 109 s.
48. Təmənnalı yaxşılıq (əfsanə) https://portal.azertag.az/az/node/30567
49. Flora https://az.wikipedia.org/wiki/Flora_(botanika)
50. Ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası haqqında Əsasnamə" chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/http://www.tipii.edu.az/noduploads/document/mumi-tahsil-muassisasinin-pedaqoji-surasi-haqqinda.pdf
51. Zahidova Ş. Azərbaycan dili. I sinif üçün dərslik. / Ş.Zahidova, A.Xanalıyeva, İ.Bayramova, N.Allahverdiyeva, Ü.Nurullayeva. – Bakı: CN Poliqraf MMC, – 2023, – 98 s.
52. Zəlimxan Yaqub. Axar su. https://525.az/news/31010-zelimxan-yaqubun-seirleri

## MÜNDƏRİCAT

**Elmi redaktordan ........................................................................ 3**
**Ön söz ........................................................................................ 6**
**I Fəsil.** Azərbaycan dili dərslərində kiçikyaşlı məktəblilərdə təbiətə qayğıkeş münasibətin formalaşdırılmasının imkanları və yolları ................................................................ 11
**II Fəsil.** Təsviri incəsənət dərslərində kiçikyaşlı məktəblilərdə təbiətə qayğıkeş münasibətin formalaşdırılmasının imkanları və yolları ................................ 26
**III Fəsil.** Musiqi dərslərində kiçikyaşlı məktəblilərdə təbiətə qayğıkeş münasibətin formalaşdırılmasının imkanları və yolları ................................................................ 29
**IV Fəsil.** Həyat bilgisi dərslərində kiçikyaşlı məktəblilərdə təbiətə qayğıkeş münasibətin formalaşdırılmasının imkanları və yolları ................................ 33
**V Fəsil.** İbtidai sinif fənləri üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş yanaşmanın təşkili .................................................................... 51
5.1. Azərbaycan dili fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmağın imkanları və yolları .................................... 51
5.2. Təsviri incəsənət fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmağın imkanları və yolları ................................................................ 59
5.3. Həyat bilgisi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmağın imkanları və yolları ................................................................ 69

5.4. Musiqi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələlərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibət formalaşdırmağın imkanları və yolları ........................................................................ 108
**VI Fəsil.** Şagirdlərdə Azərbaycanın florasına və faunasına, təbiətinə qayğıkeş münasibəti formalaşdırmaq sahəsində müəllimin rolu ......................................................................... 116
**VII Fəsil.** Şagirdlərdə ölkəmizin flora və faunasına, təbiətinə qayğıkeş münasibətin tərbiyə olunması işinə pedaqoji rəhbərlik məsələləri ................................................ 131
**VIII Fəsil.** COP 29 – dünyada və Azərbaycanda iqlim dəyişiklikləri ilə bağlı problemlərin müzakirəsini nəzərdə tutan və gözlənilən fəsadların aradan qaldırılmasına kömək göstərəcək əhəmiyyətli tədbir kimi ............................ 136
8.1. COP 29-la bağlı ibtidai sinif müəllimlərinin bilməli olduqları məsələlər ............................................................... 136
**Son söz ....................................................................................... 147**
**İstifadə edilmiş ədəbiyyat siyahısı ...................................... 152**

**SEVİNC TOFİQ QIZI VƏLİYEVA**

# AZƏRBAYCANIN FLORA VƏ FAUNASINA QAYĞIKEŞ MÜNASİBƏTİN TƏRBİYƏ OLUNMASI

**(DƏRS VƏSAİTİ)**

Bakı: "ZƏNGƏZURDA" Çap Evi, 2025, – 160 səh.

**Çap evinin rəhbəri:**
Mübariz Binnətoğlu

**Korrektor:**
Şəbnəm Allahverdiyeva

**Kompüter tərtibçisi:**
Şamxal Şabiyev

Çapa imzalanmışdır: 21.02.2025
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 10 ç.v.
Sifariş: 16
Sayı: 200

---

"ZƏNGƏZURDA" Çap Evində çap olunub.
**Redaksiya ünvanı:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
+994 55 253 53 33
e-mail: zengezurda1868@mail.ru

# SEVİNC VƏLİYEVA

## AZƏRBAYCANIN FLORA VƏ FAUNASINA QAYĞIKEŞ MÜNASİBƏTİN TƏRBİYƏ OLUNMASI

Sevinc Tofiq qızı Vəliyeva 1979-cu ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan şəhər 39 nömrəli orta məktəbini (1996), Naxçıvan Dövlət Universitetinin İbtidai təhsilin pedaqogika və metodikası ixtisası üzrə bakalavr səviyyəsini (2001), həmin universitetin Pedaqogikanın nəzəriyyəsi və tarixi ixtisasının magistratura səviyyəsini (2003) bitirmişdir. Ali təhsilin həm bakalavriat, həm də magistratura səviyyəsini fərqlənmə diplomu ilə başa vurmuşdur.

Naxçıvan Dövlət Universitetinin dissertantı olmuş, fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Kiçikyaşlı məktəblilərdə təbiətə həssas və qayğıkeş münasibətin formalaşdırılması yolları" mövzusunda dissertasiya müdafiə etmişdir (2022). Pedaqogika üzrə fəlsəfə doktorudur. Pedaqogika və psixologiya kafedrasının dosentidir.

2001-2012-ci illərdə Naxçıvan Müəllimlər İnstitutunda Pedaqogika və psixologiya kafedrasında baş laborant, müəllim, institutun Tələbə-məzun qeydiyyatı və diplom söbəsində inspektor, metodist, mütəxəssis, Tələbələrin qeydiyyatı və dövlət nümunəli sənədlərlə iş üzrə baş mütəxəssisi və Pedaqogika və psixologiya kafedrasında baş müəllimi vəzifəsIndə çalışmışdır. Hazırda Pedaqogika və psixologiya kafedrasının müdiridir.

Eyni zamanda Naxçıvan Müəllimlər İnstitutunda fəaliyyət göstərən FD 2.40 Dissertasiya Şurasının nəzdindəki elmi seminarın katibi, Azərbaycan Elm Mərkəzinin "Elmi iş" jurnalının redaktoru, Gender məsələləri üzrə məsul şəxsdir.

50-ə yaxın elmi əsərin, proqram və tədris vəsaitinin müəllifidir.
Ailəlidir, iki övladı var.